# HƏLL YOLU QURAN ƏXLAQI

İnsanların öz əlləri ilə etdiyi əməllərinin nəticəsi olaraq quruda və dənizdə fəsad törəyir ki, Allah onlara, etdiklərinin bir qismini daddırsın. Bəlkə, onlar haqqa qayıdalar. (Rum surəsi, 41)

HARUN YƏHYA

# MÜNDƏRİCAT


- Giriş
- Dinsiz insanların məqsədsizliyi
- Allah qorxusu olmasa nə olar?
- Həqiqi ədalət, Quran əxlaqının yaşanması ilə təmin edilə bilər
- Siyasi həyatda baş verənlər
- Dinsizliyin iqtisadi həyat üzərindəki təsirləri
- Din, yoxsulların və yetimlərin qorunmasını əmr edər
- Dinsiz cəmiyyətlərdəki əxlaq pozğunluğu
- Dinsizliyin səbəb olduğu cinayətlər
- Dünyada baş verən müharibələr
- "Qəzəbli soy qoruyuculuğu": İrqçilik
- Dinsiz cəmiyyətlərdə yaşanan zülm və iğtişaşlar
- Nəticə

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə

düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# Giriş

Zülmə məruz qalan, işgəncəylə öldürülən insanlar, günahsız körpələr, bir çörək alacaq pulu belə olmayanlar, soyuq havada, bezdən çadırlarda az qala küçədə yatanlar, xəstəliklərini müalicə etdirməyə pul tapa bilməyənlər və ya qoca və gücsüz olmalarına baxmayaraq xəstəxanalarda saatlarla hətta günlərlə müalicə növbəsi gözləyənlər, yalnız müəyyən bir qəbiləyə mənsub olduqları üçün qətl edilənlər, dinlərindən ötrü evlərindən, yurdlarından çıxardılan qadınlar, uşaqlar və yaşlılar, bir tərəfdən hələ də davam edən israfçılıq, digər tərəfdən isə aclıqdan və baxımsızlıqdan məhv olan, ölümə tərk edilən yazıq insanlar, küçəyə atılan, öz başının çarəsinə baxa bilməyəcək qədər kiçik və müdafiəsiz uşaqlar, ailəsini dolandırmaq üçün kiçik yaşda məktəbə getməyib, oyun oynamayıb işləyən və ya dilənən uşaqlar, hər an düşmənləri tərəfindən öldürülmə qorxusu ilə yaşayan insanlar...

Burada adları çəkilən insanların varlığından hər kəs xəbərdardır. Demək olar ki, hər gün, qəzetlərdə, televizorda bu çarəsiz, yazıq, kimsəsiz və möhtac insanların görünüşlərinə rast gəlmək mümkündür. Bir çox kimsə bu insanların içində olduqları vəziyyəti görər, onlara yazığı gələr. Ancaq bir müddət sonra danışdığı mövzunu ya da baxdığı kanalı dəyişdirdikdə və ya oxuduğu qəzetin səhifələrini çevirdikdə bu insanların varlığını unudar. Bir çox adam bu insanları olduqları vəziyyətdən xilas etmək üçün bir səy göstərməsinin lazım olduğunu düşünməz. Və "məgər dünyada o qədər zəngin və güc sahibi insan olduğu halda, o insanları mənmi xilas etməliyəm" deyərək məsuliyyəti başqalarının boynuna atar.

Halbuki bu insanları xilas etmək, bütün dünyanın ədalət, hüzur, etimad və zənginlik içində yaşanan, rifah dolu bir yer olmasını təmin etmək üçün zənginlik və güc tək başına kifayət deyil. Məsələn, dünyada çox sayda zəngin və inkişaf etmiş ölkə olmasına baxmayaraq, Efiopiyada hələ də insanlar aclıqdan ölürlər. Bu qədər inkişaf etmiş texnologiyaya və dünyanın zəngin mənbələrinə baxmayaraq, insanların bir qab yeməyə möhtac olmaları, zənginliyin və gücün tək başına kifayət etmədiyinin ən aydın göstəricilərindəndir.

Zənginliyin və gücün, bu yazıq və möhtac insanların xeyrinə istifadə edilməsi üçün əvvəlcə insanların vicdan sahibi olmaları lazımdır. Vicdan sahibi olmağın yeganə yolu isə imandır. Ancaq imanlı insanlar həmişə vicdanlarından istifadə etməklə hərəkət edirlər.

Nəticə etibarilə, dünyadakı ədalətsizliyin, iğtişaşların, terrorun, qırğınların, aclığın, səfalətin və zülmün tək bir həlli vardır: **Quran əxlaqı.**

Dünyada mövcud olan problemlərə ümumi olaraq baxdıqda, bütün bu hadisələrə sevgisizlik, nifrət, kin, düşmənçilik, mənfəətçilik, eqoizm, laqeydlik, mərhəmətsizlik kimi duyğuların və ağılsızlığın səbəb olduğu görünər. Bu hadisələri həll etməyin və tamamilə aradan qaldırmağın yolları isə sevgi, şəfqət, mərhəmət, yazığı gəlmək, qarşılıq gözləmədən xidmət etmə şövqü, həssas olmaq, fədakarlıq, dostluq, tolerantlıq, sağlam düşüncə və ağıldır. Bu xüsusiyyətlər isə ancaq Quran əxlaqını nöqsansız olaraq yaşayan insanlara aiddir. Allah ayələrində Quranın insanları zülmətlərdən nura çıxarma xüsusiyyətini belə bildirir:

**...Artıq sizə Allahdan bir nur (Məhəmməd) və açıq-aydın bir Kitab gəldi. Allah, Onun rizasını arayan şəxsləri bu Kitabla əmin-amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir. (Maidə surəsi, 15-16)**

Allah başqa bir ayəsində isə Qurana tabe olmadıqda yer üzündə mövcud olan hər şeyin fəsada uğrayacağını xəbər verir:

**Əgər haqq onların nəfslərinin istəklərinə tabe olsaydı, göylər, yer və onlarda olanlar fəsada uğrayardı. Doğrusu, Biz onlara Zikr gətirdik, onlar isə özlərinə verilən Zikrdən üz döndərirlər. (Müminun surəsi, 71)**

Hal-hazırda, siz bu yazını oxuyarkən belə, milyonlarla yazıq insan ya əziyyət çəkir, ya da aclıqdan və ya soyuqdan ölməmək üçün səbir etməyə çalışır. Və ya evindən, ailəsindən və uşaqlarından ayrı düşür, yurdundan sürgün olunur. Buna görə də vicdan sahibi insanlar bütün bunları düşünməli, bütün bu əzablar, fəlakətlər, sıxıntı və çətinliklər özlərinə və sevdiklərinə üz vermiş kimi həssas davranmalıdırlar. Və kömək istəyən insanlara maddi-mənəvi hər cəhətdən kömək edə bilməyin yollarını axtarmalıdırlar. Allah iman edən, vicdan və sağlam düşüncə sahibi olan insanların bu məsuliyyəti boyunlarına götürmələrini bir ayəsində belə əmr edir:

**Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!" – deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz? (Nisa surəsi, 75)**

İndiki vaxtda bu xidmətin necə ediləcəyi isə Quran ayələri göz qabağına gətirildikdə açıqca ortaya çıxır. Edilməli olan ən əhəmiyyətli şey, Quran əxlaqının dinsizliyin qarşısında üstün gəlməsi üçün, müsəlmanların fikrən mübarizə aparmalarıdır. Çünki aciz qalan, çarəsiz, kimsəsiz və qorunmağa möhtac olan insanların yeganə xilas yolu Quran əxlaqının bütün dünya insanları arasında yayılıb yaşanmasıdır. Elə isə bütün insanlara Quran əxlaqını başa salmaq, dini təbliğ etmək hər müsəlman üçün çox əhəmiyyətli və təcili bir ibadətdir.

Vicdanlarından istifadə etməyənlər, yetimlərə, yoxsullara, yazıq günahsızlara qarşı laqeyd və biganə davrananlar, dünya həyatında onlara verilən malları boş yerə sərf edənlər, zülm görən qadınları, uşaqları, yaşlıları əhəmiyyət vermədən seyr edənlər, hər cür əxlaqsızlığın və çirkinliyin yer üzündə yayılmasından həzz alanlar və bu dünyagörüşünü təşviq edən insanlar axirətdə bunların hesabını mütləq verəcəklər:

Dini yalan sayan o kimsəni gördünmü? O elə adamdır ki, yetimi qovar və heç kəsi kasıba əl tutmağa sövq etməz. Vay halına namaz qılanların, o şəxslərin ki, onlar namazlarında səhlənkardırlar. Onlar riyakardırlar və az bir şey verməkdən belə imtina edirlər. (Maun surəsi, 1-7)

# Dinsiz insanların məqsədsizliyi

İndiki vaxtda bəzi insanların ən böyük nöqsanlarından biri, ciddi bir “məqsədsizlik” içində yaşamalarıdır. Demək olar ki, hər insan standart bir həyat modelini mənimsəyər. Qarnını doyurmaq, sığına biləcək bir ev almaq, ailə qurmaq və iş sahibi olmaq insanların böyük qisminin əldə etməyi ümid etdiyi ən yüksək dəyərlərdir. Bu standart həyat modelində, insanların ən əhəmiyyətli hədəfləri isə inkişaf edə bilmək, daha çox pul qazanmağın yollarını tapa bilmək və bir neçə uşaq böyüdə bilməkdir.

Din əxlaqından uzaq cəmiyyətlərin böyük bir hissəsinin həyatına hakim olan məqsədsizliyi və boşluğu daha yaxşı başa düşmək məqsədiylə, insanların bu qeyd olunanlardan başqa qalan digər maraq sahələrinə baxmaq faydalı olacaq. Bəzi insanlar həyatlarını olduqca dar bir dünya görüşü üzərində qurmuşlar. Ümumiyyətlə, gündəlik həyatlarında ən əhəmiyyət verdikləri məsələlərdən biri təqib etdikləri televiziya seriallarını və ya məşhur bir kinofilmi əldən verməməkdir. Bəhsi keçən insanlar üçün bunlardan daha böyük bir məqsəd isə, ictimai tədbirlər göstərən bir klubda vəzifə tutmaq ola bilər.

Başqa bir insan qrupunun zehinləri isə tamamilə işləri ilə məşğuldur. Həyatları boyunca iş yerləri ilə evləri arasında gedib gəlirlər. 20-25 yaşında iş həyatına başlayan bir insan, təxminən 40 il ərzində eyni işləri görər, həmişə Cümə gününün gəlməsini, vergi ayını problemsiz yola verməyi, ev kirayəsi üçün pul yığmağı və uşaqlarının gələcəyini zəmanət altına almağı hədəfləyər. Bu vaxt ərzində ölkəsində və dünyada baş verən hadisələr isə onu çox maraqlandırmaz. Hər şeyin yalnız ticarətinə təsir edən hissəsiylə məşğul olur. Baş verən hər cür hadisəyə asanlıqla uyğunlaşar və dünyadakı hadisələr barəsində heç vaxt düşünməz. Ən çox bu hadisələrin öz işinə necə təsir edəcəyi ilə əlaqədar deyinər və şikayətçi olar. Və ya televiziya proqramlarında səhərə qədər mübahisə edər, amma heç bir nəticə əldə edə bilmədən və çıxış yolu tapmadan qaldığı yerdən həyatına davam edər.

Bəzi gənclər də eyni məqsədsizlik və boşluq içərisindədirlər. Böyük bir hissəsinin, ölkələrini kimlərin idarə etdiyindən, ölkəni idarə edənlərin hansı düşüncələri müdafiə etdiklərindən, bunun ölkənin müdafiəsindən iqtisadiyyatına, təhsil sistemindən ədalət sisteminə qədər necə bir təsiri ola biləcəyindən xəbərləri belə yoxdur. Dünyada baş verən hadisələrin və irəliləyişlərin böyük bir qismini bilməzlər. Hətta ağıllarını dünya tarixinə keçəcək qədər əhəmiyyətli olan hadisələrin əhəmiyyətini belə dərk edə bilməyəcək qədər boş mövzularla məşğul edərlər. Aralarındakı söhbətlər, kompyuter oyunları, internetdə qurduqları dostluqlar, qız və ya kişi dostları, məktəbdə baş verən hadisələr, imtahanda necə köçürdükləri, həftə sonu kimin hara getdiyi və nə geydiyi, ya da futbol matçları kimi mövzulardan kənara çıxmaz. Bəzən bəzi jurnallarda olan anket nəticələrində də görünə biləcəyi kimi, “ən böyük idealın nədir?” deyə soruşulduqda, ya bir manekenə bənzəmək istədiklərini ya da məşhur bir qrupun gitaraçısı kimi gitara çala bilməyi qarşılarına məqsəd qoyduqlarını deyərlər.

Məqsədsizliklərindən ötrü özlərini heç bir mövzuda inkişaf etdirməyi düşünməzlər. Məsələn, daha gözəl və təsir edici danışmağı ağıllarına belə gətirməzlər. Çünki başa salıb da insanlara təsir edə biləcəklərini düşündükləri tək bir fikirləri belə yoxdur. Və ya heç kitab oxumazlar. Bir fikri və məqsədi olan adam, həm öz düşüncələrinə, həm də zidd düşüncələrə aid kitabları oxuyar, zidd düşüncəni daha yaxşı bilməyi və beləliklə də, bütün zəif istiqamətlərini tapmağı hədəfləyər. Amma insanın bir fikri olmadıqda, əlbəttə ki, mövcud fikirlərin varlığı onun üçün heç bir məna ifadə etməz. Hətta bu insanlar, mövcud fikir və dünya görüşlərindən də xəbərdar deyildirlər. Bir çox cəmiyyətdə kitab və qəzet oxumaq nisbətinin olduqca aşağı olması, amma bununla yanaşı dedi-qodu qəzetlərinin və proqramlarının böyük maraq oyandırması, bəzi insanların boş vaxtlarının olmasına baxmayaraq, günlərini özlərinə heç bir fayda verməyən seriallarla və faydası olmayan televiziya proqramlarına baxmaqla keçirmələri bu məqsədsizliyin və korlanmanın bir nəticəsidir.

İnsanlar üçün əsl təhlükəli olan şey isə, insanların bir çoxunun məqsədsizliyinin və dünyadan "bixəbər" olmasıyla yanaşı, bir fikrə və dünyagörüşünə sahib olan insanların böyük bir hissəsinin də "batil" və insanlar üçün "zərərli" olan fikirləri müdafiə etmələridir. Çünki, bir tərəfdən insanlara zərər verəcək düşüncələrin rəhbərləri və müdafiəçiləri, digər tərəfdən də yaxınlığındakı təhlükəni belə hiss edə bilməyəcək qədər boş və "hara çəksən gələn" sıx bir insan kütləsi var.

Anarxiya və terror tərəfdarı, ölkələrinə və millətlərinə zərər verə biləcək fikirlərə sahib olan kəslər, ətraflarında məsələn məktəb bufetlərində öz fikirlərinə tərəfdar toplayarkən, məqsədsiz və fikirsiz bir gənc bufetdə oturub boş-boş ətrafına baxar ya da çox vaxt kart oynayar. Həmin vaxtda yanındakı bir insanın, olduqca təhlükəli fikirlərlə çirkləndiyinin, bəlkə də çox qısa bir müddətdən sonra ölkəsinin polisinə, əsgərinə və günahsız insanlarına qarşı silah çevirəcək olan bədnam bir günahkar olacağının fərqində belə ola bilməz. Bunun fərqində olsa belə bu təhlükə onun heç vecinə olmaz. Onsuz da bu vəziyyətə qarşı ağıllı bir şəkildə müdaxilə edəcək şüur və məsuliyyəti də göstərə bilməz.

Allah bir ayəsində bəzi insanların içində olduqları bu məqsədsizliyə belə diqqət çəkir:

**Qoy onlar bir müddət yeyib-içsinlər, əylənsinlər və xam xəyallar onların başlarını qatsın. Tezliklə biləcəklər. (Hicr surəsi, 3)**

Diqqət edilsə, universitetlərdə hər hansı yeni bir qayda tətbiq olunmağa başlandıqda reaksiya verən təbəqə, doğrunu və gözəl olanı müdafiə etmədiyi üçün reaksiyasıyla ətrafına faydadan çox zərər verər. Digər təbəqə isə onları haqq ədalətə çağırmağı, dövlətə bağlılığı, üsyankarlıqdan uzaq durub öyüd-nəsihət vermək əvəzinə, reaksiyasız qalmağı, bu zərərli fikirlərə müdaxilə etməyib tamaşaçı mövqeyində qalmağı seçərlər. Bu vaxt digərləri də kin və nifrətlə ortaya çıxar, şüarlarla, alqışlarla, daş və çubuqlarla yeriyərək insanlara zülmün və dəhşətin başqa bir tərəfini göstərərlər. Ancaq bütün səyləri boşa çıxar, çünki bu kəslər Allahın bildirdiyi doğruları müdafiə etmir, əksinə Quran əxlaqına uyğun olmayan hər cür davranışı göstərirlər. Allah bir ayəsində inkar edən insanların dünyadakı səylərinin boşa çıxacağını belə bildirir:

**Rəbbini inkar edənlərin məsəli – onların əməlləri, qasırğalı bir gündə küləyin şiddətlə sovurduğu külə bənzəyir. Onlar gördükləri işlərə görə savab qazanmazlar. Dərin azğınlıq da elə budur. (İbrahim surəsi, 18)**

İnsanların bu vəziyyətə düşməmələri üçün yeganə çıxış yolu isə, onların "yalnız öz həyatlarını davam etdirə bilmək və ehtiyaclarını ödəyə bilmək üçün yaşayan" insanlar olmamalarının təmin edilməsidir. Bunun üçün bəhsi keçən kəsləri, digər insanlara xidmət etməyi, yalnız öz şəxsi problemlərini ya da ölkələrindəki problemləri deyil, bütün dünyadakı problemləri həll etməyi hədəfləyən və bu yolda səy göstərən fərdlər olmaları istiqamətində təşviq etmək lazımdır. İnsanlara hədəf olaraq ən doğrunu və ən gözəli göstərən isə Allahın insanlar üçün seçdiyi və Quranla bildirdiyi dindir:

**Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu bunu bilmir. (Rum surəsi, 30)**

İnsanları yaradan Allah, onların ən rahat olacaqları, dincliyi və etimadı artıqlamasıyla tapa biləcəkləri dini də yaratmışdır. Buna görə də dindən kənar heç bir fəlsəfə və ya fikir cərəyanı, insanlara axtardıqları mükəmməlliyi və gözəlliyi verə bilməz. Buna görə də səhv fikirləri müdafiə edən insanlara da, fikirlərinin niyə səhv və etibarsız olduğunu dəlillərlə izah edilməli və bunun əvəzinə doğrusu öyrədilməlidir.

Quran əxlaqının izah edilməsi, həm məqsədsiz və özbaşına insanların, həm də kor-koranə səhv fikirlərin arxasınca gedənlərin, dünyanın bir məqsəd uğruna yaradıldığını görüb başa düşmələri baxımından olduqca əhəmiyyətlidir. Allah Quranda **"...insanları ancaq Mənə ibadət etmək üçün yaratdım". (Zəriyət surəsi, 56)** ayəsiylə insanların yaradılış məqsədini bildirmişdir.

Hər insan bir gün mütləq öləcək. Həqiqi və sonsuz həyatı öldükdən sonra başlayacaq. Bu dünyada yaşadığı həyatın məqsədi isə, həqiqi həyatında Allahın razı qaldığı və cənnətində qonaq olacaq bir insan ola bilmək üçün çalışmaqdır. Hər insanın dünya həyatındakı rəftarı, idealları və inancı axirətdəki sonsuz həyatının cənnətdə yoxsa cəhənnəmdə keçəcəyini müəyyənləşdirir. Buna görə də bəzi insanların əhəmiyyət vermədən, boş və dəyərsiz işlərlə əylənmələri, ömürlərini bunlarla keçirmələri, sanki bu dünyada olmalarında bir məqsəd yoxmuş kimi hərəkət etmələri, bu insanların təcili olaraq xəbərdar edilmələri və içində olduqları qəflətdən oyandırılmalarının lazım olduğunu göstərir.

Dünyadakı məqsədinin Allahın razılığını, rəhmətini və cənnətini qazanmaq olduğunun şüurunda olan bir insan isə ətrafında olub bitən heç bir hadisəyə qarşı laqeyd və biganə qala bilməz. Hər hadisənin Allahın razılığını qazanmaq üçün bir fürsət olduğunu bilər və həmişə bunu dərk edərək hərəkət edər. Ətrafında və bütün dünyada gördüyü iğtişaşlar və ya zülm

vicdanını narahat edər. Məsələn, çətinlik içində həyatlarını davam etdirən, qışın soyuğunda küçələrdə yaşamaq məcburiyyətində qalan, hər bir yetim uşağın məsuliyyətini öz üstündə hiss edər. Allahın **"Elə isə yetimə xor baxma! Səndən kömək diləyəni qovma!". (Duha surəsi, 9-10)** ayələrində bildirdiyi kimi, onlara gözəlliklə davranar. Onların içində olduqları vəziyyətdən xilas ola bilmələri üçün səy göstərər, çıxış yolu axtarar. Ancaq yalnız özünün və ya ətrafındakı bir neçə adamın gözəl əxlaqlı davranmasıyla bu vəziyyətdəki uşaqların xilas ola bilməyəcəyini bilər. Buna görə də bütün insanların Quran əxlaqını yaşamaları üçün səy göstərər.

## Məqsədsizliyin səbəb olduğu eqoizm

İnsanların məqsədsizlikləri, eqoist, biganə, yalnız öz mənfəətlərini düşünən, hadisələrə qarşı laqeyd və reaksiyasız olan insanlar və dolayısilə cəmiyyətlərin meydana gəlməsinə səbəb olur. Yeganə məqsədi həyatını davam etdirə bilmək olan bir insan, ətrafında olub bitən hadisələr arasından yalnız öz həyatına istiqamətli olanları qəbul edər və yalnız onların üzərində dayanar. Məsələn, ticarət etdiyi ölkədə vətəndaş müharibəsi çıxdığını öyrəndikdə tək qayğısı oradan qazanacağı pulun aqibətinin necə olacağıdır. Amma heç vaxt o ölkədə qətl edilən insanları, zülmə uğrayaraq öldürülən körpələri, insanların yaşadıqları qorxu və əziyyət dolu həyatı düşünməz. Bunları ağlına belə gətirməz. Yalnız öz pulunun dərdinə düşər, o insanlara hər hansı bir şəkildə kömək etməyi planlamaz. Məhz bu, bəzi insanların normal qarşıladığı, onsuz da belə olmalı olduğunu düşündükləri eqoizm və biganəlik nümunələrindən yalnız biridir.

Demək olar ki, hər gün bütün dünyada Quran əxlaqının yaşanmamasından qaynaqlanan iğtişaşlara və dinsizliyin meydana gətirdiyi zülm mühitindən ötrü ziyana uğrayan, dözülməz çətinliklər yaşayan insanların həyatlarına qəzetlərdə və ya televiziyalarda şahid olarıq. Məsələn, Fələstində, İndoneziyada, Kosovada, Çeçenistanda və ya dünyanın hər hansı başqa bir yerində bir ovuc torpaq üçün yerlərdə süründürülən, uşaqlarının gözü qarşısında təpiklənən insanlar, əllərində daşlarla özlərini müdafiə etməyə çalışan kiçik uşaqlar hər kəsin gördükləridir. Ancaq bəzi insanlar bütün bu mənzərələri görüb rahat-rahat yata bilir, "mənə toxunmayan ilan min il yaşasın" məntiqi ilə hərəkət edə bilir. Bu insanlar **"böyük" düşünməyə, "üstün" bir əxlaqa və "güclü" bir vicdana** görə yaşamağa vərdiş etmədikləri üçün belə bir biganəliyi normal qarşılaya bilirlər.

Halbuki, buradakı vicdansızlığı görə bilmək üçün insanın özünü zülmə məruz qalan bir kimsənin yerinə qoyması kifayət edər. Məsələn, bu insan, günahsız insanların qətlə yetirildiyi, yoldaşının, uşaqlarının, qardaşlarının, ata anasının zülmə məruz qaldığı, aclıqdan və dözülməz bir yoxsulluqdan ötrü çətinliklə ayaqda dura bildiyi, xəstə uşağını müalicə etdirməyə pulunun və imkanının olmadığı və ya heç bir səbəb olmadan evindən və yurdundan çıxarıldığı bir mühitdə yaşasa... Və qarşısında belə bir mühitdə olmayan, lakin qazanacağı pulun dərdinə düşmüş, "məgər bu insanları mən xilas edəcəyəm?" deyərək laqeyd davrandığı bir insan görsə nə düşünər? Bu insanın nə qədər vicdansız, biganə və insafsız olduğunu fərq etməzmi?

Halbuki, vəziyyəti başa düşmək və vicdanlı davranmaq üçün bir insanın zülmə məruz qalması şərt deyil. Adamın bu insanların içində olduğu vəziyyəti görməsi və gördüklərini Quran əxlaqına görə qiymətləndirməsi kifayətdir. Amma insanlar Quran əxlaqından uzaqlaşdıqca, bu vicdan həssaslığından da uzaqlaşmış olarlar. Allah dindən uzaq insanların bu eqoist, laqeyd və qatı rəftarlarını ayələrində belə bildirir:

**Həqiqətən, insan kəmhövsələ yaradılmışdır. Ona bir pislik toxunduqda özündən çıxır, bir xeyir nəsib olduqda isə xəsislik edir. (Məaric surəsi, 19-21)**

Allah Məaric surəsindəki bu ayələrin davamında isə “eqoist” və “həris” olmayan, möhtac insanları qoruyan kəslərin var olduğunu da bildirir və bu insanları belə ifadə edir:

**Namaz qılanlar istisnadır. O kəslər ki, namazlarını həmişə qılırlar. O kəslər ki, onların mallarında məlum bir haqq vardır, dilənən və həya edib dilənməyən miskinlər üçün. O kəslər ki, Haqq-hesab gününü təsdiq edirlər. O kəslər ki, Rəbbinin əzabından qorxurlar. (Məaric surəsi, 22-27)**

Allahın ayələrdə də bildirdiyi kimi, Allahdan qorxub çəkinən insanlar, yazıq insanların məsuliyyətini boyunlarına götürərlər. Çünki Allah dünya həyatında insanlara doğru və səhv olmaqla iki yol göstərmişdir. Allah Quranda bu həqiqəti belə bildirir:

**Onu iki yoxuşlu yola yönəltmədikmi? O isə sərt yoxuşu aşmağa can atmadı. Sən nə bilirsən ki, sərt yoxuş nədir? O, bir kölə azad etməkdir və ya aclıq günündə möhtaca yemək verməkdir, qohumluq əlaqəsi çatan bir yetimə, yaxud aclıqdan yerə uzanmış kasıba! Sonra isə o, iman gətirən, bir-birinə səbir və mərhəmət tövsiyə edənlərdən olmaqdır. Onlar sağ tərəf sahibləridir. Ayələrimizi inkar edənlər isə sol tərəf sahibləridir. Od onların üzərində qapanacaqdır. (Bələd surəsi, 10-20)**

Yuxarıdakı ayələrdə doğru olaraq göstərilən yol olduqca aydındır. Buna görə də Allahın razılığını, rəhmətini və cənnətini qazanmağı qarşısına məqsəd qoyan vicdanlı bir insanın dünyada davam edən zülm mühitlərinə ya da yazıq və möhtac insanlara qarşı laqeyd qalması, bu insanların aqibətini düşünməməsi qeyri-mümkündür.

Vicdan sahibi hər insan unutmamalıdır ki, bu gün bütün dünyada anarxiya, zülm və zorakılıq milyonlarla insanın səfalət və dəhşət içində yaşamalarına səbəb olur. “Onların səfalətindən başqaları məsuldur, mənim bunda nə məsuliyyətim ola bilər ki” demək vicdan sahibi bir insana yaraşmaz. Allah, əlbəttə ki, gücü çata bilən, sağlam olan hər adama axirətdə bu yazıq insanların hesabını soruşacaq. İnsanlara zülm olunmasına zəmin hazırlayan fikri cərəyanların mövcud olmasına imkan verən, onsuz da özünə bir zərər vermir deyə insanları məhv etməyi qarşısına məqsəd qoyan ideologiyalar ilə mübarizə aparmayan hər insan, istər öz üstünə götürsün, istərsə də götürməsin, deməli zülm edənlərlə eyni cəbhədə iştirak edir. Din əxlaqı yaşanmadığı müddətcə, məsuliyyətsiz və özbaşına olduğunu zənn edən, heç kimə hesab vermək məcburiyyətində olmadığını düşünən, yalnız öz mənfəətlərini qorumağın və həyatda qalmağın hesabı içində olan insanların meydana gətirdiyi bir cəmiyyət modeli hakim olacaq.

Necə ki, dinsizliyin əsasını meydana gətirən materialist fəlsəfə və materializmə “guya” elmi dəstək verən təkamül nəzəriyyəsinin əsasında, mənəvi dəyərlərdən tamamilə məhrum, heç kimə hesab vermək məcburiyyətində olmayan, məsuliyyətsiz və özbaşına bir insan modeli

meydana gətirmək əməli vardır. Təkamül nəzəriyyəsinə görə insan təsadüflərin meydana gətirdiyi, meymundan əmələ gəlmiş, inkişaf etmiş bir heyvandır. İnsana bu cür primitiv gözlə baxan bir inancda, digər insanlar üçün fədakarlıq göstərilməsi, əzab çəkən bir insanın xilas edilməsi, ona şəfqət və mərhəmət göstərilməsi gözlənilə bilməz. Üstəlik təkamül nəzəriyyəsinə görə həyat yalnız güclülərin yaşama haqqı əldə etdiyi bir mübarizə yeridir, yazıq və zəif olan məhv olmağa məhkumdur. Dünyadakı insanlar illərdir ki, məktəblərdən, televiziya və qəzetlərdən, ətraflarındakı insanlardan bu təlqini alırlar. Bu təlqini aradan qaldırmağın, insanlar arasında şəfqət, mərhəmət, köməkləşmə və həmrəylik duyğularını yerləşdirməyin yeganə yolu, insanlara Quran əxlaqını təbliğ etmək və dinsizliyin dünyada və axirətdə insana bəxş edəcəyi itkiləri izah etməkdir. Bu, hər bir müsəlmanın boynuna düşən əhəmiyyətli bir məsuliyyətdir. Belə böyük və şərəfli bir məsuliyyəti boynuna götürənlərə Allah gözəl bir nəticə vəd etmişdir:

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir. (Nur surəsi, 55)**

# Allah qorxusu olmasa nə olar?

Hər rəftarının bir qarşılığının olduğunu dərk edən və Allaha qovuşacağını bilən bir insanla, heç kimə hesab vermək məcburiyyətində olmadığını zənn edən bir insanın davranışları arasında böyük bir fərq vardır. Allah qorxusu olmayan bir insan hər cür günah işləyə bilər, mənfəətləri üçün hər cür əxlaqsızlığa göz yuma bilər. Məsələn, çox adi bir səbəbə görə və ya dünyəvi bir mənfəət üçün "gözünü belə qırpmadan" adam öldürə bilən bir insan, bunu Allahdan qorxub çəkinmədiyi üçün edər. Çünki Allaha və axirət gününə yəqinliklə iman etsə, əsla axirətdə hesabını verə bilməyəcəyi bir şey edə bilməz.

Quranda hz. Adəmin oğullarından nümunə verilərək, Allahdan qorxan bir insanla qorxub çəkinməyən bir insan arasındakı kəskin fərqə diqqət çəkilmişdir:

**Onlara Adəmin iki oğlunun həqiqi əhvalatını oxu. O zaman ikisi də qurban vermiş, onların birindən qəbul edilmiş, digərindən isə qəbul edilməmişdi. Qurbanı qəbul olmayan oğlu öz qardaşına demişdi: "Səni hökmən öldürəcəyəm!" Qardaşı da ona belə demişdi: "Allah ancaq müttəqilərdən qurban qəbul edər!**

**Sən məni öldürmək üçün mənə əl qaldırsan da, mən səni öldürmək üçün sənə əl qaldıran deyiləm. Həqiqətən, mən aləmlərin Rəbbi Allahdan qorxuram. (Maidə surəsi, 27-28)**

Allah qorxusu olmayan tərəf, qardaşını heç bir günahı olmadığı halda, gözünü belə qırpmadan öldürə biləcəyi halda, o biri ölümlə təhdid olunmasına baxmayaraq qardaşını öldürməyə cəhd etməyəcəyini deyir. Məhz bu, o adamın sahib olduğu Allah qorxusunun bir nəticəsidir. Onda cəmiyyətin bütün fərdləri Allah qorxusuna sahib olduqda cinayət, zülm, haqsızlıq, ədalətsizlik kimi Allahın razı olmayacağı bütün hadisələr sona çatacaqdır.

İnsanların əxlaqsızlıqlarının və zülmlərinin başqa bir səbəbi isə dünyaya olan ehtiraslı bağlılıqlarıdır. Bu xarakterdəki insanlar dünyada kasıb olmaq, gələcəyini zəmanət altına ala bilməmək narahatlığı keçirərlər. Buna görə də bir çox insan rüşvət, korrupsiya, oğurluq, yalançı şahidlik, fahişəlik kimi cinayətləri vərdiş halına gətirər. Halbuki Allaha iman edən bir insan üçün Allahın rizası hər şeydən vacibdir. Belə bir insan Allahın razılığını itirəcəyini bildiyi bir şeydən qəti surətdə çəkinər. Yalnız Allahdan qorxar, nə ölüm, nə aclıq, nə də başqa bir çətinlik onu doğru bildiyi yoldan ayıra bilməz.

Buna görə də Allahdan qorxan bir insan, tələblər nə olursa-olsun Quran əxlaqından güzəştə getməz. Belə bir insan həmçinin olduqca etibarlıdır. Həmişə vicdanlı rəftarlar göstərər. Tək başına olduqda belə, Allahın özünü gördüyünü və eşitdiyini bildiyi üçün, heç bir şərt altında vicdansızcasına, zalımcasına davranmağa cəhd etməz.

Dinsizlik isə vicdansızlığa sövq edər. Məsələn, bir adamın avtomobiliylə bir insanı vurduqdan sonra arxasına dönüb baxmadan qaçması, o adamın dindən uzaq olmasının bir göstəricisidir. Can verən, bəlkə lazımlı bir müdaxilə ilə xilas edilə biləcək bir insanı vicdansızca öz halına buraxan adam, insanlardan qaçaraq xilas olacağını düşünər. Amma bu əsnada Allahın hər anına şahid olduğunu düşünməz. Halbuki, Allahın əzabından və hesablaşma günündən qaçmaq heç bir şəkildə mümkün deyil. Allah edilən bütün haqsızlıqların, zülmlərin, vicdansızlıqların əvəzini hesablaşma günündə tam olaraq verəcək. Allah Quranda belə buyurur:

**...əmanətə xəyanət edən kimsə Qiyamət günü xəyanət etdiyi şeylə gələr. Sonra da hər kəsə əməllərinin əvəzi tam veriləcək və onlara zülm edilməyəcəkdir. Məgər Allahın razılığını qazanmaq üçün gedən kimsə, Allahın qəzəbinə gələn və sığınacaq yeri Cəhənnəm olan bir kimsə ilə bərabər tutula bilərmi? Ora nə pis qayıdış yeridir! (Ali İmran surəsi, 161-162)**

İnsanlara Allahın ayələri xatırladıldığı və bu əhəmiyyətli həqiqət təlqin edildiyi təqdirdə bu tərz vicdansızlıqların da qarşısı alınacaqdır.

Dindən uzaq insanların vicdansızca rəftarlarına başqa bir nümunə olaraq tibb mövzusunda təhsil almadığı halda müxtəlif sahələrdə həkimlik edən kəsləri də göstərə bilərik. Bu kəslər kifayət qədər məlumatları və təcrübələri olmadığı halda rahatlıqla insanları aldada bilir, üstəlik onların sağlamlıqlarını təhdid edəcək, ölümlərinə səbəb ola biləcək qədər ciddi mövzularda belə, bu cür bir vicdansızlığa yol verə bilirlər. Bunu edərkən düşündükləri isə, özlərinə bəzi dünyəvi mənfəətlər təmin etmək və pul qazanmaqdır. Halbuki, Allah bir ayəsində **"əmanətləri sahiblərinə qaytarmanızı". (Nisa surəsi, 58**) əmr etmişdir. Bir insanın sağlamlığı da əhəmiyyətli bir əmanətdir. Buna görə də Allahın bu ayəsi tətbiq edildikdə, insanların bilmədikləri mövzularda iş görmələri, digər insanlara zərər verə biləcək cəhdlər etmələrindən söhbət gedə bilməz.

Allahdan qorxmayan insanların etdikləri vicdansızcasına rəftarlara hər yerdə, həyatın hər anında rast gəlmək mümkündür. Məsələn, Allahın əzabını uzaq görən, düşünməyən bir insan asanlıqla günahsız bir insana böhtan ata bilər. Onun üçün əhəmiyyətli olan insanları razı sala bilmək və onları dediklərinə inandıra bilməkdir. Belə bir insan Allahın hər şeyə şahid olduğunu və axirətdə heç bir şeyin unudulmadan aşkar ediləcəyini düşünməz. Buna görə də böhtan atdığı günahsız adamın çətin vəziyyətdə qalması, çətinlik çəkməsi, həbs olunması kimi hadisələr onun vicdanını narahat etməz. Halbuki, Allah böhtan atmağın qarşılığını Quranda belə bildirmişdir:

**Kim xəta edər və ya günah qazanarsa, sonra da onu təqsiri olmayanın boynuna atarsa, özü özünə böhtan atmış və açıq aydın günaha batmış olar. (Nisa surəsi, 112)**

**Şübhəsiz ki, Aişə barəsində yalan xəbər gətirənlər özünüzdən olan bir dəstədir. Onu özünüz üçün pis bir şey hesab etməyin. Əksinə, bu sizin üçün xeyirlidir. O dəstədən olan hər bir şəxsin qazandığı günahın cəzası vardır. İçərilərindən günahın böyüyünü öz üstünə götürəni isə böyük bir əzab gözləyir. (Nur surəsi, 11)**

Allahdan qorxub çəkinməyən bir insan digər insanlara qətiyyən dəyər verməz. Məsələn, bir çox restoran sahibinin mətbəxlərində sanitar normalara diqqət yetirməmələrinin, yaşlı insanlara hörmət edilməməsinin, ilk tibbi yardım göstərilən təcili xəstələrə kifayət qədər diqqət yetirilmədiyi üçün ölmələrinin, yazıq insanların itirilib tapılmamalarının, bir ovuc torpaq üçün milyonlarla günahsız insanın qətlə yetirilməsinin səbəbi, insanların Allah qorxusuna sahib olmamasıdır.

Allah qorxusuna sahib olan insanlardan ibarət olan bir cəmiyyətdə, heç kim bu cür davranışlara yol verməz. Bütün bunların hesablaşma günündə qarşısına gətiriləcəyini bilir. Bu şüurdakı insanlardan ibarət olan bir cəmiyyətdə isə, əlbəttə ki, dinclik və etimad duyğusu hakim olar. Həmçinin Allahdan qorxan insanlar fahişəlikdən və hər cür həyasızlıqdan çəkinib hörmət, şəfqət və mərhəmət mövzusunda həssas olduqları üçün ailə strukturları da möhkəm olar. Ailə quruluşu möhkəm olan bir ölkədə, insanların bir-birlərinə bağlılıqları vasitəsiylə dövlət rəhbərliyi də güclü olar.

# Qarşılıq gözləmədən yaxşılıq etmək

Allah qorxusu olan bir insan həmçinin vicdanını dinləyən və daim Quran əxlaqına uyğun hərəkət edən bir insandır. Quranda bütün insanlara qarşılıqsız olaraq yaxşılıq etmələri, insanlara kömək etmələri, onlara gözəl bir həyat təqdim etmək üçün çalışmaları əmr edilər. Bir ayədə **"Yaxşılığı təmənna məqsədilə etmə!". (Müddəssir surəsi, 6)** əmri ilə, insanın etdiklərində dünyəvi bir mənfəət güdməməsinin lazım olduğuna diqqət çəkilmişdir. Allahın bu əmrlərinə tabe olan və etdiklərindən dünyəvi bir qarşılıq gözləməyən bir insanın tək bir məqsədi vardır, o da Allahın özündən razı olması, onu cənnətə layiq bir qul olaraq qəbul etməsidir.

Ancaq diqqət yetirsək, indiki vaxtda edilən yaxşılıqların böyük bir hissəsi dünyada əldə olunacaq bir qarşılığa əsaslanır. Məsələn, bir iş adamı "guya" yardım üçün vəqf qurar, ancaq əsl məqsədi ödəyəcəyi verginin azalmasını təmin etməkdir. Cəmiyyətdən maddi bir qarşılıq əldə etməsə belə, etdiyi kömək bütün xalqa qəzetlər və televiziya proqramları vasitəsiylə çatdırılır. Bunun nəticəsində əldə etdiyi qarşılıq isə göstərişdir. Buna bənzər bəzi mənfəətlər uğruna edilən köməklər əslində çox vaxt fayda belə verməz. Yalnız insanların görüb təqdir edəcəkləri hissələri dəbdəbəli hala gətirilər. Məsələn, maşınlarla yemək göndərilər, amma ya yeməklər ehtiyaca xidmət etməz ya da xarab çıxar və ya göndərildiyi yerdə bu yeməklərin bölüşdürülməsini həyata keçirəcək bir sistem düşünülmədiyi üçün tonlarla yemək israf olar.

Başqa bir nümunə olaraq da bunu verə bilərik: Siyasətlə maraqlanan bəzi insanların ümumiyyətlə ağızlarında həmişə məqsədlərinin xalqa xidmət olduğu şüarı vardır. Amma bu şəxslər nazir olaraq seçilmədikdə bir anda partiyalarına olan sədaqətlərini və guya "məqsədləri"ni bir kənara qoyaraq, həqiqi məqsədlərinin məqam və vəzifə olduğunu göstərə bilirlər. Bu cür düşünən insanların cəmiyyətlərə nə qədər fayda gətirəcəkləri isə şübhə altındadır.

Bir sözlə səmimi niyyətlə görülməyən işlərin bir bərəkəti və faydası olmaz. Allah bu həqiqəti bir ayəsində belə bildirir:

**Ey iman gətirənlər! Sədəqələrinizi, özünü camaata göstərmək məqsədilə xərcləyən, Allaha və Axirət gününə inanmayan şəxs kimi minnət qoymaqla və əziyyət verməklə puç etməyin. Bunun məsəli üzərində torpaq olan hamar qayanın məsəlinə bənzəyir ki, şiddətli yağış yağıb onu çılpaq hala salmışdır. Onlar qazandıqlarından heç bir şeyə nail olmazlar. Allah kafir xalqı doğru yola yönəltməz. (Bəqərə surəsi, 264)**

Səmimi bir niyyətlə, insanlara fayda vermək və qarşılığında Allahın razılığını qazanmaq üçün edilən yaxşılıqlar isə Allahın ayəsində bildirdiyi kimi olduqca bərəkətli və qazanclı olar. Allah insanların səmimi niyyətlərinə qarşılıq olaraq bütün işlərində onlara uğur nəsib edər,

onlara işlərində fayda verəcək müxtəlif yollar açar. Bir ayədə bu həqiqətə belə diqqət çəkilmişdir:

**Mallarını Allahın razılığını qazanmaq və nəfslərini möhkəmləndirmək üçün xərcləyənlərin məsəli təpə üzərindəki bağın məsəlinə bənzəyir ki, ona şiddətli yağış düşdükdən sonra o öz bəhrəsini iki qat verər. Hərgah ona şiddətli yağış düşməzsə, narın yağış da bəs edər. Allah sizin nə etdiklərinizi görür. (Bəqərə surəsi, 265)**

Yalnız Allahın razılığını güdən bir insanın edəcəyi yaxşılıqların, göstərəcəyi fədakarlıqların həddi-hüdudu da yoxdur. Dindən uzaq bir cəmiyyətdə bir çox insan hər hansı bir fədakarlığın altında mütləq bir mənfəət vardır, deyə düşünər. Halbuki bu məntiq, dinsizliyə aiddir. Çünki Allah rizasının güdülmədiyi bir cəmiyyətdə, yalnız mənfəətlər ön planda tutulur. İnananlar isə Allahın rizasından başqa heç bir mənfəət güdməzlər:

**Onlar vəd etdikləri nəziri verər və dəhşəti hər yeri sarsıdacaq gündən qorxarlar. Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər və deyərlər: "Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləyirik! Əslində, biz, Rəbbimizdən gələ bilən çox kəskin və ağır bir gündən ehtiyat edirik!" Bunun əvəzində Allah da onları həmin günün şərindən qoruyar və onlara gözəllik və sevinc nəsib edər; (İnsan surəsi, 7-11)**

Məhz kitabın sonrakı hissələrində təfərrüatlı olaraq tədqiq edəcəyimiz problemlərin çıxış yollarının həlli Allahın ayələriylə təsvir edilmişdir. Yalnız Quran əxlaqını yaşamaq bu problemləri əsaslı surətdə aradan qaldıra bilər. Kasıb insanların ehtiyaclarının güdülməsi, yaşlılara lazımi hörmətin göstərilməsi, uşaqların gözəl bir əxlaqla böyüdülərək degenerasiyadan uzaq tutulmaları, müxtəlif fəlakətlərə uğrayan cəmiyyətlərə təcili yardımların çatdırılması, haqsız yerə bir ölkəyə qarşı müharibəyə başlayan, heç bir günahı olmayan minlərlə insanı qətl edən zalım fikri sistemlərin çökdürülməsi, dövlətə və millətə üsyankar bir struktura göz yumulmaması və bunlar kimi hər cür problemin yeganə həlli Allahın insanlara yol göstərici olaraq endirdiyi Qurana tabe olmaqdır. Quranda əmr edilən əxlaqi xüsusiyyətlər yaşandığı müddətcə dünyadakı hər cür fəsad aradan qaldırıla biləcək. Əks təqdirdə isə insanlar özlərini bilə-bilə zalım bir sistemə məhkum etmiş olarlar. Allah Quranda insanların öz-özlərinə verdikləri zərərə belə diqqət çəkmişdir:

**İnsanların öz əlləri ilə etdiyi əməllərinin nəticəsi olaraq quruda və dənizdə fəsad törəyir ki, Allah onlara, etdiklərinin bir qismini daddırsın. Bəlkə, onlar haqqa qayıdalar. (Rum surəsi, 41)**

# Ağılla əldə olunan çıxış yolları

Dünyada yaşanan problemlərə çıxış yolu tapa bilmək və hər sahədə insanlara fayda verə bilmək üçün ağıl, bəsirət (iti görüş, qavrama qabiliyyəti) və fərasət kimi xüsusiyyətlərə sahib olmaq olduqca əhəmiyyətlidir. Və bu xüsusiyyətlərin əldə edilməsi də yenə yalnız Quran əxlaqına tabe olmaqla mümkün ola bilər. Allah bir ayəsində imanın gətirdiyi ağla belə diqqət çəkmişdir:

**Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir. (Ənfal surəsi, 29)**

İnsanlar bəzən qarşılaşdıqları problemlərə çıxış yolu tapmaq istəyə bilərlər. Amma bu kəslər də imanın qazandırdığı qavrayışa, çıxış yolu tapmaq qabiliyyətinə, bəsirət və fərasətə sahib olmadıqları üçün yetərli bir nəticə əldə edə bilməzlər. Çox vaxt imanın şövqü olmadığı üçün verdikləri qərarları həyata keçirməyi həmişə təxirə salar və ya əhəmiyyətli incəlikləri hesablaya bilmədikləri üçün müxtəlif mərhələlərdə ilişib qalarlar.

Məsələn, bu gün dünya ölkələrinin daxilində küçədə yaşayan kimsəsiz uşaqlar əhəmiyyətli bir problemdir. Ancaq bu uşaqlara sahib çıxılmasına, onların cinayət işləmələrinə, narkotikdən istifadə etmələrinə mane olmağa istiqamətlənmiş qəti bir çıxış yolu heç cür tapıla bilmir. Görülən zəif tədbirlər, edilən kiçik miqyaslı yardımlar kifayət qədər olmadığı üçün bu insanlar həyatlarını küçələrdə keçirir, sonunda da ya bir cinayətə görə həbs olunur, ya intihar edir ya da baxımsızlıqdan ölürlər. Halbuki bu uşaqlara yaxşı bir təhsillə Quran əxlaqı öyrədilsə, lazımi imkanlar təmin edilsə belə səhv yollara düşməzlər. Allahdan qorxduqları üçün cinayətə yönəlməz, əksinə dövlətlərinə, millətlərinə xeyir verməyə çalışan fərdlər halına gələrlər.

Bu mövzuda başqa bir nümunə isə müalicə olunma xərci çox olan bir xəstəliyə tutulan insanların vəziyyətidir. Əgər xəstəliyə tutulan adam zənginsə müalicə olub xəstəlikdən xilas olma imkanına sahibdir. Amma əgər xəstə adam kasıbdırsa, müalicə olunma xərclərini ödəyə bilmədiyi üçün aydın şəkildə ölümə tərk edilir. Heç kim durub bu mövzuya bir çıxış yolu tapaq, ağıllı bir tədbir görək deyə düşünmür.

Şübhəsiz ki, bu biganə rəftarın əsasında yenə Allah qorxusunun olmaması və bundan qaynaqlanan bir ağılsızlıq durur. Doğrunu səhvdən ayırma məsələsində qüsurlu olan insanlar qarşılaşdıqları problemlərə də çıxış yolu tapa bilmirlər. Bu, inkarçı insanlara xas bir davranışdır. Allah Quranda bu xarakterdəki insanların vəziyyətini belə bildirmişdir:

**Kafirlərin məsəli çığırtı və bağırtıdan başqa bir şey anlamayanları (heyvanları) haylayanın (çobanın) məsəlinə bənzəyir. Onlar kar, lal və kordurlar, haqqı anlamazlar. (Bəqərə surəsi, 171)**

Halbuki Quran əxlaqına tabe olan insanların, sahib olduqları ağıldan qaynaqlanan çıxış yolu tapma, mənbəni tapmaq, nizamlamaq qabiliyyətləri olduqca yaxşı inkişaf etmişdir. Bu kəslərin istiqamətləndirməsiylə ediləcək təşkilatlanmalar ilə imkan sahibi bir çox insanın maddi imkanlarından bu istiqamətdə istifadə oluna bilər. Əvvəlcə insanlar mövcud problemdən xəbərdar edilə bilər və çıxış yolu tapmaq üçün təkliflər təqdim edilər. Məsələn, bir neçə iş adamının küçədə yaşayan uşaqların sığınacaqları və təhsil alacaqları yerləri hazırlatması çox asan və az vaxt aparacaq bir mərhələdir. Quran əxlaqını yaşayan bir cəmiyyətdə maddi imkanı normal olan hər ailə, bu uşaqlardan yalnız birinin baxımını və təhsilini öz boynuna götürsə, belə bir problem əsaslı surətdə aradan qalxar. Gözəl əxlaqlı və ağıllı insanlar bu tip sadə çıxış yollarıyla hər cür problemi asanlıqla həll edə bilər. Və ya eyni şəkildə xəstə olub müalicə olunma xərclərini ödəyə bilməyən insanların müəyyənləşdirilib, lazımi xərclərinin xüsusi bir büdcədən ödənilməsi də çox asanlıqla həyata keçirilə bilər. Bu cür mövzularda vacib olan bütün dünyanın sahib olduğu imkanları ən faydalı olacaq yerlərə, tamamilə israfın qarşısını alaraq ən məhsuldar yolla nəql edə bilməkdir. Bu, Allahın Quranda insanlara əmr etdiyi bir davranışdır.

Hadisələrə vicdanlarından və ağıllarından istifadə edərək sahib çıxan insanlar çox sürətli bir şəkildə çatışmazlıqları və ehtiyacları müəyyənləşdirərək, çıxış yolu üçün üsullar əldə edə bilərlər. İnsanlar ümumiyyətlə çatışmazlıqları görə bilməzlər və ya görməzlikdən gələrlər. Vicdanlarını narahat etsə belə nə edəcəklərini bilməzlər və ya tədbir görməyə tənbəlliklə yanaşarlar. Çünki həyatlarının böyük bir hissəsini bu mövzuya ayırmaq məcburiyyətində qalacaqlarını düşünər və keflərini pozmaq istəməzlər. Ancaq ağıl və vicdan sahibi kəslərin bu insanların əksinə hadisələri idarə etmələri, insanları gücləri və imkanları daxilində istiqamətləndirmələri və həvəsləndirmələri nəticəsində bir çox problem böyük bir sürətlə həll ola bilər.

Təşviq etmək və insanları aktivləşdirərək yaxşı işlərdə vasitəçi olmaq Quranda ağıllı bir davranış kimi göstərilən bir xüsusiyyətdir:

**Kim yaxşı bir işə vasitəçilik etsə, ona bunun savabından bir pay düşər, kim də pis bir işə vasitəçilik etsə, ona da onun günahdan bir pay düşər. Allah hər şeyi Qoruyandır. (Nisa surəsi, 85)**

Əks bir davranış isə inkarçıların xüsusiyyəti olaraq ifadə edilmiş və insanlar belə bir əxlaqdan çəkindirilmişdirlər:

**Xeyr! Əslində siz yetimə ehtiram göstərmirsiniz, kasıbı yedirməyə bir-birinizi təhrik etmirsiniz, mirası hərisliklə yeyirsiniz, var-dövləti də hərisliklə sevirsiniz. (Fəcr surəsi, 17-20)**

# Həqiqi ədalət, Quran əxlaqının yaşanması ilə təmin edilə bilər

Ədalət, ictimai nizamı təmin edən ən əhəmiyyətli ünsürlərdən biridir. Hər ölkənin özünə xas bir ədalət sistemi var. Ancaq dünya ölkələrinə baxdıqda, ədalətin həyata keçirilməsində qarşılaşılan çətinliklərə görə, həmişə ideal model axtarışının davam etdiyini görərik.

Bütün dünyada nail olmağa cəhd edilən ideal modelin əsası isə, insanlar arasında ayrı-seçkilik qoyulmadan, hər kəsin etdiyinin qarşılığını tam olaraq aldığı bir ədalət mexanizminin yaradılmasıdır. Bu modelə nail olmaq üçün inkişaf etdirilən yeni metodlara, fərqli yanaşmalara, hazırlanan layihələrə və çıxış yollarına baxmayaraq, ədalətin tam olaraq təmin edilməsində müxtəlif çətinliklərlə qarşılaşılır.

Bu kimi mənfiliklərin əsas səbəbi isə cəmiyyətin ümumi əxlaq strukturunda olan pozulmalar və çöküşlərdir. Allahın əmr etdiyi gözəl əxlaqın yaşanmamasından qaynaqlanan bu çöküş, cəmiyyətlərə hər sahədə mənfi istiqamətdə təsirlər edir.

Fırıldaqçılıq, rüşvət, korrupsiya, ədalətsizlik və bunların bənzəri daha bir çox hadisənin səbəbi məhz bu çöküşdür. Gündəlik həyatın hər sahəsində bunun nümunələrinə rast gəlmək mümkündür. Ticari həyatda çox sıx rast gəlinən hadisələrdən birini nümunə olaraq verək. Bir iş adamı başqa bir adamı asanlıqla aldada bilir və o adamın pulunu, evini, avtomobilini haqsız yerə, hiylə quraraq almasında bir problem görmür. Aldatdığı adamla illərdir ki, davam edən bir dostluğunun olması, aldadılan adamın maddi-mənəvi bir çox cəhətdən çətin vəziyyətdə qalacaq olması kimi mövzular aldadan adamı qətiyyən maraqlandırmaz. Fırıldaqçı adam üçün dostluq, ailə əlaqələri, mənəvi dəyərlər, ictimai normalar, gözəl əxlaq kimi meyarlar etibarlı deyil. Bu adamın meyarı yalnız öz mənfəətlərinin qorunmasıdır.

Allahın bütün etdiklərindən xəbərdar olduğunu, bir gün hər hərəkətinin hesabını verəcəyini heç düşünməyən, fırıldaqçılığın haqsız bir qazanc olduğunu, ədalətli bir davranış olmadığını ağlına belə gətirməyən bu adamın ətrafındakı digər kəslərlə olan əlaqələri də bu istiqamətdə olacaq.

Bu mövzuda belə bir nümunə də verə bilərik. Bir insan fırıldaq gəlməyin böyük bir cinayət olduğunu düşünə bilər və buna görə də ömrü boyunca, heç bir şəkildə belə bir davranışa yol verməyə bilər. Ancaq həmin adam özünə bir mənfəət təmin edə biləcəyini düşündüyü anda başqa bir insan ilə əlaqədar yalançı şahidlik də edə bilər, etmədiyi bir şeydən ötrü o adama böhtan ata bilər. Öz daxilində də şərtlərin onu məcbur etdiyini, baxması lazım olan bir ailəsinin olduğunu və daha bir çox bəhanəni qarşıya qoyaraq vicdanını rahatlaşdıra bilər. Halbuki bütün bu bəhanələr böhtan atmağın pis bir əxlaq olduğu həqiqətini dəyişdirməz.

Burada ümumi olaraq təsvir etdiyimiz model, cəmiyyət daxilində xüsusilə adamın öz mənfəətlərinin ziyana uğrayacağını düşündüyü vaxtlarda ortaya çıxır. Oğurluq edən də, zülm edən də, fırıldaqçılıq edən də həmişə bu məntiqlə hərəkət edəcək. Hər kəsin öz mənfəətini

güddüyü belə bir cəmiyyətdə nəticə etibarilə ədalətsizlik, mənfəətpərəstlik və iğtişaşlar ortaya çıxacaq.

Halbuki Quran əxlaqını yaşayan bir adam hansı tələblər daxilində, nə kimi bir məcburiyyət ilə qarşı-qarşıya olursa olsun, belə bir şeyə əhəmiyyət verməyəcək və gözəl əxlaq göstərməkdən imtina etməyəcək. Güclü bir Allah qorxusuna sahib olan adam, hər etdiyinin, dediyi hər sözün bir gün qarşısına çıxacağı həqiqətini unutmaz. Yalnız öz mənfəətlərini güdmək, mal-dövlət yığıb-toplamaq, çətinlik və ehtiyac içində olanları görməzlikdən gəlmək kimi əxlaqi pozğunluqların nəticəsində ortaya çıxan ədalətsizliyin, əlbəttə ki, yeganə həlli vardır. Hər hadisədə olduğu kimi bu mövzuda da həll yolu Quran əxlaqının insanlar arasında yayılmasıdır. Çünki Allah iman edən və bu üstün əxlaqı yaşayan qullarına Quranda qəti bir ədaləti əmr edir:

**Ey iman gətirənlər! Şahidliyiniz özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri olub ədaləti qoruyun. Əleyhinə şahidlik edəcəyiniz şəxslərin varlı və ya kasıb olmasından asılı olmayaraq Allah onların hər ikisinə daha yaxındır... (Nisa surəsi, 135)**

**Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara haqqını verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız. (Nəhl surəsi, 90)**

Ayələrdə bildirilən bu ədalət anlayışına sahib olan insanların yaşadığı bir cəmiyyət, ədalətsizliyin əsla mövcud ola bilməyəcəyi bir mühit olacaq. Çünki Quran əxlaqının yaşandığı bir mühitdə, ən yaxın qohumlar da daxil olmaqla adamın yaxınlıq dərəcəsi, maddi vəziyyəti ya da vəzifəsi kimi tələblərin heç bir əhəmiyyəti olmadan güclü bir ədalət tətbiq olunması əsasdır.

Ancaq indiki vaxtda dünya ölkələrində gördüyümüz tətbiq daha fərqlidir. Bəzən bir insanın maddi imkanı, vəzifəsi, əlaqədar olduğu şəxslər nəzərə alınaraq işlədiyi bir cinayət nəzərə alınmaya bilər. Və ya etdiyi bir cinayətin qarşılığında layiq olduğu cəzaya məruz qalmaya bilər. Halbuki həqiqi ədalətin yaşandığı cəmiyyətlərdə o andakı vəziyyət və tələblər nəzərə alınaraq, adama güzəşt edilməsinə imkan verəcək (qohumluq, mal-mülk, etibar kimi) xüsusiyyətləri nəzərə alınmadan ədalətli bir münasibət nümayiş olunur.

## Həqiqi ədalətin yaşanmadığı cəmiyyətlərdə hansı əksikliklər ortaya çıxar?

**1. Yalançı şahidliklər artar**

Məlum olduğu kimi ədalətin təmin edilməsində və həqiqətlərin müəyyənləşdirilməsində şahidlərin əhəmiyyəti böyükdür. Canlı şahidlərin ifadələri istiqamətində bir çox hadisə qısa müddətdə həll oluna bilər. Haqlı və haqsız ayırd edilə bilər. Ancaq Quran əxlaqının yaşanmadığı cəmiyyətlərdə həqiqəti şahidlər yolu ilə müəyyənləşdirmək etibarlı bir üsul olmaqdan uzaqdır. Çünki Quran əxlaqına tabe olmayan kəslər, ədalətli bir şəkildə həqiqəti demək və haqlı olanın tərəfində durmaq əvəzinə, pul qarşılığında ya da hər hansı bir mənfəət güdərək asanlıqla yalan danışa bilərlər.

Hətta bəzən çox əhəmiyyətli olmasına baxmayaraq, bir hadisədə şahidlik etməkdən belə çəkinirlər. Çünki bunun nəticəsində ziyana uğrayacaqlarını, başlarına bəla gələcəyini düşünərlər. Halbuki Allah bir ayəsində şahidliyin gizlədilməməsinin lazım olduğunu belə bildirir:

**...şahidliyi gizlətməyin. Kim onu gizlədirsə, şübhəsiz ki, qəlbi günahkardır. Allah nə etdiklərinizi bilir. (Bəqərə surəsi, 283)**

Bəzən də bu kəslərin bir adama qarşı olan kinləri və nifrətləri onları həqiqəti deməkdən çəkindirər. Yalançı şahidlik edərək, hadisələri təhrif edərək ədalətlə hökm verilməsinə mane olarlar.

Quran əxlaqını yaşamayan bu kəslər xüsusilə də öz mənfəətləri və öz istəkləri ön planda olduğu vaxtlarda ədaləti güdməz. Verdikləri ifadə nəticəsində bir insanın günahsız olduğu halda, boş yerə illərlə həbsxanada qalacağını, bu vaxtda həmin adamın və ailəsinin çəkəcəyi çətinlikləri ağıllarına belə gətirməzlər. Özlərini bəhs edilən adamın yerinə qoyub, eyni vəziyyətdə olsalar nələr hiss edərdilər deyə də düşünməzlər.

Allah bu kimi insanların içində olduğu vəziyyətə Quranda diqqət çəkir və buna qarşılıq tələblər nə olursa-olsun ədalətli davranmağı belə əmr edir:

**Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. Hər hansı bir camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Maidə surəsi, 8)**

Ədalətli olmaq əvəzinə qorxu, pul, ehtiras kimi anlayışların əsirinə çevrilərək hərəkət edən kəslər, ancaq Quran əxlaqını mənimsədikləri vaxt üstlərindəki bu yükdən xilas olacaqlar.

Allahın hər an yanlarında olduğunu bilərək hərəkət etdikləri vaxt, içində olduqları vəziyyət nə olursa-olsun, nə kimi bir təhdid, nə kimi bir qorxu altında olurlarsa-olsunlar, nə cür bir mənfəət təklif edilirsə edilsin ədalətdən, doğrunun yanında olmaqdan qətiyyən imtina etməzlər. Çünki möminlər, dedikləri hər sözün axirətdə qarşılarına çıxacağını və hesabını verəcəklərini bilən insanlardır. Allah bir ayəsində Quran əxlaqını yaşayan və bunda güzəştə getməyən şəxslərin yalan yerə şahidlik etməyəcəklərini belə bildirir:

**Onlar yalandan şahidlik etməz, lağlağı məclisinə rast gəldikdə oradan ləyaqətlə ötüb keçərlər. (Furqan surəsi, 72)**

Ədaləti güdmək əvəzinə öz mənfəətlərini güdən şəxslərin düşünməsi lazım olan başqa bir məqam da bir gün eyni vəziyyətə özlərinin də düşə biləcəyidir. O vəziyyətə düşəndə özləri ədalət istəyəcək, doğru şahidlik edəcək birini axtaracaqlar. Məhz bu vəziyyətə düşmək istəməyən hər insan, Allahın əmr etdiyi gözəl əxlaqın təbliğ edilməsi mövzusunda səy göstərməli, özü də bu üstün əxlaqı heç güzəştə getmədən yaşamalıdır.

## 2. İnsanların bir-birlərini qiymətləndirmələrindəki meyar, pul və vəzifə olur

Quran əxlaqını yaşamayan cəmiyyətlərdə insanların bir-birlərini qiymətləndirərkən götürdükləri əsas meyar pul və vəzifədir. Cəmiyyətin bütün təbəqələrinə hakim olan bu anlayışın nümunələrini hər yerdə görmək mümkündür.

Bir mağazaya gələn iki fərqli adama qarşı mağaza işçilərinin göstərdikləri müxtəlif rəftarlar bu mövzudakı ən diqqətə çarpan nümunələrdən biridir. Müştərilərin xarici görünüşlərinə görə rəftarlarını tənzimləyən vəzifəlilər, zəngin olduğunu güman etdikləri adama qarşı hörmətli və gülərüz davranarkən, maddi vəziyyəti yaxşı olmayan müştəriyə danlayaraq davranacaqlar. Hər ikisi də eyni şeyləri almaq məqsədilə mağazaya girmiş olsalar belə mağaza işçilərinin rəftarları müştərilərin maddi vəziyyətləri, xarici görünüşləri və ya məşhur olmaları kimi meyarlara bağlı olacaq.

Halbuki Quran əxlaqını yaşayan bir adam üçün meyar bunlar deyil. Belə kəslər ətraflarındakı insanları heç fərqləndirmədən yalnız "insan" olaraq qiymətləndirərlər. Bir insana dəyər vermələri üçün o adamın pulunun olub-olmaması, evinin böyüklüyü, paltarlarının markası və çoxluğu, üzünün gözəlliyi, mədəniyyət təcrübəsi, işlədiyi iş, təhsil səviyyəsi və bənzər qiymətləndirmə mühakimələrinə ehtiyacları yoxdur. Allah Quranda insanlar arasındakı sevgidə meyar olaraq imanı və Özünə olan yaxınlığı vermişdir. Buna görə də möminlər üçün etibarlı olan yeganə meyar da budur.

## 3. Təhsil mövzusunda yaşanan çətinliklər

Cəmiyyəti meydana gətirən fərdlərin ən normal haqlarından biri də təhsildir. Din, dil, irq, maddi vəziyyət fərqi güdülmədən hər fərd eyni meyarlarda təhsil almaq hüququna malikdir. Halbuki ictimai ədalətin tam olaraq təmin edilmədiyi cəmiyyətlərdə təhsil mövzusunda da problemlər və həlli tapılmayan məsələlər yaşanır. Bu həlli tapılmayan məsələlərə ən birinci təhsil haqqının maddiyyata bağlı olaraq qazanılması gəlir. Bir çox ölkədə kifayət qədər maddi imkanlar olmadığı üçün yaxşı bir təhsil ala bilməyən çox sayda uşaq və gənc vardır. Bundan başqa məktəblərin keyfiyyətləri və bu keyfiyyətdən istifadə nisbətləri də yenə maddi imkanlar istiqamətində dəyişir.

Maddi cəhətdən dəstək alan məktəblərdə hər mövzu üçün xüsusi laboratoriyalar qurularaq, çox faydalı bir təhsil həyata keçirilə bilirkən məhdud imkanlar üzündən bəzi məktəblər bu cəhətdən qeyri-kafi qalır. Bu da şagirdlərin tədqiqat aparmaq və özlərini inkişaf etdirmək kimi fəaliyyətlərinə mənfi istiqamətdə təsir edir.

Bununla yanaşı hər insan istədiyi sahədə təhsil alma hüququna da malikdir. Necə ki, təhsildə yüz faiz müvəffəqiyyətin əldə olunması və səmərənin hər istiqamətdən artması üçün qabiliyyətlərin üzə çıxarılacağı bir təhsil sisteminin yaradılması, şübhəsiz ki, daha faydalı olacaq. Amma hal-hazırkı cəmiyyətlərdə maddi imkansızlıqlar üzündən təhsilini müəyyən bir mərhələdə yarımçıq qoymaq məcburiyyətində qalan, ya da peşə yönündən seçimini qabiliyyətə görə deyil, müxtəlif faktorlara görə təyin etmək məcburiyyətində qalan çox sayda insan vardır.

Bütün cəmiyyətləri çox yaxından maraqlandıran bu kimi problemlərin həlli isə Quran əxlaqının yaşanması ilə mümkün ola bilər. Çünki belə bir mühitdə təhsil mövzusunda çatışmazlıqdan söhbət gedə bilməz. İnsanlar Qurana tabe olmağın gətirdiyi ağıl və çıxış yolu tapmaq qabiliyyətiylə, hər sahədə olduğu kimi bu sahədə də müxtəlif modellər hazırlayarlar. Əvvəlcə belə bir cəmiyyətdə varlı-kasıb ayrı-seçkiliyi deyə bir məsələ olmaz. Əvvəlcə də ifadə etdiyimiz kimi, hər kəs ehtiyacından artıq qalanı yaxşı işlərə xərcləyər. Belə böyük bir imkanın xalqın sağlamlığı, təhsili kimi təcili mövzulara nəql edilməsiylə bu problemlər öz özlüyündə aradan qalxar. Hətta bu əxlaq dünya daxilində yaşandıqda, ölkələr arasında da varlı-kasıb ayrı-seçkiliyi aradan qalxar. Maddi imkanları çox olan ölkələr, ehtiyaclarından artıq qalan qaynaqlarını inkişaf cəhətdən daha geri qalmış ölkələrə bir qarşılıq gözləmədən, yaxşılıq üçün nəql edərlər.

Təhsil mövzularında çıxış yolu tapmaq, şübhəsiz ki, bütün müsəlmanların boynuna düşən əhəmiyyətli bir vəzifədir. Çünki gənclərin Allahın Quran ilə bildirdiyi kimi bir həyat yaşamaları, özlərinə həyatın məqsədlərini öyrədən, Allahın yer üzündə və kainatdakı yaradılış dəlillərini göstərən bir təhsil ala bilmələrindən hamı məsuliyyət daşıyır. Əks təqdirdə zehinləri inkarçı sistemlərin faydasız məlumatlarıyla doldurulan, nəticə etibarilə də ölkəsinə, millətinə, dininə fayda təmin edə bilməyən gənclərin varlığı qaçılması mümkün olmayan bir hala gəlir. Gənclərin aldıqları qeyri-kafi təhsil nəticəsində tamamilə səhv yollara yönəlmələrinin, dinin təqdim etdiyi gözəlliklərdən uzaq qalmalarının, inkar yolunu mənimsəmələrinin vicdani məsuliyyətiylə yüklənmək isə, şübhəsiz ki, Allahdan qorxan bir insanın göz yummayacağı bir davranışdır.

### 4. Qadın-kişi bərabərsizliyi

Həqiqi ədalətin yaşanmadığı cəmiyyətlərdə qadın-kişi ayrı-seçkiliyi olduqca diqqətə çarpan bir haldır. Dünya daxilində qadın-kişi bərabərsizliyi mövzusu olduqca əhəmiyyətli bir problem meydana gətirir. Belə ki, qadınlar dünyadakı bir çox ölkədə çox vaxt ikinci dərəcəli vətəndaş rəftarı görərək cəmiyyətdən təcrid olunurlar. Gücsüz və qorunmağa möhtac olduqları düşünüldüyü üçün də ümumiyyətlə əzilir və xor görülürlər. Yenə bu kimi səbəblərdən ötrü qadınların fikirlərinə də elə də çox əhəmiyyət verilmir.

Bu düşüncələrin hakim olduğu cəmiyyətlərdə qadınların iş həyatında müəyyən bir vəzifəyə sahib olmaları hətta müəyyən bir kariyeraya çataraq zəkalarını, bacarıqlarını sübut etmiş olmaları qəribə görünür. Bütün dünya daxilində qadınlar üçün özünə etibarsız, bacarıqsız, titrək, zehni cəhətdən bir o qədər də inkişaf etməmiş bir insan imici məşhurdur. Bu səhv “qadın xarakteri” anlayışı nəticəsində, bir qadının etdiyi hər səhv, o adamın insan olduğu üçün deyil, qadın olduğu üçün etdiyi bir səhv şəklində izah olunar.

Bəhsi keçən cəmiyyətlərdə, bir iş yeri üçün eyni təhsilə, eyni zəka və bacarığa sahib olmasına baxmayaraq, kişilər və qadınlar arasında bir seçim edilməsi gündəmə gəldikdə, seçim ümumiyyətlə kişi işçi istiqamətində aparılır. Buna görə də qadınların vəzifədə çalışdıqları sahələr olduqca məhduddur.

Cəmiyyətdəki bu ümumi qənaətlə birlikdə bir çox qadın da özünü bu səhv qənaətlər daxilində qəbul etmişdir. Bu qəbulun bir nəticəsi olaraq da, bir çox cəmiyyətdə qadınlar geri planda qalmaqda bir problem görmürlər.

İnkişaf cəhətdən geri qalmış ölkələrin çoxunda isə qadın-kişi bərabərsizliyi xeyli fərqli ölçülərdə ortaya çıxır. Bu ölkələrdə qadınlara təhsil almaq, seçib-seçilmək, iş sahibi olmaq kimi əsas hüquqlar belə verilmir. Hətta evlənərkən həyat yoldaşlarını seçmə haqqına da sahib deyildirlər. Bir mövzu haqqında fikir bəyan etmələrindən isə, söhbət belə gedə bilməz. Qadınlar özləri ilə əlaqədar heç bir qərarı verə bilməzlər. Onların adına hər cür qərar ataları ya da yoldaşları tərəfindən verilir.

Burada yalnız bir neçəsini saydığımız bu səhv yanaşmalara illərdir ki, müxtəlif çıxış yolları tapmağa çalışılır. Qadın hüquqlarını qorumaq üçün qurulmuş olan dərnəklər, azadlıq, bərabərlik, feminizm kimi anlayışların müzakirəyə qoyulması, müxtəlif layihələr hazırlanması, konfranslar, seminarlar təşkil edilməsi bu həll axtarışlarından yalnız bir neçəsidir. Bütün bu səylərə və görülən işlərə baxmayaraq, vaxt ərzində tapılan həllərin də həqiqətdə problemlərlə dolu olduğu aydın olur. Bu nəticə olduqca normaldır. Çünki əsl çıxış yolu digər bütün problemlərin həllində də olduğu kimi Qurandadır.

Quran əxlaqının yaşandığı bir cəmiyyətdə, cəmiyyəti meydana gətirən fərdlər arasında qətiyyən bir ayrı-seçkilik yoxdur. Bir insanın qadın, kişi, varlı, kasıb, yaşlı, gənc və ya uşaq olmasının əhəmiyyəti yoxdur. Əhəmiyyətli olan bu kəslərin cinsiyyətləri, vəzifələri, sərvətləri, ya da başqa hər hansı bir xüsusiyyətləri deyil, gördükləri yaxşı işlər və Allaha olan yaxınlıqları, yəni təqvalarıdır. Allah bir ayəsində müsəlmanlara **“...Özünüzlə azuqə götürün! Ən yaxşı azuqə isə təqvadır...”. (Bəqərə surəsi, 197)** hökmüylə bu mövzunu xatırlatmışdır.

Həmçinin Quranda, möminlərdən, saleh əməllər edən qadınlar və kişilər olaraq bəhs edilir. Quranda möminlərin kişi və ya qadın olmalarının deyil, Allahın əmr etdiyi əxlaqı yaşamalarının əhəmiyyətinə diqqət çəkilir. Bu mövzudakı ayələrdən bəziləri belədir:

**Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar insanlara yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir. Allah mömin kişilərə və mömin qadınlara ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları və Ədn bağlarında gözəl məskənlər vəd etmişdir. Allahın razılığı isə daha böyükdür. Bu, böyük uğurdur. (Tövbə surəsi, 71-72)**

**Həqiqətən, müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, müti kişilər və müti qadınlar, doğru danışan kişilər və doğru danışan qadınlar, səbirli kişilər və səbirli qadınlar, Allaha baş əyən kişilər və baş əyən qadınlar, sədəqə verən kişilər və sədəqə verən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, ismətlərini qoruyan kişilər və ismətlərini qoruyan qadınlar, Allahı çox zikr edən kişilər və qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır. (Əhzab surəsi, 35)**

**Həm kişilərdən, həm də qadınlardan mömin olaraq yaxşı işlər görənlər Cənnətə girərlər və onlara xurma çərdəyinin qırıntısı qədər haqsızlıq edilməz. (Nisa surəsi, 124)**

## Qadınların cəmiyyət həyatında çəkdiyi çətinliklər

Dindən uzaq cəmiyyətlərdə qadınların üz-üzə gəldikləri ən böyük problemlərdən biri də boşanma sonrası yaşanan çətinliklərdir. Evləndikləri vaxt yoldaşları tərəfindən işləmələrinə izn verilməyən və buna görə də maddi cəhətdən yoldaşlarından asılı yaşamaq məcburiyyətində qalan qadınlar, boşandıqları vaxt olduqca çətin vəziyyətdə qala bilirlər.

Dünyada boşanan qadınların bəziləri hər hansı bir peşəyə sahib olmadığı, bəziləri yaşının çox olmasına görə işləməyə gücü qalmadığı, bəziləri isə heç bir əlavə sosial hüquq verilmədiyi üçün böyük çətinliklər çəkir. Bundan başqa boşandıqdan sonra hər iki tərəfin özünə görə tələblərinin olması, tərəflərin yalnız öz mənfəətlərini düşünməsi kimi, səbəblərlə də bu problem daha da çətinləşir və anlaşılmazlıqlar artır.

Halbuki Quran əxlaqını yaşayan bir cəmiyyətdə bu kimi çətinliklər yaşanmaz. İnsanların evlilikləri kimi boşanmaları da könül xoşluğuyla olacağı üçün evlənərkən həyat yoldaşları arasında mövcud olan hörmət və sevgi, boşanarkən də eyni şəkildə qorunar. Çünki iki tərəf də bir-birini qadın və ya kişi olaraq deyil, Allaha iman edən insanlar olaraq, təqvalarına görə qiymətləndirir və bu istiqamətdə gözəl davranışlar nümayiş etdirirlər.

Bununla birlikdə Quranda qadınların boşanma kimi, hallarda çətinliyə düşməmələri üçün görülmüş bir çox tədbir vardır. Məsələn, qadınlar maddi cəhətdən ciddi bir zəmanət altına alınmışlar. Hər iki tərəfin qarşılıqlı razılaşması nəticəsində müəyyənləşdirilən maddi yardım və boşanan qadınlara necə davranılması lazım olduğu ayələrdə belə təsvir edilir:

**Boşanmış qadınlara şəriətə müvafiq qayda üzrə yaxşılıq etmək lazımdır. Bu, müttəqilər üçün bir borcdur. (Bəqərə surəsi, 241)**

**...Onlara şəriətə müvafiq qayda üzrə pay verin. Varlı öz imkanına görə, kasıb da öz imkanına görə versin. Bu isə yaxşılıq edənlər üçün bir borcdur. Qadınlar üçün mehr təyin etdikdən sonra, yaxınlıq etməzdən əvvəl onları boşasanız, təyin etdiyinizin yarısını onlara verməlisiniz. Qadınların bunu ərlərinə bağışlaması və ya əlində nikah müqaviləsi olanın bunu qadına bağışlaması isə istisnadır. Sizin bağışlamağınız təqvaya daha yaxındır. Bir-birinizə güzəşt etməyi unutmayın. Allah sizin nə etdiklərinizi görür. (Bəqərə surəsi, 236-237)**

**Var-dövlət sahibi öz varına görə xərcləsin. İmkanı az olan isə Allahın ona verdiyindən xərcləsin. Allah heç kəsin üzərinə Özünün ona verdiyi nemətdən artıq yük qoymaz. Allah hər bir çətinlikdən sonra asanlıq verir. (Talaq surəsi, 7)**

Bundan başqa qadınlara evlilik əsnasında verilmiş olan malların boşandıqdan sonra geri alınmamasının lazım olduğu da ayələrdə ifadə edilmişdir. Boşanılan qadınların sığınma

ehtiyaclarının təmin edilməsi, qadınlara zorla varis çıxmağa cəhd edilməməsi də ayələrdə diqqət çəkilən mövzulardandır.

Bura qədər izah edilənlərdən də görüldüyü kimi, həll yenə də Quran əxlaqının yayılmasına əsaslanır. Quran əxlaqının yaşandığı bir cəmiyyətdə digər bütün sosial problemlərdə olduğu kimi, qadınların çətin vəziyyətdə qalmaları, xor baxılmaları, çətinlik çəkmələri kimi vəziyyətlərdən söhbət belə getməyəcək.

### 5. Dünyadakı resurslardan bərabər faydalanmaq

Bütün cəmiyyətlərə baxdıqda, insanların, dünya resurslarından bərabər miqdarda faydalanmadıqları müşahidə olunur. Məsələn, yetkin bir insanın gündəlik enerji ehtiyacı təxminən 2800 kkal olaraq qəbul edilir. Dünyada mövcud olan qida maddələri də hər insanın bu gündəlik ehtiyacını qarşılaya biləcək səviyyədədir. Amma buna baxmayaraq, dünyada hələ də 800 milyondan çox insan aclıqdan əziyyət çəkir. Dünya əhalisinin təxminən 75%-nin (1991-ci ildə 4.03 milyard adam) aldığı gündəlik kalori bu səviyyədən aşağıdır və ölkədən ölkəyə bu nisbətlər dəyişir. Bunun səbəbi qida maddələrinin ölkələr arasında qeyri-bərabər şəkildə paylanmasıdır. Yenə başqa bir statistikaya görə inkişaf etməkdə olan ölkələrin əsas ehtiyaclarını ödəmək (yemək, içməli su, səhiyyə tədbirləri, səhiyyə qayğı və təhsil) ildə təxmini olaraq 40 milyard dollara başa gəlir ki, bu da dünyanın ən zəngin 225 insanının mal dövlətinin cəmi 4 %-i mənasına gəlir.(1)

Bu statistik məlumatlardan da göründüyü kimi, bir ölkədə çox olan resurslar bəzi ölkələr üçün həyati əhəmiyyət daşıdığı halda, bərabər bir bölgü təmin edilmir. Varlı ölkələrdə bəzən istifadə sahəsi tapıla bilmədiyi üçün israf edilən resurslar, ehtiyacı olan insanlara çatdırılmır. Bu mövzuda bəzi Afrika ölkələrində yaşanan çətinliklər bütün dünya tərəfindən bilinən nümunələrdəndir.

Ancaq resursların bərabər bölüşdürülməməsi yalnız yemək və içki maddələri üçün keçərli bir vəziyyət deyil. Məsələn, sağlamlıq xidmətləri mövzusunda da resursların dünya səviyyəsindəki qeyri-bərabər bölgüsü üzündən müxtəlif problemlər və çətinliklər yaşanır. Məlum olduğu kimi indiki vaxtda dünya səviyyəsində epidemiya halında olan olduqca təhlükəli xəstəliklər belə asanlıqla müalicə edilə bilir və yayılmasının qarşısı alına bilir. Bunun reallaşması isə inkişaf etmiş ölkələrin istifadə etdiyi tibbi texnologiya və maddi imkan ilə mümkün ola bilir. Bununla birlikdə inkişaf cəhətdən geri qalmış ya da yeni inkişaf etməkdə olan ölkələrdə vəziyyət tamamilə fərqlidir. Digər ölkələrdə asanlıqla həll edilə bilən sağlamlıq problemləri, bu yoxsul ölkələrdə bütün ölkəni öz təsiri altına ala biləcək qədər böyük problemlər yarada bilir.

Məsələn, cüzam xəstəliyi bakteriyalar vasitəsiylə ortaya çıxan, olduqca yoluxucu və asanlıqla epidemiya halına gələ bilən bir xəstəlikdir. Əsrlər boyu müalicəsi qeyri-mümkün kimi düşünülən cüzam xəstəliyi indiki vaxtda dərmanla müalicə edilə bilir. İnkişaf etmiş ölkələr üçün heç bir problem yaratmayan bu narahatlıq, yoxsul ölkələrdə həll edilə bilməyən bir problem halına gəlmişdir. Çünki müalicənin uzun sürməsi, dərmanların bahalı olması kimi səbəblərlə dünyanın yoxsul ölkələrində cüzam xəstəliyinin tam olaraq qarşısı alına

bilməmişdir. Ölkələr arasında baş tutacaq dərman nəqli sayəsində asanlıqla müalicə ediləcək bu xəstəliyin bir çox ölkədə hələ də varlığını davam etdirməsi olduqca düşündürücüdür.

Cüzam yalnız bir nümunədir. Buna bənzər bir çox xəstəlik inkişaf cəhətdən geri qalmış ölkələrdəki maddi çatışmazlıqlar və ya texnoloji çatışmazlıqlar kimi səbəblərlə tamamilə aradan qaldırıla bilmir hətta bir çox yerdə müalicə belə edilə bilmir. Halbuki bu kimi sağlamlıq problemlərinin həlli olduqca asandır. Bəzi ölkələrdə anbarlarda gözləyərkən israf olan maddələrin ağıllı şəkildə təşkil ediləcək tənzimləmələrlə lazımi yerlərə nəql edilməsi kimi üsullarla sağlamlıq problemləri asanlıqla həll olacaqdır.

Bu mövzuda başqa bir nümunə olaraq da texnoloji imkanların yer üzündəki qeyri-bərabər paylanmasını verə bilərik. İnkişaf etmiş ölkələrdə istehsal sahələrinin artırılması üçün kənd təsərrüfatı texnologiyası sahəsində bir çox iş görülür. Əldə edilən müvəffəqiyyətli nəticələr sayəsində səmərəsiz səhra torpaqlarına belə su çatdırılır və bu ərazilər istehsal ediləcək hala gətirilir. Bu mövzuda görülən işlərdən biri də kompyuter idarəsində həyata keçirilən suvarma texnologiyasıdır. Bu suvarma sisteminin məqsədi su itkisini sıfıra endirməkdir. İstifadə edilən texnologiya ilə su axımı bitkilərin kök hissələrinə tərəf yönəldilir, bunun hesabına tək bir damla suyun belə boşa getməsinin qarşısı alınır. Yenə kənd təsərrüfatının dəstəklənməsi məqsədilə hər cür suyun istifadə edilə biləcək hala gətirilməsini təmin edəcək işlər də görülür. Bu işlərin nəticəsində də sel və dəniz suları kimi mənbələr təmizlənilir  və kənd təsərrüfatı üçün istifadə edilir.

Bu üsullar inkişaf etmiş ölkələr tərəfindən hələ də tətbiq olunur və çöllər yaşıllaşdırılaraq təsərrüfata yararlı hala gətirilir. Bu, əlbəttə ki, sevindirici bir texnoloji inkişafdır. Yalnız burada düşündürücü olan məqam eyni texnologiyanın, ciddi mənada ehtiyac içində olan, təsərrüfat sahələri kifayət qədər olmadığı üçün xalqı aclıq təhlükəsiylə üz-üzə gələn ölkələrdə də tətbiq olunması istiqamətində bir cəhd olmamasıdır. Yoxsul ölkələrin əllərindəki məhdud imkanlar, köhnəlmiş texnologiyalar üzündən ən məhsuldar ərazilərdə belə əkinçilik aparıla bilmir və bu da bəhsi keçən ölkələrdə aclıq təhlükəsi yaradır.

Bəzən ölkədəki bütün insanların aclıqla birlikdə ölüm təhdidi altında olmasına, bu vəziyyətin bütün mətbuat-nəşr orqanlarında çap edilməsinə və bütün insanların bu vəziyyətdən xəbərdar olmasına baxmayaraq, həqiqi mənada bir çıxış yolu tapılmır. Həmişə müvəqqəti tədbirlərlə, qısa müddətli cəhdlərlə bir şeylər edilir. Ancaq, şübhəsiz ki, belə "başdansovdu" görülən tədbirlər ciddi mənada bir fayda vermir.

Burada əhəmiyyətli olan məqam sürətli bir şəkildə həll edilməsi və əldə olunan həllərin əsaslı və tətbiq oluna biləcək xüsusiyyətdə olmasıdır. Aclıq çəkən ölkələrə indiki vaxtda bir çox yardım edilir. Ancaq bu yardımların çoxu, ehtiyaclar istiqamətində deyil, anbarlardakı artıq məhsullardan xilas olmaq üçün edilən saxta yardımlar olmaları üzündən məqsədlərinə nail olmur. Ya da düzgün təşkilatlanmalar aparılmadığına görə yardımlar ehtiyac sahiblərinə çatdırılmadan xarab olur. Yardım məqsədiylə fondlar qurulur, amma araşdırdıqda bu vəqflərin çoxunun quruluş məqsədlərinin fərdi mənfəət təmin etmək olduğu aydın olur.

Qəti bir həllə nail olmamağın altında yatan səbəblər də yenə eqoizm, fərdi mənfəətlər və ehtiraslar, laqeydlik kimi əxlaqi pozğunluqlarıdır. Və bu pozğunluqların aradan qalxmasının

yeganə yolu da, insanlara Quranın təqdim etdiyi əxlaq modelini izah etmək, vicdansızlığın axirətdə hesabının veriləcəyini xatırlatmaqdır.

Sağlamlıq və təsərrüfatla əlaqədar problemlərdən verilən nümunələrdən də göründüyü kimi dünyada hər mövzuda ədalətin təmin edilməsiylə bir çox problem həll ediləcək. Yalnız burada üstündə dayanılması lazım olan əhəmiyyətli bir məqam vardır. Ədalətli bölgü dedikdə, ağıla hər şeyin hər yerdə və hər adamda eyni nisbətlərdə olması lazım olduğu kimi bir məna gəlməməlidir. Burada nəzərdə tutulan yalnız ehtiyacların tam olaraq qarşılanmasıdır. Məsələn, çölləri yaşıllaşdırma texnologiyasının hər ölkədə olmasına ehtiyac yoxdur. Bir ölkənin öz vətəndaşlarının ehtiyacı olduğu halda, başqa bir ölkəyə dərman və kömək göndərməsi də tələb olunmur. Bundan başqa ölkədəki hər vətəndaşda eyni miqdarda mal-dövlət olmasına da ehtiyac yoxdur. Əhəmiyyətli olan bir tərəfdə ehtiyac içində, çətinlik çəkən kəslər olduğu halda, başqa bir tərəfdə israfın yaşanmasından qaynaqlanan bir uçurumun olmamasıdır.

Allahın ayələrdə diqqət çəkdiyi **"...Ehtiyacınızdan artıq qalanını!..." (Bəqərə surəsi, 219)** əmrinə uyğun hərəkət edildikdə cəmiyyətləri rifaha yönəldən ədalətli bölgü asanlıqla təmin ediləcək.

## Həqiqi ədalətin yaşanmasının gətirəcəyi nəticə: Hüzur

Bütün bu həqiqətlər düşünüldüyü təqdirdə, bir cəmiyyətdə ancaq Quran əxlaqı yayıldıqda tam mənasıyla ədalətli bir strukturun ortaya çıxacağı tezliklə müşahidə olunacaq. Çünki Quran əxlaqının yaşanması özüylə gözəl əxlaqı və ağlı gətirər. Mənfəətpərəst, eqoist, məsuliyyətsiz insanların yerini ağlından bütün insanlar üçün istifadə edən, ədalətli, mərhəmətli, həmişə çıxış yolu tapa bilən insanlar alar ki, bu da bir çox problemin həll olunması deməkdir.

Həqiqi ədalətin təmin olunduğu cəmiyyətlərdə saxtakarlıq, mənfəətpərəstlik, bir-birinin haqqına təcavüz etmə kimi əxlaq pozğunluqlarına insanlar tənəzzül etməzlər. Çünki Quran əxlaqının əsas xüsusiyyətlərindən olan yardımlaşma, mərhəmət kimi vicdanlı rəftarların sonunda qəti surətdə ədalətli bir mühit meydana gələr və hər kəsin mənfəəti, hər kəsin haqqı qorunmuş olar. Bütün bunların nəticəsində də cəmiyyətdə dinclik və etimad hakim olar. Onda bütün müsəlmanların etməsi lazım olan, Allahın razı qalacağı əxlaqı insanlara izah etmək, haqq dini bütün dünyaya təbliğ etməkdir. Çünki bu inananların Quranda diqqət çəkilən ən əhəmiyyətli xüsusiyyətlərindən biridir. Allah ayələrdə belə buyurur:

**Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır. (Ali İmran surəsi, 104)**

**Tövbə edən, ibadət edən, həmd edən, oruc tutan, rüku və səcdə edən, yaxşı işlər görməyi buyurub pis əməlləri qadağan edən və Allahın qoyduğu hüdudlarını qoruyan o möminləri müjdələ. (Tövbə surəsi, 112)**

Allah Quranda bu üstün əxlaqı yaşayan və bütün insanları da bu cür yaşamağa dəvət edən insanlardan bəhs etmişdir. Allah yalnız insanları pisliklərdən çəkindirənlərin xilas olacağına da belə diqqət çəkmişdir:

**Onlar özlərinə edilmiş xəbərdarlığı unutduqları zaman Biz pis əməlləri qadağan edən kimsələri xilas etdik, haqsızlıq edənləri isə itaətdən çıxdıqlarına görə dəhşətli bir əzabla yaxaladıq. (Əraf surəsi, 165)**

# Siyasi həyatda baş verənlər

İnsanların həyatlarının hər anında ədalət, gözəl əxlaq və dürüstlük hakim olmalıdır. Bunun ən çox əhəmiyyətli olduğu sahələrdən biri də siyasətdir. Çünki siyasətçi çox sıx bir insan birliyinin məsuliyyətini boynuna götürən, özündən çıxış yolları və xidmət gözlənilən adamdır. Bu adam ədalətlə hökm verməli, insanlar arasında ayrı-seçkilik etməməli, ehtiyac içində olan insanları fərq edib, tezliklə bu ehtiyacları ödəməyə çalışmalıdır. Xidmət etməyə çalışarkən həmişə savadlı kadrlarla birlikdə işləməli, işi ustasına verməlidir. Çatışmazlıqları, davam edə bilməyən və tıxanan məqamları dərhal fərq etməli, bu mövzularda bir çox çıxış yolu tapmalı, sürətli manevrlər edə bilməlidir. Fövqəladə vəziyyəti fərq edə bilməli və xidməti yubandırmadan yerinə çatdıra bilməlidir.

Lakin indiki vaxtda siyasət, bəzi insanlar üçün bir xidmət sahəsi olmaqdan çıxmış, mənfəətə əsaslanan bir peşə sahəsinə çevrilmişdir. Məqsəd, yalnız vəzifə sahibi olmaq və bu vəzifəni hər şərt və vəziyyətdə qorumaq, imkan varsa daha yuxarı vəzifələrə çıxmaq halına gəlmişdir. Belə olduqda isə hədəfə çatmaq üçün edilən hər cür saxtakarlıq, əxlaqsızlıq ağlabatan vəziyyətə gəlmişdir.

Dünyadakı hər ölkədə bu tip hadisələrlə qarşılaşmaq mümkündür. Sui-istifadələr üzündən istefa edən vəzifəlilərin, sui-istifadə hallarının, bazarı idarə edərək fərdi mənfəətlər əldə edənlərin yüzlərlə nümunəsi vardır. Məsələn, diktatorluqla idarə olunan bir çox ölkədə xalq çox böyük bir səfalət içində yaşayıb, aclıq, susuzluq və yolxucu xəstəliklərlə mübarizə apararkən, başdakı idarəçilər çox böyük bir zənginlik və pozğunluq həyatı yaşaya bilirlər. Keçən illərdə hakimiyyətdən devrilən Zairdəki Mobutu rəhbərliyi bu mövzuda çox aydın bir nümunədir. Mobutu, özü üçün xüsusi təyyarəsiylə hər ay Fransadan bərbərini gətirtdiyi halda, xalqı tək bir çörək üçün qarşıdurmalara girirdi. Mobutu, ölkəsinin bütün yeraltı və almaz sərvətlərinə sahib çıxmış, qərb ölkələrinin istifadəsinə vermiş, lakin qəbilə qarşıdurmaları içində mübarizə aparan xalqını görməzlikdən gəlmişdir.

Məhz bu tip rəhbərliklərə, Quran əxlaqının yaşanmadığı mühitlərdə rast gəlmək mümkündür. Çünki dinin olmadığı bir mühitdə insanlar üçün ədalətin, yardımlaşmanın, mərhəmətin, sevginin, hörmətin, dürüstlüyün bir mənası olmur, hər kəs öz mənfəəti üçün çalışır və bu mövzuda çox həris davranır. Allah bir ayəsində bu tərz insanların meydana gətirdikləri təhlükəyə belə diqqət çəkmişdir:

**O, dönüb getdikdə yer üzündə fitnə-fəsad törətməyə, əkinləri və nəsilləri məhv etməyə çalışar. Allah isə fitnə-fəsadı sevmir. (Bəqərə surəsi, 205)**

Göründüyü kimi Qurana tabe olunmadığı müddətcə, yuxarıdakı ayədə bəhs edilən insanlar mövcud olacaq. Halbuki vicdanlı və Allahdan qorxan insanların idarə etdiyi bir ölkədə heç kimin başqa birinə haqsızlıq etməsinə icazə verilmir, hər cür ehtiyac aradan qaldırılır,

həmişə yeni çıxış yolları və xidmətlər tapılır. İslam əxlaqını yaşayan insanlar hər cür xidməti qarşılıqsız edərlər. Allah rizası üçün edilən xidmətin, əməyin, yardımın qarşılığı isə dünyada deyil, axirətdə gözlənilər. İnsanlar Allahın dinini təbliğ etmək üçün göndərilən elçiləri tarixən bəzi mövzularda günahlandırmışlar. Həvarilərin, insanları Allaha ibadət etməyə, dini yaşamağa dəvət etmələrinin arxasında həmişə başqa bir səbəb axtarmışlar. Ayədə elçilərin qövmlərinə bunu xatırlatdıqları bildirilir:

**De: "Mən buna görə sizdən heç bir mükafat istəmirəm və mən özümdən bir şey uydurmağa çalışmıram. (Sad surəsi, 86)**

**Ey qövmüm! Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq məni yaradandadır. Məgər anlamırsınız? (Hud surəsi, 51)**

Allaha iman edən insanlar da özlərinə Quranda təriflənən bu davranışları nümunə götürürlər. Və etdikləri heç bir xidmətdə, heç bir köməkdə dünyaya istiqamətli bir qarşılıq gözləməzlər. Dinin yaşanmadığı bir mühitdə isə hər cür daxili və xarici siyasət fərdi mənfəətlərə ya da partiya mənfəətlərinə görə tənzimlənir. Belə olduqda yalnız yüksək yerlərə gəlmək üçün ölkəyə ziyan verən bir siyasət belə müdafiə oluna bilər, bu istiqamətdə qərarlar verilə bilər. Müəyyən dairələrdən dəstək ala bilmək üçün onların istədiyi istiqamətdə investisiyalar qoyular, kreditlər açılar ya da edilən sui-istifadələr və qanun pozuntuları görməzlikdən gəlinər. Bu mövzuda ən əhəmiyyətli nümunələrdən biri isə Amerika siyasətində təsirli olan lobbilərdir. Öz istədikləri siyasəti davam etdirə bilmək və hökumətdən dəstək ala bilmək üçün çox böyük məbləğlərlə dəstəklənən namizədlər senata daxil olar. "Kirayəlik siyasətçilər" adı altında bu mövzunu hazırlayan *The Economist* jurnalı xüsusilə axırıncı Amerikan seçkilərində başçıların, təmizliyi şübhə altında olan mənbələrdən pul alaraq seçki kampaniyalarında istifadə etmələri məsələsinə toxunmuş və yalnız 1992-ci ildə 3 milyard dolların seçki kampaniyaları üçün istifadə edildiyini ifadə etmiştir.(2) Çirkli pullar vasitəsiylə istədikləri kəsləri seçdirə bilən lobbilər, bu şəkildə hökumətlər üzərində sanksiyalar da tətbiq edə bilərlər. Bu "çirkli pul" sahiblərinin siyasətçilər üzərindəki təzyiqi o qədər inkişaf etmiş səviyyədədir ki, konqres üzvləri bu lobbilərlə qətiyyən mübahisə etmək istəməzlər. Bu qorxu içindəki siyasətçilər mənfəətpərəst qrupların mənfəətləri istiqamətində siyasətlər aparar, süni böhranlar meydana gətirər, siyasi partiyalara bölünər, ölkədəki sabitliyin qarşısının alınması üçün müxtəlif intriqalar baş verər. (Daha təfərrüatlı məlumat üçün baxın. Harun Yahya, *Yeni Masonik Düzen*, Vural Yayıncılık)

Hakimiyyətdəki rəhbərliklə mənfəət qrupları arasındakı əlaqələrin ölkələri çox böyük xaosun yaşanmasına gətirib çıxara biləcəyinin ən aydın nümunələrini Cənubi Amerikadakı diktatorluq rejimlərində müşahidə edərik. Bu ölkələr son 50-60 ildir ki, faşist rejimlər tərəfindən idarə olunur. Bu rejimlərin başındakı diktatorlar inanılmaz bir lüks içində yaşayır, buna qarşı ölkə əhalisinin yarısı aclıq hüdudunda həyatını davam etdirir. Bu ölkələrdə hakimiyyət bu gün də hələ hərbi siyasi qruplar arasında yer dəyişdirər. Bu siyasi qrupların ümumi məntiqi isə, xalqı nə qədər əzsələr, o qədər güc əldə edəcəkləri şəklindədir. Çox böyük

bir narkotik alış-verişinin mərkəzi mövqeyində yerləşən bu ölkələrdə, qətiyyən narkotik kartelləri arasındakı mənfəət əlaqəsi sabitliyin təmin edilməsinə mane olur. Çünki yalnız xaos mühitlərində inkişaf edən bu tip kütlələr, ancaq təzyiq və terror vasitəsilə hökm sürə bilirlər. Buna görə də qarşıdurmaların, vətəndaş müharibələrinin, cinayətlərin ardı arxası kəsilmir. Məsələn, kokain alverinin mərkəzi olaraq tanınan Kolumbiyada yalnız 1992-ci ildə 28 min cinayət işlənmişdir. Bu göstərici həmin ərazilərdə yaşanan vəhşilik dolu mühiti başa düşmək üçün kifayətdir. Göründüyü kimi, Quran əxlaqının yaşanmaması dünya şərtlərində ola biləcək hər cür azğın hərəkətə göz yuman rəhbərliklərin varlığının da səbəbidir.

Siyasət anlayışında diqqət çəkən başqa bir məsələ isə bəzi ölkələrdə başda olan kəslərin əldə etdikləri vəzifəyə layiq olacaq xüsusiyyətlərə sahib olmamalarıdır. Çünki Quran əxlaqının yaşanmadığı bir rəhbərlikdə insanların bir vəzifəni əldə etmələri üçün, bu vəzifəyə layiq olacaq xüsusiyyətlərə sahib olub-olmadıqlarına diqqət yetirilməz. Başqa birinin daha layiq olduğu bilinməsinə baxmayaraq, bəzi insanların mənfəətləri istiqamətində qərarlar verilə bilər. Halbuki Quran əxlaqında hər iş o mövzuda ən yaxşı xüsusiyyətlərə sahib, ən istedadlı adama verilir. Allah ayəsində bu xüsusiyyəti belə təsvir edir:

**Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir. Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah Eşidəndir, Görəndir. (Nisa surəsi, 58)**

İslam əxlaqının yaşanmadığı, məqam və vəzifələrin, xüsusiyyət və qabiliyyətlərə görə təyin olunmadığı bir mühitdə, əhəmiyyətli bir məqama çatan adamın edəcəyi ilk şey də dərhal yaxın qohumlarını, tanışlarını vacib vəzifələrə gətirmək, onları qorumaq və inkişaf etdirmək olar. Buna görə də bir çox partiya və siyasətçi üçün "kadrlaşma" işləri çox böyük əhəmiyyət daşıyar. Yenə millətin mənfəəti düşünülməz, xidmət ön planda durmaz, şəxsi və siyasi arzular ön plana çıxar. Bu anlayışın bir nəticəsi olaraq da xidmət ehtiyac içində olan şəhərlərdə, kəndlərdə deyil, seçki bölgələrində sıxlaşır. Kasıb bir kəndin elektrik enerjisi, suyu olmadığı halda və ya daha başqa vacib ehtiyacları olduğu halda, onun bu ehtiyacını ödəmək əvəzinə, kampaniyaya dəstək verəcəyi düşünülən dairələrin ehtiyacı, mənfəətləri diqqətə alına bilər.

Məhz bütün bu səhv anlayışın, əxlaqsızlığın əsl səbəbi din əxlaqının yaşanmamasıdır. İnsanlar Allahdan qorxmadıqları üçün ədalətli, mərhəmətli və vicdanlı davranmazlar. Axirətdə hesab verəcəklərini anlamazlıqdan gəldikləri üçün, hər cür zülmü və əxlaqsızlığı edə bilərlər. Buna görə də belə bir zülm mühitini aradan qaldırmaq, insanları parlaq bir gələcəyə çatdırmaq istəyən hər insa, Quran əxlaqını yaşamalı və yaşatmalıdır. Allahın gözəl əxlaq mövzusundakı əmrlərinin insanlar arasında yayılması, bunların yaşanmasına təşviq edilməsi, əks davranışlardan isə bütün insanların çəkindirilməsi hər müsəlmanın boynuna düşən ən böyük vəzifələrdən biridir. Bunu görməzlikdən gələn və ya etməli olan şeyləri təxirə salan, başqalarının boynuna atan kəslər axirətdə bu laqeydliklərinin hesabını verə bilməməkdən çəkinməlidirlər.

# Dinsizliyin iqtisadi həyat üzərindəki təsirləri

İndiki vaxtda ən çox danışılan mövzuların başında iqtisadi problemlər gəlir. Dünyadakı insanların böyük bir hissəsi aclıq hüdudunda yaşayır, bir çox ölkə kənardan yardım almadan müstəqilliyini saxlaya bilmir. Ölkələrin sadəcə kömək almaları da kifayət etmir, çünki bu yardımların faizlərini ödəyə bilmədikləri üçün xeyli böyük problemlərlə üz-üzə gəlirlər.

Səhiyyədən təhsilə qədər hər mövzu çox böyük bir maddi imkan tələb edir. Amma bu gün ən varlısından ən kasıbına qədər bütün ölkələrdə çox böyük bir iqtisadi böhranın yaşandığını, işsizliyin artdığını görürük. Bir tərəfdə çox böyük bir zənginlik, pozğunluq, israf və bunun nəticəsində də degenerasiyanın hər növü yaşandığı halda, digər tərəfdə insanlar tək bir çörək üçün bir-birləriylə döyüşürlər. Həmişə bu mövzularda yazılar dərc olunur, simpoziumlar təşkil olunur, yığıncaqlar keçirilir, amma əsaslı bir çıxış yolu tapılmır, hətta aclıq və səfalət gün keçdikcə daha da artır.

Çətinlik içində yaşayan insanların aylıq gəlirləri heç bir ehtiyacını ödəyə bilmir və bununla yanaşı dünyada çox böyük bir işsizlik hökm sürür. Bunun ən diqqətə çarpan nümunələrindən biri isə bir neçə yüz adamın qəbul olunacağı bir məmurluq imtahanına çox sayda adamın qatılmasıdır. Yalnız bir iş tapa bilmək üçün insanlar saatlarla növbədə gözləyir, iş tapma təşkilatlarında günlərini keçirirlər. Tək istəkləri isə işləmək və maddi dolanışıqlarını təmin edə bilməkdir.

Bəs bunlar necə həll oluna bilər? Niyə bu problemlər əsaslı surətdə aradan qaldırılmır?

Əvvəlcə bir ölkə daxilindəki sabitliyin ən əhəmiyyətli əlaməti iqtisadiyyatda yaşanacaq olan inkişaf, istehsalın artımı, davamlı yeni iş sahələrinin ortaya çıxması və insanların məhsuldar hala gətirilməsidir. Halbuki aparılan araşdırmalara görə bu gün hələ də dünyada çalışan əhalinin, təxminən 30%-ni meydana gətirən 820 milyon işsiz var. Bu kəslərin baxmaqla öhdəlikli olduqları ailələri də nəzərə alındıqda bu göstərici daha da artır.

İndiki vaxtda xüsusilə də iqtisadi cəhətdən yaxşı vəziyyətdə olmayan ölkələrdə iqtisadi nizam faiz sistemi əsasında qurulmuşdur. Bankların verdiyi çox yüksək faizlərin, ölkə iqtisadiyyatına bir çox cəhətdən mənfi təsirləri olur. Beləcə insanlar investisiya və ya istehsala deyil, pullarını banka qoymağa təşviq edilir. Faizlə, gecəlik repolarla qazanılan pul insanlara işləməkdən daha asan gəlir. Əhalisinin böyük bir hissəsi faiz və repo ilə pul qazanan bir cəmiyyətdə isə istehsalın və ölkənin inkişafı üçün lazım olan investisiyaların artırılması isə qeyri-mümkündür.

Belə sistemlərdə bank reklamlarında verilən imic isə belədir: *"Siz iş-gücünüzü, , istehsalı bir kənara qoyun və tətilə çıxın. Pullarınızı da banka, ya faiz ya da repo halında qoyun..."* İndiki vaxtda olduqca cazibədar və asan bir yol olaraq göstərilən bu məntiq əslində heç də zənn edildiyi kimi insanlara rifah və zənginlik gətirməz. Heç bir investisiyanın qoyulmadığı, pulun banklarda, yastıq altında və ya kassalarda toplanaraq yığıldığı bir iqtisadiyyat, sonra da bahalıq, inflyasiya kimi iqtisadi problemləri də özüylə bərabər gətirəcək. Və pulunu faiz halında banka qoyaraq tətilə gedən və istehsalda iştirak etməyən insanlar isə

uzun müddətdə bu iqtisadi çətinliyi şəxsən yaşayacaq və faizlə artan pulları inflyasiyanın sürətinə çata bilməyərək həmişə dəyərini itirəcək.

Halbuki istehsal edildiyi təqdirdə, ölkə iqtisadiyyatında ümumi mənada bir düzəliş yaşanacaq, bazar aktivləşəcək və bu da hər kəs üçün faydalı olacaq. Necə ki, pulu və mal-dövləti yığıb saxlamaq Allahın Quranda qadağan etdiyi davranışlardandır. Quranda insanların əllərindəki pulu həmişə yaxşı işlərdə istifadə etmələri əmr edilir. Tövbə surəsində mal-dövlət yığıb saxlayan kəslər acılı-ağrılı bir əzabla müjdələnir:

**Ey iman gətirənlər! Baş keşişlərdən və rahiblərdən çoxu insanların mallarını haqsız olaraq yeyir və onları Allah yolundan döndərirlər. Qızıl-gümüş yığıb onları Allah yolunda sərf etməyənləri ağrılı-acılı bir əzabla müjdələ. (Tövbə surəsi, 34)**

İslam əxlaqının yaşandığı bir mühitdə dolanışıq şəraiti həmişə insanların lehinə olacaq şəkildə tənzimlənir. Buna görə də faiz də qadağan edilmiş, insanların ağır borc yükü altında əzilmələrinin qarşısı alınmışdır:

**Sələm yeyənlər qəbirlərindən şeytan toxunub dəli eləmiş kimsənin qalxdığı kimi qalxarlar. Bu onların: "Alış-veriş də sələmçilik kimidir!" – demələrinə görədir. Halbuki, Allah alış-verişi halal, sələmçiliyi isə haram etmişdir. Hər kim özünə Rəbbindən xəbərdarlıq gəldikdən sonra sələmçiliyə son qoyarsa, olub-keçənlər ona bağışlanar və onun işi Allaha qalar. Sələmçiliyə qayıdanlar isə Od sakinləridirlər. Onlar orada əbədi qalacaqlar. (Bəqərə surəsi, 275)**

Allah başqa bir ayəsində isə faizin insanlara xeyir gətirməyəcəyini belə xəbər verir:

**Allah sələmi puç edir, sədəqələri isə artırır. Allah kafirləri və günahkarları sevməz. (Bəqərə surəsi, 276)**

İnsanların dolanışıq şərtlərinin yaxşılaşdırılması üçün ölkə daxilində bir nizamın və sabitliyin mövcud olması çox əhəmiyyətlidir. Bu sabitlik iqtisadiyyatdan sosial həyata qədər hər sahəyə hakim olmalıdır. Bu mövzuda bütün müsəlmanlara çox böyük məsuliyyətlər düşür. Heç kim başqa bir şəxsin çıxış yolu tapmasını, bir şeylər etməsini gözləməməli, əlindən gələn hər şeyi etməlidir. Çünki Allah bu mövzuda bütün inananları məsul etmişdir. Bu məsuliyyəti yerinə yetirə bilmək isə əvvəlcə dini və dinin insan həyatına təqdim etdiyi gözəllikləri izah etməklə mümkün ola bilər.

Məsələn, xərclənən və yaxşı işlərdə istifadə olunan malın bərəkətli olacağına və faizin isə bərəkətsizlik gətirəcəyinə iman edən bir camaat, ehtiyacından artıq qalanı yaxşı işlər istiqamətində istifadə edəcək. Belə bir sistemdə isə bütün ölkənin necə bir rifaha çatacağı

aydındır. İnsanların belə bir anlayışı uzaq və əlçatmaz görməmələrini təmin etməyin yeganə yolu isə onlara Quran əxlaqını öyrətməkdir.

Həmçinin bunu da qeyd etmək lazımdır ki, Quran əxlaqının rəhbərliyində yaşanan bir həyatda Allah qorxusu ilə hərəkət edildiyi üçün insanlar təkcə öz mənfəətlərini qorumaq üçün deyil, bütün insanların əmin-amanlığı və mənfəəti üçün çalışarlar. Çünki islam əxlaqında birlik, bərabərlik, yardımlaşma və həmrəylik çox əhəmiyyətlidir.

Allahın qadağan etdiyi bir hərəkət olduğu üçün haqqa təcavüz etmək kimi bir məsələ yaşanmaz. Heç kim başqasının haqqını üstünə keçirməz. Heç kim heç kəsin malına göz dikməz. Ölçüdə heç bir səhvə yol verilməz. Quran əxlaqının yaşandığı bir cəmiyyətdə, dinsizliyin meydana gətirdiyi ədalətsiz, mənfəətə əsaslanan, güclünün zəifi əzdiyi, insanların haqsız yollarla başqa insanların mallarını öz mallarına qatdığı bir sistem əsla yaşanmaz.

Dinin yaşandığı bir cəmiyyətdə israfçılıq və israfa meyl edən istehlak da olmaz. Yardımlaşma və ədalət sayəsində insanların iqtisadi güc səviyyəsi yüksələr. Varlı bir cəmiyyət meydana gələr. Quran əxlaqının yaşandığı, zənginlik və rifahı ilə tarixə keçən “Əsri Səadət” dövrü bu həqiqətin ən açıq dəlillərindəndir.

# Din, yoxsulların və yetimlərin qorunmasını əmr edər

İndiki vaxtda yoxsulluq yalnız dünyanın müəyyən ölkələrini maraqlandıran bir problem olmaqdan çıxmışdır. Körpü altında yatan, zibil qarışdıraraq həyatını davam etdirən, çox az bir pul qarşılığında həyatını təhlükəyə ataraq çalışmaq məcburiyyətində qalan uşaqlar, hər cür mənfi şərtə baxmayaraq çöldə yaşamaq məcburiyyətində qalan evsizlər, qeyri-kafi qidalanmaya əsaslanan uşaq ölümləri və bunlar kimi yoxsulluqdan qaynaqlanan daha bir çox problem bütün dünyanın gündəmində yer tutur.

Dünyadakı yoxsulluqla əlaqədar olaraq aparılan statistik hesablamalardan yalnız küçə uşaqları ilə əlaqədar olanlarına baxdıqda belə vəziyyətin ciddiliyi dərhal aydın olur.

YUNESKO-nun 1982-ci il hesabatına görə küçə uşaqlarının sayı İstanbulda 200.000, Boqotada 10.000, Rio de Janeyroda 2 milyondur. Afrikada isə 5 milyona yaxın olduğu güman edilir və bu rəqəm hər keçən gün sürətlə artır. Bu rəqəmin artmasında məkan dəyişikliyi, müharibə və qıtlıq, QİÇS xəstəliyi və sürətli urbanizasiyalaşma kimi faktorlar əhəmiyyətli rol oynayır. Dünyada 30 ilə 70 milyon arasında küçə uşağı olduğu güman edilir.(3)

Amerikada isə yoxsulluq içində yaşayan uşaqların sayı son 20 ildə 3 dəfə artmışdır. 1989-cu ildə Amerikadakı hər 6 uşaqdan biri rəsmi mənada yoxsulluq içində yaşayırdı. 1993-cü ildəki rəqəmlərə görə, Amerikadakı 6 yaşa qədərki 5 uşaqdan biri yoxsulluq içində yaşayır ki, bu da təxminən 5 milyondan çox uşaq deməkdir. Bundan başqa Amerikadakı 18 yaşa qədərki uşaqlar üçün də vəziyyət fərqli deyil. Bu uşaqlardakı yoxsulluq nisbəti də 1990-cı ildən 1991-ci ilə qədər 20.6 %-dən 21.8 %-ə yüksəlmişdir. 1994-cü ildə 3 yaşa qədərki 4 uşaqdan birinin yoxsulluq içində yaşadığı güman edilir. Bu rəqəmlər 1980-ci illər ərzində 1.8 milyondan 2.3 milyona qalxmışdı.(4)

Yuxarıdakı statistikalardan aydın olduğu kimi varlı ölkələrdə belə yoxsulluq əhəmiyyətli bir problem meydana gətirir. İqtisadi böhranlar nəticəsində ortaya çıxan işsizlik, ictimai təhlükəsizlik sistemlərindəki boşluqlar kimi problemlər varlı ölkələrdəki yoxsulluğun ortaya çıxmasının başlıca səbəblərindəndir.

Keçmiş sosialist ölkələrdə isə yoxsulluğun başqa bir həddi müşahidə olunur. Bu ölkələrdə ümumiyyətlə, bütün fərdlərin həyat səviyyələri aşağıdır. İqtisadi inkişafın çox gec baş verdiyi bu ölkələrdəki yoxsulluq nə Üçüncü Dünya ölkələrindəki kimi, nə də varlı ölkələrdəki kimi müəyyən şərtlərə bağlı olaraq dəyişən bir yoxsulluqdur. Bu ölkələrdə demək olar bütün əhaliyə təsir edən ümumi bir yoxsulluq mövcuddur. Yoxsulluğun nəticələri də ölkənin ümumi strukturuna təsir edir. Məsələn, şəhərlərdəki infrastruktur ilə əlaqədar sistemlər, ictimai təhlükəsizliklə əlaqədar sistemlər qeyri-kafidir. Bundan başqa qida maddələri də çox vaxt qeyri-kafi olur. Bu ölkələri digər yoxsul ölkələrdən fərqləndirən başqa bir məqam da, insanlar bir şeyi satın alma imkanına sahib olduqları vaxt isə, bazarda satın alınacaq mal və qida maddələrini tapa bilmirlər.

Yoxsulluğun səbəbləri və necə ortaya çıxdığı mövzuları ilə əlaqədar bir çox maddə qeyd oluna bilər. Lakin əsas etibarilə bu problemin cəmiyyətdəki təsirini və necə aradan

qaldırılacağını araşdırmaq yerində olar. Buna görə də sonrakı hissələrdə yoxsulluqla birlikdə ortaya çıxan problemlər müəyyən başlıqlar altında toplanaraq araşdırılmışdır.

## Yoxsulluğun cəmiyyətdəki mənfi təsirləri

Bir ölkədəki yoxsulluqdan ən çox təsirlənənlər, şübhəsiz ki uşaqlardır. Yoxsulluq üzündən təhsillərini yarımçıq buraxan, hətta sığınacaq yer və yemək belə tapa bilməyən uşaq çox vaxt da pis şərtlərdə işləmək məcburiyyətində qalır. Hətta bəzi ölkələrdə yoxsulluq üzündən uşaqlar öz ailələri tərəfindən iş yerlərinə bir cür "kölə" olaraq satılırlar.

Bu uşaqlar sənayenin insan sağlamlığına ən zərərli, çox vaxt sonu ölümlə nəticələnən sahələrində işləyərək pul qazanırlar. Məsələn, Hindistan 940 milyon əhalisi olan bir ölkədir. Bu ölkədə 44 ilə 100 milyon arasında işçi uşaq var. Bu rəqəm dünyanın digər ölkələrdə işləyən uşaqların cəmindən daha çoxdur. 120 milyon əhalisi olan Pakistanda isə təxminən 8 milyon uşaq işləyir.(5) Dünyanın digər ölkələrində də yoxsul uşaqların vəziyyəti bundan fərqli deyil.

Bu uşaqların kiçik yaşlarda işləmək məcburiyyətində qalması və çətin iş şərtlərindən bütün dünya ölkələri xəbərdardır. Buna baxmayaraq bu mövzuya çıxış yolu tapmaq əvəzinə, uşaq əməyi ilə istehsal olunan ucuz məhsullarla öz iqtisadiyyatlarının rəqabət aparıb apara bilməyəcəklərinin dərdinə düşmüşlər. Hətta keçirdikləri yığıncaqların mövzusu uşaqları içində olduqları vəziyyətdən xilas etmək olmaq əvəzinə, bu rəqabət problemini necə həll edəcəkləri kimi mövzular yer alır.(6)

Bundan başqa dünyadakı bir çox ölkənin büdcəsinin böyük bir hissəsi müdafiə xərclərinə ayrılmışdır. Belə ki, səhiyyə, təhsil və sənaye sahəsindəki ehtiyacları olduqca vacib olan Hindistan, Pakistan kimi ölkələr üçün də vəziyyət fərqli deyil. Onlar da müdafiə üçün digər ehtiyaclarına ayırdıqlarından dəfələrlə çox bir büdcə ayırırlar. Məsələn Pakistan, büdcəsinin 60%-ni silahlanma xərclərinə və ordu xərclərinə xərcləyir. Ölkədəki xalqın çox böyük bir hissəsinin həqiqi mənada bir səfalət içində olması da bu vəziyyəti dəyişdirmir.

Başqa bir nümunə olaraq da Amerikada nüvə silahı və əlaqədar proqramlar üçün ildə 35 milyard dollar pul xərclənməsini verə bilərik. Atom bombalarıyla əlaqədar proqramların başladığı 1940-ci ildən 1996-ci ilə qədər təxminən 5.5 trilyon dollar xərclənmişdir.(7)

Şübhəsiz ki, müdafiə sahəsinə qoyulan bu xərclərin, uyğun şəkildə xalqın ehtiyaclarına çatdırılmasıyla problemlər asanlıqla həll edilə bilər. Halbuki siyasi hesablar və müxtəlif mənfəətlərin güdülməsi üzündən, uşaq həyatından söhbət gedən bu əhəmiyyətli problemdə bu günə qədər həqiqi mənada bir çıxış yolu əldə olunmamışdır.

Ancaq burada bu məqam üzərində dayanmaqda da fayda vardır: Müdafiə xərcləri bu an üçün, əlbəttə ki, edilməli xərclərdir. Yer üzündə dinsizliyin gətirdiyi iğtişaşlar, xaos, zülm və hirs olduğu müddətcə bu problemlərin aradan qalxması mümkün görünür. Çünki bir ölkə müdafiə sənayesini gücləndirməsə, bu mənfəətçi sistem daxilində varlığını davam etdirməsi o qədər də mümkün olmaz.

Amma ortada olduqca aydın bir səfalət vardır. Və yalnız müəyyən günlərdə bu problemi xatırlayaraq ya da yolda qarşılaşılan dilənçi uşaqlara pul verərək bu problemin həll olmayacağı çox aydındır. Problemi həll etmək üçün yoxsul uşaqların təhsil, sığınma, yemək, geyim kimi ehtiyaclarını ödəyəcək sistemli bir hərəkət meydana gəlməlidir.

Bu isə ancaq Quran əxlaqının tam olaraq yaşanması ilə birlikdə ortaya çıxacaq bir həssaslıq və sülh mühiti nəticəsində reallaşa bilər. Bu mühit içində heç bir ölkə başqa bir ölkənin haqqına təcavüz etməyəcək. Buna görə də müdafiə xərcləri xeyli azaldıla biləcək və bura ayrılan imkanlar insanların dincliyi, hüzuru, uşaqların təhsili kimi mövzulara çatdırıla biləcəkdir.

Əlbəttə ki, müdafiə xərcləri yalnız bir nümunədir. Bu istiqamətdə problemin həll edilməsi üçün daha bir çox çıxış yolu təqdim edilə bilər. Ancaq burada əhəmiyyətli olan bütün problemlərdə olduğu kimi yoxsulluq mövzusunda da problemin həllinin Quran əxlaqının yaşanması ilə rellaşa biləcəyidir. Çünki özü ehtiyac içində olduğu halda yeməyini yoxsula və yetimə yedirmək, özünün bəyənməyəcəyi şeyləri başqalarına verməmək, hiss etdirmədən kömək etmək kimi Quranda tövsiyə edilən üstün əxlaq xüsusiyyətləri ancaq Quran əxlaqı tam olaraq yaşandıqda ortaya çıxar. Allah maddi cəhətdən güclü olan insanların necə davranmalı olduqlarını Nur surəsində izah etmişdir:

**Qoy aranızda olan fəzilət və sərvət sahibləri qohumlara, miskinlərə və Allah yolunda hicrət edənlərə heç bir şey verməyəcəklərinə and içməsinlər. Qoy əfv edib bağışlasınlar. Məgər siz Allahın sizi bağışlamasını istəmirsinizmi? Allah Bağışlayandır, Rəhmlidir. (Nur surəsi, 22)**

Allah Quranda fərz buyurduğu hökmlərlə yoxsullara necə davranılmasının lazım olduğunu da izah etmişdir. Məsələn, ayələrdə Quran əxlaqını yaşayan kəslərin mallarında yoxsullar üçün bir haqq olduğu ifadə edilir. Həmçinin Quranda yoxsulluğunu dilə gətirməyən kəslərə də diqqət çəkilərək bu kəslərin hüquqlarının qorunması əmr edilmişdir:

**Onların mal-dövlətində dilənçinin və yoxsulun payı vardır. (Zəriyət surəsi, 19)**

**Sədəqə Allah yolunda cihad edən və yer üzündə hərəkət edə bilməyən yoxsullar üçündür. Bu adamlar həya edib dilənmədiklərinə görə tanımayan adam onları varlı hesab edir. Sən onları üzlərindən tanıyırsan. Onlar insanlardan israrla bir şey istəməzlər. Şübhəsiz ki, Allah malınızdan nə sərf etdiyinizi bilir. (Bəqərə surəsi, 273)**

# Yurdlarını tərk etmək məcburiyyətində qalan insanların vəziyyəti

Yoxsulluğun dünyadakı əhəmiyyətli nəticələrindən biri də qaçqın problemidir. Daha yaxşı bir iş, daha yaxşı imkanlar düşüncəsiylə ya da müharibə, qıtlıq kimi səbəblərlə yola düşən kasıb insanlar ölkələr arasında olduqca ciddi problemlər yarada bilirlər.

Məsələn, 3-cü dünya ölkələrindən gələn qaçqınlar aşağı maaş, pis mühitlərdə iş kimi şərtləri qəbul etdikləri üçün mühacirət etdikləri ölkələrdə ilk vaxtlarda məşhur olmuşlar. Olduqları ölkənin iqtisadiyyatının inkişafında da əhəmiyyətli rol oynayan xarici işçilərə bir müddət sonra üstünlük verilməməyə başlanmışdır. Çünki iqtisadiyyatları düzələn ölkələrin bu kəslərə ehtiyacları qalmamışdır. Öz vətəndaşlarına iş tapa bilməyən ölkələr üçün xarici işçilər problem meydana gətirmişdir.

Məsələn, Malayziya kimi ölkələr uzun bir müddət işlətdikləri xarici işçilərə bir müddət sonra evlərinə qayıtmaları üçün güc tətbiq etmişlər. Öz ölkələrini daha yaxşı şərtlər ümidiylə tərk etmiş olan bu insanlar, getdikləri ölkələrdə də olduqca çətin şərtlər altında işləmək məcburiyyətində qalmışlar. Lakin nəticə dəyişməmiş və yenə səfalət çəkərək öz ölkələrinə geri qayıtmaq məcburiyyətində qalmışlar.

Bununla birlikdə bir ölkədən digərlərinə olan miqrasiyanın səbəbləri yalnız maddiyyət ilə məhdudlaşmır. Ölkələr arasındakı müharibə də bu mövzuda məcburedici bir faktor ola bilir. Müharibə sonrasında meydana gələn yoxsulluq, bir çox insanı yurdlarını tərk etməyə məcbur etmişdir. Bütün dünya, müharibədən qaçan insanların yaşadıqlarına şahid olmasına baxmayaraq bir çox ölkə qaçqınları qəbul etməmişdir. Soyuq havada günlərlə, həftələrlə yol gedərək etibarlı yerlərə çatmağa çalışan bu insanlar bir çox dəfə başqa bir ölkəyə yönəlmək məcburiyyətində qalmışlar.

Məsələn, Kosovada baş verən müharibə üzündən 1998-ci ilin martında başlayan qaçqın köçündə Kosovanın demək olar bütün şəhərləri boşalmışdır. Günlərlə yol gedərək köç etmək məcburiyyətində qalan təxminən 300.000-dən çox Kosovalıdan ağır qış şərtləri üzündən həyatını itirənlər olmuşdur.

Çeçenistanda isə 1999-cu ilin noyabr ayında rusların hücumlarından qaçan çeçen xalqını heç bir ölkə qəbul etməmişdir. Onları qəbul edən Türkiyə sərhədinə çatana qədər isə bir çox qadın, uşaq və yaşlı soyuqdan ölmüşdür.

Dünyanın başqa bir yerində Afrikada baş verən qəbilələr arasındakı müharibələr də buna başqa bir nümunədir. Zairin Hutu və Tutsi qəbilələri arasında baş verən müharibə nəticəsində köç etmək məcburiyyətində qalan on minlərlə adam aclıq və səfalət içində etdikləri uzun səfərlərlə başqa ölkələrə sığınmağa çalışmışlar, bəzi ölkələr tərəfindən qəbul edilməmiş, bəzi ölkələrdə isə epidemik xəstəliklərlə üzləşmək məcburiyyətində qalmışlar. (Detaylı bilgi için bkz. *"Öfkeli Soy Koruyuculuğu": Irkçılık bölümü*)

Quranın hökmlərinə tabe olaraq qazanılan əxlaqda isə insanlar xeyli fərqli bir xarakterdə olarlar. Həmişə kasıbların, çətinlik içində olanların, yurdlarından sürgün

olunanların hüquqları qorunar, onlara ən rahat olacaqları mühitlər hazırlanmağa çalışılar. İçində olduqları vəziyyətdən xilas ola bilmələri üçün fədakarlıqlar göstərilər. Bu mövzuda ən gözəl nümunələrdən biri Peyğəmbərimiz (s.ə.v) dövründə yaşanan bir hadisədir. O dövrdə də yurdlarından sürgün edilən və ya hər hansı bir səbəblə hicrət etmək məcburiyyətində qalan insanlar olmuşdur. Quran əxlaqını yaşayan müsəlmanların bu kəslərə qarşı olan münasibətləri ayələrdə belə xəbər verilmişdir:

**Mühacirlərdən əvvəl Mədinədə yurd salmış, sonra da iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır. (Həşr surəsi, 9)**

**Qənimət həmçinin yurdlarından qovulmuş və mallarından məhrum olunmuş yoxsul mühacirlərə məxsusdur. Onlar Allahın mərhəmətini və razılığını qazanmağa can atır, Allaha və Onun Elçisinə kömək edirlər. Doğru olanlar da məhz onlardır. (Həşr surəsi, 8)**

Açıq bir şəkildə göründüyü kimi, ayələrdə təsvir edilən əxlaq indiki vaxtda yaşanan nümunələrindən tamamilə fərqlidir. Quranda ehtiyac içində olan bir kimsənin qarşısında öz ehtiyacını heç bir şəkildə hiss etdirməyən, möhtac kəslərə təmin edilən imkanlara göz dikməyən, comərd və köməksevər bir əxlaq anlayışı təsvir edilir. Bu əxlaqın yayılmasıyla birlikdə bu kimi problemlər tamamilə həll edilmiş olacaq.

# Dinsiz cəmiyyətlərdəki əxlaq pozğunluğu

**Kafirlər Odun qarşısına gətiriləcəkləri gün onlara deyiləcəkdir: “Siz dünya həyatınızda pak nemətlərinizi sərf edib qurtardınız və onlardan zövq aldınız. Bu gün isə siz yer üzündə haqsız olaraq təkəbbür göstərdiyinizə və asi olduğunuza görə alçaldıcı əzabla cəzalandırılacaqsınız!” (Əhqaf surəsi, 20)**

İnsanların həyatın həqiqi məqsədindən uzaqlaşmaları, mənəvi dəyərlərini də itirmələri deməkdir. Dünyanı yaşaya biləcək tək yer olaraq görən, həm özlərinin, həm də digər insanların ölümlə birlikdə yox olacaqlarını zənn edən kəslərin mənəvi cəhətdən inkişaf etmiş olmasını da gözləmək olmaz. Dünyada, etdikləri yaxşılıqlar və pisliklərlə sınandıqlarını, bunların ölümdən sonrakı həyatda qarşılarına gətiriləcəyini düşünməyən kəslərin insani istiqamətlərinin inkişafı qeyri-mümkündür.

Belə səhv bir həyat fəlsəfəsinə sahib insanların meydana gətirdikləri cəmiyyətlərin mənəvi cəhətdən böyük bir boşluq içində olması qaçınılmazdır. Cəmiyyəti meydana gətirən insanlar dünyada özləri üçün mümkün olduğu qədər mənfəət əldə etməyə, öz istək və ehtiraslarını təmin etməyə, qısa bir həyat müddətini məsuliyyətsizcə keçirməyə çalışırlar. Əxlaqi cəhətdən bir gözəllik əldə etmək mövzusunda isə səy göstərməzlər. Çünki bunun özləri üçün bir mənfəət təmin etməyəcəyini düşünürlər. Hətta əksinə köməksevər, şəfqətli, mərhəmətli, tolerant, vicdanlı insanları öz səhv dünyagörüşləriylə “saf” insanlar olaraq qiymətləndirərlər. Onların həyat fəlsəfələri, qüvvətli olanın zəif olanı əzməsi, güclü olanın heç kimin haqqını güdmədən insanlara dilədiyi şəkildə zülm etməsi əsasında qurulmuşdur.

Allah Quranda, axirətə və hesablaşma gününə inanmayan belə insanların günah mövzusunda da sərhəd tanımamalarına diqqət çəkmişdir:

**O gün haqqı yalan hesab edənlərin vay halına!**

**O kəslərin ki, Haqq-hesab gününü yalan hesab edirlər.**

**Amma bunu, həddini aşan günahkardan başqa, heç kəs yalan hesab etməz. (Mutaffifin surəsi, 10-12)**

Dindən uzaq yaşayan bu insanlar həyatları boyunca həmişə daha çox şey əldə etmə ehtirası içində olarlar. Və ətraflarındakı insanlara da bu istiqamətdə təsir edər, onları da Allahın sərhədlərini tanımadan yaşamağa təşviq edərlər.

Məhz içində yaşadığımız dövr, din əxlaqını tamamilə tərk etmiş və ətraflarındakı şəxsləri də belə zülmət bir yola çəkmək istəyən insanların çoxluq təşkil etdiyi bir dövrdür. Bundan ötrü günahda sərhəd tanımamaq, təcavüzkarlıq, mənəvi zəiflik, əxlaqi dəyərlərin itirilməsi, bir ayədə keçən ifadəylə “çirkin əməllərin” yayılması, fahişəliyin, azğın cinsi əlaqələrin, narkotik asılılığının, qumarın, bir sözlə hər cür əxlaqsızlığın təşviq edildiyi bir

dövrdür. Sonrakı səhifələrdə, insanların dinsizliyin bir nəticəsi olaraq necə bir əxlaqi çöküntü içinə düşdüklərinə yer veriləcək.

# Əxlaqsızlığın təlqini

Dinsiz və ya Allaha və axirətə olan inancı zəif olan bir insan, Allahın haram buyurduğu fahişəlik, qumar, oğurluq kimi işlər görməkdən, insanların haqlarına təcavüz etməkdən çəkinməz. Çünki dinsizliyin əsasında insanların təsadüflər nəticəsində meydana gəldikləri və buna görə də özlərini bir yaradıcıya qarşı məsuliyyətli hiss etmək məcburiyyətində qalmadıqları inancı vardır. Həmçinin dinsizliyə dəstək olan təkamül nəzəriyyəsinə əsasən də insan inkişaf etmiş bir heyvandır və digər heyvanlar kimi ehtiyaclarını ödəməkdən başqa bir qayğısı olmamalıdır. Eqoist ehtiyaclarını qarşılamaq mövzusunda isə özünə hər hansı bir məhdudiyyət gətirmək məcburiyyətində deyil, eynilə heyvanlar kimi davrana bilər. Bir sözlə dini tanımayan bu cür fəlsəfələr əxlaq qaydalarını da tanımazlar.

Necə ki, məşhur materialistlər və darvinizmin müdafiəçiləri dinsizliyin əxlaqa baxış prizmasını bütün aydınlığı ilə dilə gətirmişlər. Darvinizmin qabaqcıl müasir müdafiəçilərindən və Cornell Universiteti professorlarından Villiam Provine materializmin əxlaqa baxış prizmasını belə ifadə edir:

Müasir elm ortaya qoyur ki, dünya tamamilə və yalnız mexaniki prinsiplərlə işləyir. Təbiətdə heç bir məqsəd və məqsədli prinsip yoxdur. Şüurlu olaraq tapıla biləcək Tanrılar və nizamlayıcı güclər də yoxdur... İkincisi, müasir elm ortaya qoyur ki, bəşəriyyət üçün heç bir “daimi əxlaqi qanun” ya da “mütləq yol göstərici prinsip” yoxdur... Üçüncüsü, bu nəticəyə gəlməliyik ki, öldüyümüz vaxt ölərik və bu bizim mütləq sonumuzdur.(8)

Bu materialist elm adamının da ifadə etdiyi kimi dinsizlikdə axirət inancı yoxdur və insanlar ölümdən sonra yox olacaqlarına inanırlar. Dinsizlərin bu azğın inancları Quranda da belə xəbər verilmişdir:

**Dünya həyatımızdan başqa heç bir həyat yoxdur; ölüb dirilirik (birimiz ölür, digərimiz anadan olur) və biz dirilməyəcəyik. (Müminun surəsi, 37)**

Öldükdən sonra diriləcəyinə inanmayan insanlarda, sərhəd tanımayan, hər cür ifratçılıqda və əxlaqsızlıqda bir problem görməyən, nəfsinin və ehtiraslarının bütün əmrlərini yerinə yetirən, iradəsindən istifadə etmək üçün bir səbəb görməyən əksinə hər cür iradəsizliyi məqbul sayan bir anlayış inkişaf edər. Buna görə də, dinsizlik əxlaqi pozğunluğun ən əhəmiyyətli səbəbidir. Necə ki, Provinenin yuxarıdakı sözləri də dinsizliyin bu sərhəd tanımazlığına, əxlaq üzərindəki mənfi təsirlərinə bir nümunə təşkil edir. Bu sözlərdə dinsiz bir insanın necə səhv bir düşüncə və əxlaq quruluşuna sahib olduğunu görmək mümkündür.

Bunu da qeyd etmək lazımdır: Əlbəttə ki, əxlaqsızlıq edən hər insan Darvinizmi və ya materializmi düşünərək bunları etməz. Ancaq burada əhəmiyyətli olan bu fikri cərəyanların və dinsizliyin rəhbərlərinin insanlara bu təlqinləri vermələri və bunların nəticəsi olaraq da insanların böyük bir hissəsinin axirətdəki həyatlarını düşünərək yaşamaq əvəzinə bu dünya həyatını sərhəd tanımaz və azğın bir ehtirasla yaşamalarıdır.

Məsələn? 60-cı illərdə dünya gəncləri arasında ortaya çıxan azadlıq anlayışı tamamilə bu sərhəd tanımazlığın və ifratçılığın nəticəsi idi. Sərbəst seksuallıq, narkotik vasitələrdən istifadə etmək, özbaşınalıq, üsyankarlıq kimi hər cür əxlaqdan kənar rəftar bu dövrün ən əhəmiyyətli xüsusiyyəti idi. Bu gün bütün dünyada bu dövrün yetişdirdiyi insanlar ya ölkələri idarə edir, ya da məktəblərdə müəllimlik edirlər. Həmçinin dövrümüzdəki gənc nəsli yetişdirmiş olan ata və analar da yenə eyni dövrün insanlarıdır. Bu gün bütün dünyada əxlaqi degenerasiyanın tarixdə müşahidə olunmadığı qədər inkişaf etmiş olmasının bir səbəbi də dinsiz yetişmiş bir nəslin, getdikcə degenerasiya olaraq yetişdirdiyi bir nəslin mövcud olmasıdır. Allah bir ayəsində ataları dini bilmədikləri üçün özləri də "qafil" qalan birlikdən bəhs edir:

**ataları xəbərdar edilməmiş, özləri də qafil olan bir tayfanı xəbərdar edəsən. (Yasin surəsi, 6)**

Bu ayədə də diqqət çəkildiyi kimi dinsiz insanların yetişdirdikləri nəsillər də özləri kimi dinsiz və "**pislikdə sərhəddi aşan**", yəni əxlaqi dəyərlərdən məhrum olmuş insanlar olur.

Bu gün Amerikadan Hollandiyaya, Uzaq Şərq ölkələrindən Rusiyaya qədər hakim olan əxlaqi degenerasiyanın ən əhəmiyyətli səbəbi dinsizliyin meydana gətirdiyi özünü özbaşına və məsuliyyətsiz zənn edən insanlardır. Homoseksuallığın sanki "dəb" olmasının, fahişəliyin, kiçik yaşdakı uşaqların fahişəlik üçün satılmalarının, qumarın, fırıldaqçılığın, rüşvətin, şeytani xüsusiyyətlərə sahib olmağı bir üstünlük saymağın, insanların bir-birlərinə hətta "atalarına belə" qətiyyən etibar edə bilməmələrinin, nikahdan əvvəlki yaxınlığın müasirlik zənn edilməsinin, insanların utanma və həya duyğularını itirmələrinin, gözəl əxlaq göstərənləri tənqid etmələrinin və bəlkə də 20 il bundan əvvəl qətiyyən ağıla gəlməyən və böyük bir əxlaqsızlıq olaraq qəbul edilən rəftarlara insanların təşviq edilməsinin arxasında duran səbəb, dinsizliyin bəlkə də tarixdə ilk dəfə bu qədər geniş yayılmasıdır.

Dinsizliyin əxlaqsızlığı gətirdiyi qəti bir həqiqətdir. Ancaq dinsiz olduğu halda əxlaqsız olmadığını, yuxarıda qeyd olunan əxlaqsızlıqların heç birini etmədiyini düşünən insanlar da ola bilər. Həqiqətən dinsiz bir insan həyatı boyunca qətiyyən rüşvət almamış ola bilər və almamaq mövzusunda qəti qərarlı da ola bilər. Ancaq bu onun Qurana uyğun gözəl bir əxlaq sahibi olduğunu göstərməz. Hər şeydən əvvəl Allahdan qorxub çəkindiyi üçün gözəl əxlaq göstərən bir insan hər mövzuda bu əxlaqını davam etdirər. Buna qarşı həyatı boyunca əsla rüşvət almadığını deyən dindən uzaq bir insan mənfəətləri üçün asanlıqla yalan danışa bilər. Və ya oğlunun xəstəxana xərclərini ödəmək üçün pula ehtiyacının olduğu vaxt gözünü belə qırpmadan rüşvət ala bilir, yəni tələblər dəyişdikdə "məcbur qaldığını" deyərək, heç etməyi düşünmədiyi bir şeyi edə bilir. Məsələn, bir insanı öldürməyi əsla düşünə bilməyən dinsiz bir insan, bir gün həddindən artıq əsəbləşdikdə özünü saxlaya bilməyərək cinayət işləyə bilər.

Halbuki gözəl əxlaq səbir və iradə tələb edir. Tələblər nə olursa-olsun gözəl əxlaqdan güzəştə getməmək lazımdır. Bu iradəni və səbri göstərə bilmək üçünsə insanın əhəmiyyətli bir məqsədinin olması vacibdir. Möminlər Allahın razılığını, rəhmətini və cənnətini qazanmağı qarşılarına məqsəd qoyduqları üçün qarşılarına çıxan hər cür şərtdə gözəl bir əxlaq

göstərərlər. Amma dinsiz və məqsədsiz bir insanın belə bir iradə və səbir göstərməsi üçün heç bir səbəb yoxdur. Məsələn, fahişəlik yolu ilə pul qazananlar bunu ac qalmamaq üçün etdiklərini deyərlər. Halbuki Allaha və axirət gününə iman etmiş olsalar, belə bir həyasızlıq etməyə əsla cəhd etməzlər. Axirətdə hesabını verə bilməyəcəklərini bildikləri üçün böyük bir qorxu ilə çəkinərlər. Allahın **"Şeytan sizi yoxsulluqla qorxudur və yaramaz işlər görməyi əmr edir. Allah isə sizə Öz tərəfindən bağışlanma və mərhəmət olunacağını vəd edir. Allah hər şeyi Əhatə edəndir, Biləndir". (Bəqərə surəsi, 268)** ayəsində bildirdiyi kimi insanların böyük bir qismi kasıblıq qorxusuyla hər cür əxlaqsızlığa müraciət edə bilir. Halbuki Allahın rəhmətinə ümid edən adam bunları ağlından belə keçirməz. Allah Quranda möminlərin içlərindəki Allah qorxusundan ötrü gözəl əxlaqlarında qərarlı və səbirli olduqlarını belə bildirir.

**O kəslər ki, Allahın qovuşdurulmasını əmr etdiyi şeyləri qovuşdurur (qohumluq və qardaşlıq əlaqələrini möhkəmlədir), Rəbbindən qorxur və pis haqq-hesabdan çəkinirlər. O kəslər ki, Rəbbinin Üzünü diləyərək səbir edir, namaz qılır, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir və pisliyi yaxşılıqla dəf edirlər. Onlar üçün Axirət yurdu... (Rad surəsi, 21-22)**

## İnsanların əxlaqsızlığa təşviq edilmələri:

İndiki vaxtda "müasirlik", "müasir olmaq", "cəsarət" və "azadlıq" pərdəsi altında insanlar, xüsusilə də gənclər əxlaqsızlığa təşviq edilirlər. Bir neçə on il bundan əvvələ qədər insanların ağızlarına belə gətirməyə çəkindikləri anlayışlar bir çox cəmiyyətdə artıq qanuni olaraq qəbul edilir. Televiziyalarda və maqazin jurnallarında hər cür əxlaqsızlıq nümayiş olunur, sui-istifadə edənlər, homoseksual, fahişəliklə dolananlar, qızlarını satışa çıxaranlar, qumarbazlar, iki sözü bir yerə gətirməkdən aciz, cahil kəslər "qibtə ediləcək kəslər"miş kimi nümunə gətirilir və yaşadıqları həyat çox cazibədarmış kimi izah edilir. Etdikləri əxlaqsızlıqların dövrümüzün cəmiyyətindəki sifətləri isə guya cəsarət, mədəniyyət və müasirlikdir.

Məsələn, son illərdə dünyada kişilərin qadına xas davranmaları, qadına xas bir üslubla danışıb, qadına xas geyinmələri bu təlqinin bir nəticəsidir. Cəmiyyətdə bəzi kəslərin göstəricilərini hörmətdən salacaq bu kimi rəftarlara qibtə etmələri də, əlbəttə ki, onların ağılsızlıqlarının bir əlamətidir. İnsanlar dünya şöhrətli bəzi "medyatik" kəslər tərəfindən nikahdankənar əlaqələrə və narkotikdən istifadə etməyə təşviq edilir. Cahil olan insanlar isə bu kəsləri özlərinə nümunə götürüb, onların geyimlərindən mimikalarına, həyat fəlsəfələrindən danışıq üslublarına qədər hər rəftarlarını təqlid edirlər. Halbuki qibtə etdikləri kəslərin böyük bir hissəsi ruhi sarsıntı içində yaşayan, cahil, ətrafındakı insanlar tərəfindən həmişə alçaldılan insanlardır. Ancaq Quran əxlaqından uzaq olan bir çox insan bunları görə bilməyəcək qədər ağıl cəhətdən məhrumdur. Allah iman etməyənlərin ağılsızlıqlarını bir çox ayəsində bildirmişdir. Bir ayədə belə buyurulur:

**Sizə verilən hər şey ancaq dünya həyatının keçici zövqü və onun bərbəzəyidir. Allah yanında olanlar isə daha xeyirli və daha davamlıdır. Məgər başa düşmürsünüz? (Qəsas surəsi, 60)**

Halbuki cəmiyyət, Allahdan qorxub çəkinən, düşünən, ağıl sahibi, vicdanlı, mədəni, dürüst və aydın kəslərdən olmağa təşviq edilsə, əxlaqsızlıqlar pislənərək alçaldılsa, heç kim əxlaqsızlıq yarışına qoşula bilməyəcəkdir. Gənc insanların zehinləri boş mövzular əvəzinə həm özlərini inkişaf etdirəcək, həm də ətraflarındakı insanlara fayda vermələrinə imkan verəcək mövzularla məşğul olsa, şübhəsiz ki, bu insanlar xeyli şüurlu fərdlər olacaqlar. Şüur səviyyəsi yüksək kəslərin də həmişə ətraflarındakı insanlara, içində yaşadıqları cəmiyyətə və hətta bütün dünyaya fayda verəcəkləri aydındır. Əvvəlcə bu insanlar həmişə doğru olanı araşdıran, fikri atmacalardan uzaq, aydın fikirli kəslər olacaqlar. Ətraflarında gördükləri hadisələri dinsizliyin gətirdiyi bəzi ön mühakimələrlə deyil, açıq bir zehinlə qiymətləndirəcək, dünyada olma məqsədlərini fərq edə biləcəklər. Və bu insanlar, özlərini Allahın yaratdığını və Ona qarşı məsul olduqlarını bildikləri üçün, ən gözəl əxlaqı yaşaya biləcəklər. Qurana tabe olduqları üçün də özlərinə yalançı, saxtakar, əxlaqsız, təxribatçı insanları deyil, səmimi, gözəl əxlaqlı, ağıllı, şüurlu insanları nümunə götürəcəklər.

Allah bir ayəsində nümunə götürülməli olan insanları belə bildirmişdir:

**Allahın Elçisi sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir. (Əhzab surəsi, 21)**

Cəmiyyətdə gözəl əxlaqlı kəslərin ön plana çıxardılmaları, gözəl əxlaqın təriflənərək pis əxlaqın pislənməsi insanların əxlaqsızlığa qibtə etmələrini də tamamilə aradan qaldıracaq.

# Dinsiz iradəsizliyin bir əlaməti: Narkotik

Narkotikdən istifadə xüsusilə son 10 ildir ki, böyük bir sürətlə yayılır. Aparılan araşdırmalar gənclərin əhəmiyyətli bir hissəsinin narkotikdən istifadə etdiyini və yenə xeyli sayda insanın narkotikdən asılı olduğunu ortaya qoyur. Məsələn, 1992-ci ildə İngiltərədə aparılan bir araşdırmaya görə gənclərin 50%-nin narkotikdən istifadə etdiyi, 30%-nin isə asılı olduğu ortaya çıxmışdır. Amerikada aparılan digər bir araşdırma isə 1988 və 1995-ci illər arasında amerikalıların narkotik üçün tam olaraq 57.3 milyard dollar xərclədiklərini ortaya qoymuşdur.(9)

Hər cür narkotik maddə, insan sağlamlığına çox böyük ziyan vurar. Narkotik insanın həyatına da mənfi istiqamətdə təsir edir. Əvvəlcə işləyərək pul qazanması və ehtiyaclarını ödəməsi də qeyri-mümkün hala gəlir. Bir tərəfdən də narkotik ala bilmək üçün pul tapması lazım gəlir. Buna görə də narkotikdən istifadə edənlərin əksəriyyəti, oğurluq, fırıldaqçılıq, fahişəlik, narkotik alverçiliyi kimi qeyri-qanuni üsullarla pul qazanma yolunu seçərlər. Hər keçən gün getdikcə daha çox bu bataqlığın içinə girərlər.

Bir insanın özünə göz görə-görə və öz əliylə maddi və mənəvi cəhətdən belə böyük bir zərər verə bilməsi əslində təəccüblüdür. Ağıl və vicdan sahibi bir insan özünü əsla belə bir vəziyyətə salmaz ancaq dinsizliyin səbəb olduğu iradəsizlik bir insanın özünə xeyli böyük zərərlər verməsinə səbəb ola bilir. Allah **"Həqiqətən, Allah insanlara əsla zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər". (Yunis surəsi, 44)** ayəsiylə dinsiz insanların bu cəhətini bildirir.

Narkotik mövzusunda dinsizliyin öz təsirini göstərdiyi başqa bir məqam isə gəncləri və insanları narkotikə alışdıranlardır. Vicdan, mərhəmət, şəfqət və yazığı gəlmək duyğularını tamamilə itirən bu insanlar, böyük bir diqqətlə insanları asılı hala gətirməyə və daha çox narkotik sataraq, bunun sayəsində pul qazanmağa çalışarlar. Hətta Latın Amerikası və ya Rusiya kimi bəzi ölkələrdə narkotik ticarəti bir gəlir mənbəyi olaraq görülür və dövlətin əliylə aparılır, edən şəxslərə də göz yumulur. Halbuki iki tərəfdən biri dindar olsa, Allaha və axirət gününə iman etsə bu problem bütün dünyadan qalxar. Məsələn, Allah qorxusu üzündən narkotik ticarəti edən kimsə qalmasa və ya Allah qorxusu ilə narkotik istifadə edən kimsə qalmasa bu problem qəti olaraq həll edilər.

Bu gün narkotik ticarətini və istifadəsini aradan qaldırmaq üçün istifadə edilən üsullar qətiyyən birdəfəlik həllər təqdim etmir. Məsələn, xəstəxanada zorla müalicə görən bir narkotik asılısı, çıxar-çıxmaz yenə eyni mühitə düşərək narkotikə başlayır. Narkotik qaçaqçılığından həbs olunan biri isə həbsxanada narkotik alverinə nəzarət etməyə davam edə bilir. Narkotikdən asılı olan insanı xilas etməyin yeganə yolu o adama iradə aşılanmasıdır. Bir insana sarsılmaz iradə verən yeganə güc isə dindir. Ən iradəli insanın belə iradəsini sarsıda biləcək bir ehtirası mütləq vardır. Ancaq Allah qorxusunun və cəhənnəm əzabından çəkinməyin gətirdiyi iradəni sarsıda biləcək heç bir güc yoxdur.

# Çirkin bir həyasızlıq: Fahişəlik

Fahişəliklə gəlir əldə etmək yolu bütün dünyada çox böyük bir sürətlə yayılır. Bununla yanaşı fahişəlik ticarəti aparan gənclərin yaş həddi də böyük bir sürətlə azalır. Bu gün dünyanın bir çox ölkəsində uşaq deyiləcək yaşdakı qız və oğlanlar, pul qarşılığında, hətta bəzən şəxsən ailələri tərəfindən satışa çıxarılır. Hələ qorunması və baxılması lazım olan bir yaşda bir əmtəə olaraq satılan bu uşaqları xilas etmək üçün bütün dünyanın ayağa qalxması lazım olduğu halda, Filippin kimi uşaq fahişələrin yayılmış olduğu ölkələr ən məşhur turizm məkanları kimi təqdim edilir, dünyanın bir çox yerindən turistlər yalnız bu məqsədlə bəhsi keçən ərazilərə axışırlar.

**National Certified Health Statistics** hesablarına əsasən Amerikada uşaqların 32%-i nikahdankənar əlaqələrdən doğulur. Bu, hər il 1.267.383 uşağın evli olmayan ana və atalardan meydana gəlməsi deməkdir.(10) 20-30 il əvvəl ağla gətirilməsi belə qeyri-mümkün olan bir hadisə bu gün artıq normal qarşılanır.

Fahişəlik nəticəsində meydana gələn maddi və mənəvi zərərlər isə cəmiyyətin strukturuna əhəmiyyətli dərəcədə təsir edir. Nikahdankənar əlaqələrdən doğan uşaqlar və ya hələ uşaq yaşda, üstəlik evli olmadığı halda uşaq sahibi olan anaların meydana gətirdiyi ailə həyatının nə qədər problemli və bərbad olacağı aydındır. Belə bir strukturda yetişən uşaqların da aqibəti bəllidir. Ailə strukturundakı bu degenerasiya 9 mart 1998-ci il tarixində nəşr olunan "A Synopsis of Current World Crisis Reports" (Mövcud dünya böhranı hesabatlarının bir xülasəsi) da belə izah olunur:

1960-cı ildən bəri ailə və əxlaq strukturunda böyük bir zədələnmə başladı. Bu gün ölkəni idarə edən insanlar o vaxtın hippileriydilər. Ən əhəmiyyətli şüarları sərbəst eşq idi. Ancaq heç kim həmişə bəziləriylə mübarizə apardıqlarını və əslində bir-birlərini heç sevmədiklərini fərq edə bilmədi. Onların yaşadıqları sevgi deyil, əxlaqsızlıq və degenerasiya idi.(11

Fahişəlik Allahın Quranda haram olaraq buyurduğu və qarşılığında cəhənnəm əzabını vəd etdiyi bir əxlaqsızlıqdır.

**Zinaya yaxınlaşmayın. Çünki bu, iyrənc bir əməl və murdar bir yoldur! (İsra surəsi, 32)**

**Onlar Allahla yanaşı başqa məbuda yalvarmaz, Allahın haram etdiyi cana haqsız yerə qıymaz və zina etməzlər. Bunu edən kimsə cəzalandırılar. (Furqan surəsi, 68)**

Ancaq dini təlqin əvəzinə əxlaqsızlığın təlqini verildiyi üçün insanların böyük bir hissəsi özlərini cəhənnəmə aparacaq bir hərəkəti "müasir" və "cazibədar" görə bilir.

Əxlaqi degenerasiyanın son həddində yaşandığı başqa bir mövzu da homoseksuallıqdır. Yaxın bir vaxta qədər "əxlaqsızlıq" olaraq xarakterizə edilən homoseksuallıq bu gün bir çox cəmiyyətdə normal qarşılanır və sürətlə yayılır. Artıq indiki vaxtda bəzi ölkələrdə homoseksuallar evlənə bilir, kirayəlik analar vasitəçiliyi ilə körpə sahibi ola bilir, homoseksual partiyalar və klublar qura bilir, homoseksual konqreslər təşkil edə bilirlər. Bir çox jurnal və ya nəşrdə bu cür əlaqələrin rəvacda olduğuna dair təlqinlər edilir. "İnsan cinsiyyətini müəyyənləşdirməkdə sərbəstdir" kimi sözlərlə "aydınlıq" və "etibarlılıq" qazandırılmağa çalışılan homoseksuallıq əslində aydın bir pozğunluqdur.

Diqqət yetirilsə homoseksualların və fahişələrin həmçinin digər əxlaqi cəhətləri də zədələnmişdir. Təcavüzkar, söyüşkən, söz başa düşməyən, evləri və bədənləri pislik içində olan, yoluxucu xəstəliyini gözünü qırpmadan digər insanlara keçirə biləcək qədər insanlara qarşı kin və nifrət duyan, heç bir mövzuda sərhəd tanımayan, namus və şərəfini tamamilə itirmiş insanlardır. Sahib olduqları psixoloji pozğunluqlar üzündən intihara və cinayətə də olduqca meylli bir xarakterləri vardır. Bu insanların cəmiyyətə heç bir faydaları toxunmaz, əksinə yalnız narahatlıq, gərginlik, xəstəlik və əxlaqsızlıq gətirərlər. Bu insanların həmişə gündəmdə tutulmalarının məqsədi, insanları xeyli degenerasiya edərək, hətta bunu maksimum səviyyəyə gətirərək, vaxt ərzində əxlaq qaydalarının xeyli zəiflədiyi bir cəmiyyət yaratmaqdır.

Əxlaqi cəhətdən degenerasiya olmuş bir cəmiyyətin ən diqqətə çarpan xüsusiyyəti isə dinsizliyidir. Homoseksuallıq Allahın dünyada və axirətdə əzaba çəkməyə səbəb olaraq bildirdiyi bir pozğunluqdur. Allah Quranda, Lut qövmünü yerə batırdığını və tarixə keçən bir əzabla cəzalandırdığını bildirmişdir. Hz. Lut qövmünü bu azğınlığı tərk etmələri mövzusunda xəbərdar etmiş ancaq qövmü ona azğınlıqla cavab vermişdir. Bunun nəticəsində isə Allah bu qövmü həlak etmişdir:

**Doğrudanmı siz insanlar içində ancaq kişilərlə yaxınlıq edir və Rəbbinizin sizin üçün yaratdığı qadınlarınızı tərk edirsiniz? Siz, həqiqətən də, həddi aşan adamlarsınız". Onlar dedilər: "Ey Lut! Əgər təbliğatına son qoymasan, mütləq qovulanlardan olacaqsan!" O dedi: "Mən sizin əməllərinizə nifrət edənlərdənəm. Ey Rəbbim! Məni və ailəmi onların tutduqları işdən xilas et!" Biz onu və onun bütün ailəsini xilas etdik. Geridə qalanlar arasındakı yaşlı qadından başqa. Sonra da o birilərini darmadağın etdik. Biz onların üstünə daşlardan yağış yağdırdıq. Qorxudulanların yağışı nə yaman imiş! Şübhəsiz ki, bunda bir ibrət vardır. Lakin onların əksəriyyəti iman gətirmədi. (Şuəra surəsi, 165-174)**

Əsl düşündürücü olan isə ictimai təşkilatların və ya mövzuyla əlaqədar olan adam və təşkilatların bu problemə yanaşma tərzləridir.

Heç bir təşkilatda bu azğınlığın Allah Qatında bəyənilməyən və dünyada və axirətdə əzabla qarşılıq görəcəyi bildirilən bir günah olduğunun üstündə dayanılmır. Halbuki bu azğınlığı işləyən insanların cəmiyyətə verdikləri zərər qədər, bu insanların içində olduqları vəziyyətdən xilas olmaları da əhəmiyyətlidir. Bu gün bütün dünyada milyonlarla insan

sapqınlıq və azğınlıq içində yaşayır. Bu kəslər aldıqları təlqinlər nəticəsində çirkinliyi, əxlaqsızlığı, itaətsizliyi və üsyankarlığı gözəl görməyə başlamışlar.

Dindar bir cəmiyyət isə insanları həmişə ən gözəl olana, ən estetik olana, ən doğruya, ən dürüst olanına, ən həssas və şərəfli olan həyata, ən ağıllı olan rəftara təşviq edər. Allah bir ayəsində imanı gözəl və əxlaqsızlığı isə çirkin görənlərin doğru yolda olduqlarını bildirir:

**...Lakin Allah sizə imanı sevdirmiş, onu qəlbinizə gözəl göstərmiş, sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır. Doğru yolda olanlar da bunlardır. (Hucurat surəsi, 7)**

İnsanları pisliklərdən və sapqınlıqlardan uzaq tutacaq, gözəl əxlaqı insanlar arasında hakim edə biləcək yeganə güc dindir. Allah bir ayəsində belə bildirir:

**Kitabdan sənə vəhy olunanları oxuyub namaz qıl. Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir. Allahı yada salmaq isə ibadətlərin ən əzəmətlisidir. Allah nə etdiklərinizi bilir. (Ənkəbut surəsi, 45)**

# Qumarın zərərləri

İndiki vaxtda qumar, bütün dünyada olduqca məşhur olan, hətta bir çox adam üçün bir növ əyləncə hesab edilən bir sektor halına gəlmişdir. İnsanlar qumara çox böyük məbləğlərdə pul sərf edirlər. Belə ki, sırf zövq almaq üçün sərf edilən bu pullar, bir çox möhtac insanın rifaha qovuşmasına çatacaq məbləğdədir.

Halbuki qumarın insanlara nə qədər böyük zərərlər verdiyini hər gün qəzetlərdə və televizorda, görmək mümkündür. Qumar borcu üzündən intihar edən, hər şeyini itirdiyi üçün ailəsi dağılan, illərlə işləyib qazandığı mal-dövlətini bir neçə saat ərzində tamamilə itirib depressiyaya məruz qalan, bundan ötrü gözünü belə qırpmadan cinayət işləyə bilən insanların xəbərləri hər gün qarşımıza çıxır. Dağılan ailələrin, məhv olan nigahların, nahaq yolla qazanılan pulların əsasında qurulan bu sektor, əxlaqi degenerasiyanın çox əhəmiyyətli bir nümunəsidir.

İctimai struktura və ailə əlaqələrinə olduqca zərər verməsinə baxmayaraq, insanların qumara bu şəkildə təşviq edilməsi isə təəccüblüdür. Bunun ticarətini apararaq pul qazanmağa çalışmaq, qumarı qanuni bir hal olaraq qəbul etmək isə, şübhəsiz ki, olduqca böyük bir vicdansızlıqdır.

Bütün bu zərərləri görməməzlikdən gələrək belə çirkin və haram bir hərəkətin yayılmasına izn verənlər, özləri də qumardan zərər çəkdikdə nə qədər böyük bir səhv etdiklərini başa düşərlər. Amma onlar belə bir hadisəylə üzləşənə qədər bir çox insanı, hətta cəmiyyətləri zülmətə sövq edərlər. Belə bir vicdansızlığın əsaslı surətdə aradan qaldırılması isə Allahın əmr etdiyi Quran əxlaqına tabe olmaqdır. Allah Quranda qumarı "şeytan əməlindən olan bir iş" olaraq təqdim etmiş və insanları bundan uzaq durmağa çağırmışdır:

**Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici içki də, qumar da, tapınmaq məqsədilə dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız. Həqiqətən, şeytan sərxoşedici içki və qumar vasitəsilə sizin aranıza ədavət və kin salmaq, sizi Allahı yad etməkdən və namazdan ayırmaq istəyər. Siz buna son qoyacaqsınızmı? (Maidə surəsi, 90-91)**

İmanlı və vicdanlı insanlara düşən vəzifə də, qumarın insan və cəmiyyət həyatına gətirdiyi zərərləri göz qabağına gətirmək, insanları bu "pislik"dən çəkinməyə dəvət etməkdir.

# Dinsizliyin səbəb olduğu cinayətlər

**Onlar Allahla yanaşı başqa məbuda yalvarmaz, Allahın haram etdiyi cana haqsız yerə qıymaz və zina etməzlər. Bunu edən kimsə cəzalandırılar. (Furqan surəsi, 68)**

İslam əxlaqından uzaq olmağın gətirdiyi zərərlərdən biri də, insanlar arasında mərhəmətsizliyin, nifrətin, qəzəbin, zülmün hakim olmasıdır. Bu xarakterdəki insanlar, söhbət öz mənfəətlərindən getdikdə və ya hər hansı bir insana qarşı duyduqları qəzəb üzündən asanlıqla cinayət işləyə bilirlər.

Haqsız yerə bir insanı öldürən, soyuqqanlılıqla dalbadal cinayətlər işləyən, ani bir qəzəb ya da qısqanclıq nəticəsində ən yaxın qohumunu və ya heç tanımadığı birini öldürən, hətta bu işi pulla edən insanların sayı, dövrümüzdəki cəmiyyətlərdə olduqca çoxdur. Qəzetlərdən və televiziyalardan bir gün belə əskilməyən cinayət xəbərləri cəmiyyətdəki, dinsizlikdən qaynaqlanan degenerasiyanın çox aydın bir əlamətidir.

Dünyada hər gün minlərlə insan öldürülür. Bir neçə milyon pul üçün belə gecə, taksisinə mindiyi şoferi haqsızcasına öldürən insanlar da vardır. Və ya dolanışıqlarını heç tanımadıqları insanları öldürərək təmin edən, bunu artıq adi bir hadisə olaraq qiymətləndirən insanların sayı da az hesab olunmayacaq səviyyədədir. Bu insanlardan bu əməlləri barədə soruşduqda isə, öz ağıllarına görə bir izah verərək "o pulu almasaydım mən aclıqdan öləcəkdim" kimi əxlaqsız ifadələrdən istifadə edərlər. Məhz bütün bunlar, Allahın dininə əməl etmədən yaşanan bir həyatın səbəb olduğu zalımlıqlardır.

Həmçinin bunlarla yanaşı yalnız zövq almaq üçün adam öldürən insanlar, dalbadal cinayətlər işləyən qatillər də dünyadakı insanların qorxu və narahatlıq içində yaşamalarına səbəb olurlar. Ailələrini, pullarını ələ keçirə bilmək üçün öldürənlər ya da öldürtdürənlər, qısqanclıqdan ötrü cinayət işləyənlər, nifrətindən ötrü illərlə gözləyib sonra ən yaxınlarını öldürənlər, baxışını bəyənmədiyi üçün küçə ortasında heç tanımadığı halda günahsız bir adamı öldürənlər, qan iddiası uğruna uşaq-muşaq demədən bütün ailəni qətlə yetirənlər, ani bir qəzəb üzündən bir orta məktəbə basqın edib çox sayda uşağı hədəf alanlar... Bu nümunələr o qədər çoxdur ki, xəbərləri qəzetlərdən bir gün belə əskilməz.

Bütün bunların yaşanmasının ən əhəmiyyətli səbəblərindən biri isə Allahın aşağıdakı ayəyə diqqət yetirilməməsidir:

**Onlar Allahla yanaşı başqa məbuda yalvarmaz, Allahın haram etdiyi cana haqsız yerə qıymaz və zina etməzlər. Bunu edən kimsə cəzalandırılar. (Furqan surəsi, 68)**

Haqsız yerə bir insanı öldürən kəslər böyük bir əzabla təhdid edilmişlər. Allah tək bir adamı öldürməyin, bütün insanları öldürmək qədər ağır bir günah olduğunu xəbər vermişdir. Ancaq indiki vaxtda bu ayələrə diqqət yetirilməməsi və cəmiyyətlərdə Allah qorxusunun olmaması üzündən rahatlıqla dalbadal cinayətlər işlənir. Zalım insanlar axirətə iman etmədikləri, bu etdiklərinin hesabını verəcəklərini anlamazlıqdan gəldikləri üçün belə biganə bir münasibət nümayiş etdirə bilirlər. Allahın hüdudlarını qoruyan bir insanın qəzəblənərək özünü itirmə və bir insana zərər vermə ehtimalı qətiyyən yoxdur. Lakin dini yaşamayan cəmiyyətlərdə Allah qorxusu olmadığından və dünyada olarkən etdikləri hər şeyin hesabını mütləq verəcəklərinə dair inancları olmadığından bütün bu əxlaqsızlıqlar rahatlıqla edilir. Halbuki dünyada bəlkə ədalətdən qaçaraq, cəzadan xilas olacağını zənn edənlər, öldükdən sonra axirətdə Allahın hüzurunda verəcəkləri hesabdan əsla qaça bilməyəcəklər. Allah bu mövzuya bir ayəsində belə diqqət çəkmişdir:

**Allahın ayələrini inkar edənləri, peyğəmbərləri haqsız yerə öldürənləri və ədalətə çağıran insanları öldürənləri ağrılı-acılı bir əzabla müjdələ. (Ali İmran surəsi, 21)**

## Dindən uzaq insanlar zalım nəsillər yetişdirər

Bu mövzunun dünyadakı bütün cəmiyyətləri maraqlandıran çox əhəmiyyətli bir istiqaməti daha vardır. Bəhs etdiyimiz növdə olan cinayətlər o qədər yayılmışdır ki, kiçik uşaqların məktəblərdə qırğın törətdiklərinə belə şahid olmaq mümkündür. Bunlarla əlaqədar xəbərlər vaxtaşırı mətbuatda iştirak edir. Əlbəttə ki, bunların bir səbəbi bu uşaqların izlədikləri filmlərdə, televiziya verilişlərində, oxuduqları kitablarda tez-tez işlənən zalımlıq təlqinidir. Xüsusilə də bəzi filmlərdəki öldürmə səhnələrinin kiçik yaşdakı uşaqları bu qorxunc hərəkətlərə təşviq edən bir təsiri vardır. Bu da dinsizliyin qaranlıq üzünü göstərməsi baxımından çox əhəmiyyətli bir nümunədir.

İnsanları çox kiçik yaşlarından etibarən belə qaranlıq bir mühitə sürükləyən, zalımlığa istiqamətləndirən isə yenə dindən uzaq yaşayan insanların varlığıdır. Bu insanlar özləri Allahdan qorxmadıqları kimi, yenə Allah qorxusu olmayan zalım nəsillər yetişdirirlər. Uşaqlarına islam əxlaqının əmr etdiyi gözəl əxlaqı, mərhəmətli, şəfqətli, ədalətli, tolerantlı, etidallı, ağıllı xarakter xüsusiyyətlərini deyil, dinsizliyin gətirdiyi pis əxlaqı öyrədirlər. Bu mövzuyla əlaqədar olaraq hz. Nuhun Quranda bildirilən duası, tarixən bütün inkarçıların eyni zalım strukturu nümayiş etdirdiklərini bizə göstərir:

**Nuh dedi: "Ey Rəbbim, kafirlərdən yer üzündə bir nəfəri belə sağ qoyma! Əgər Sən onları sağ qoysan, onlar qullarını azdıracaq və yalnız günahkar, kafir övladlar doğub-törədəcəklər. Ey Rəbbim! Məni, valideynlərimi, evimə mömin kimi**

**daxil olanları və bütün mömin kişi və qadınları bağışla! Zülmkarların isə ancaq həlakını artır". (Nuh surəsi, 26-28)**

# Dünyada baş verən müharibələr

**Ey iman gətirənlər! İslamı bütövlüklə qəbul edin və şeytanın addım izləri ilə getməyin. Şübhəsiz ki, o sizə açıq-aydın düşməndir. (Bəqərə surəsi, 208)**

İyirminci əsr bəşəriyyət tarixinə müharibələrin, soyqırımların, qarşıdurmaların baş verdiyi bir əsr kimi daxil oldu. Dünya tarixində ən çox qanın axıdıldığı bu əsrdə, milyonlarla insan heç bir səbəb olmadan həyatını itirdi, milyonlarla insan evindən və yurdundan didərgin düşdü, şikəst qaldı, yaxınlarını itirdi. Dünya tarixində çox əhəmiyyətli təsirləri olan, yeni ölkələrin yaradılması və bir çoxunun da dağılmasıyla nəticələnən iki böyük dünya müharibəsi bu əsrdə baş verdi. Daha əvvəlki dövrlərdə baş verən döyüşlər yalnız bir neçə ölkə arasında, cəbhələr arasında həyata keçərkən, bu döyüşlər dünyanın dörd bir tərəfindəki ölkələri içinə aldı. Yalnız Birinci Dünya müharibəsində 9 milyon adam öldü, 20 milyona yaxın adam yaralandı.

Bu əsrdəki müharibələrin başqa bir xüsusiyyəti də vətəndaşların birbaşa bombalanması, uşaqların, qadınların, yaşlıların qətlə yetirilməsi oldu. Soyqırım anlayışı da həqiqi mənasıyla 20-ci əsrdə insan həyatına daxil oldu. Vyetnamda, Fələstində, Kəşmirdə, Ruandada, Bosniya və Kosovada, Çeçenistanda yüz minlərlə silahsız insan həyatını itirdi, qadınlar təcavüzə məruz qaldı, işgəncələr verildi, insanlar həyatlarını düşərgələrdə davam etdirməyə çalışdılar.

Quranda bunlara bənzər bir nümunə Firon dövrü ilə əlaqədar olaraq verilmişdir. Firon nümunəsində gördüyümüz kimi, bu vəhşi qırğınlarda həmişə müdafiəsiz, aciz qalmış şəxslər hədəf alınmışdır. Qəsas surəsində Fironun öz xalqını təriqətlərə ayırdığı, zəiflətdiyi və müdafiəsiz insanları qətlə yetirdiyi bu şəkildə ifadə edilir.

**Həqiqətən, Firon yer üzündə təkəbbürlük göstərib onun əhalisini zümrələrə bölmüşdü. Firon onlardan bir zümrəni zəiflədir, onların oğlan uşaqlarını öldürür, qadınlarını isə sağ buraxırdı. Həqiqətən, o, fitnə-fəsad törədənlərdən idi. (Qəsas surəsi, 4)**

**O zaman Musa öz xalqına demişdi: "Allahın sizə verdiyi neməti xatırlayın. O, sizi Firon əhlindən xilas etdi. Onlar sizə ağır əzablar verir, oğlan uşaqlarınızı öldürür, qadınlarınızı isə sağ buraxırdılar. Bunda Rəbbinizdən sizin üçün böyük bir sınaq var idi". O zaman Rəbbiniz bildirmişdi: "Əgər şükür etsəniz, sizə olan nemətimi artıraram, yox əgər nankorluq etsəniz, bilin ki, Mənim əzabım şiddətlidir". (İbrahim surəsi, 6-7)**

İndiki vaxtda isə mətbuatda bütün təfərrüatlarıyla yer alan bu cür qırğınlar, bunları həyata keçirənlərin insanlıqdan nə qədər uzaqlaşdıqlarını aydın şəkildə göz qabağına gətirir. Hər cür əxlaqi həssaslıqdan, insani duyğulardan, mərhəmətdən, şəfqətdən, sevgidən, acıma duyğusundan uzaq olan bu insanların bəlkə özlərinin belə, nəyin bahasına savaşdıqlarından xəbərləri yoxdur. Bu vəziyyət indiki vaxtda davam edən müharibələr üçün də keçərlidir. Müharibə alovunu yandıranların, onu planlayanların və bunlardan mənfəət gözləyənlərin müəyyən bir məqsəd istiqamətində apardıqları bu qarşıdurmaların səbəbləri, müharibənin şəxsən içində olan bir çox adam tərəfindən bilinmir.

Bu vəhşi qırğınları gözlərini belə qırpmadan reallaşdıracaq qədər insanlıqdan çıxan kəslərin içində olduqları vəziyyətin səbəbi isə, rəhbərlərindən aldıqları təlimdir. İnsanın bir heyvan kimi görüldüyü, işgəncənin, vəhşiliyin normal hala gətirildiyi bu sistemdə hər cür əxlaqi dəyər əhəmiyyətini itirmişdir. Bu cəhətdən baxdıqda indiki vaxtda vəhşiliklərə rəhbərlik edən liderlərlə Quranda izah edilən Firon və əsgərlərinin çox böyük bənzərliklər daşıdığı görülər. Allah onların cəhənnəmdə şiddətli bir əzabla qarşılaşacaqlarını bildirmişdir:

**Biz də onu və onun əsgərlərini tutub dənizə atdıq. Bax gör zalımların aqibəti necə oldu. Biz onları oda çağıran rəhbərlər etdik. Qiyamət günü onlara kömək edilməyəcəkdir. (Qəsas surəsi, 41-42)**

# Vəhşiliyin mənşəyi

Edilən bütün qırğınların və insanların gözlərini qırpmadan bir-birlərini öldürmələrinin səbəbləri araşdırıldıqda, qarşımıza 19-cu və 20-ci əsrin düşüncə həyatını təsiri altına alan materialist yanaşma tərzi çıxar. Materializm yeganə həqiqi varlığın maddə olduğunu və maddədən başqa heç bir şeyin mövcud olmadığını qarşıya qoyan bir düşüncə sistemidir. Bu sistemə görə maddə əzəldən bəri vardır və sonsuza qədər də var olacaq. Buna görə də Allahın varlığı və mənəvi həyata aid bütün dəyərlər və gözəl əxlaq bu anlayışla rədd edilir. Yenə bu səhv anlayışa görə insan, həyatda qala bilmək üçün mövcuddur, heç kimə qarşı məsul deyildir və öz mənfəətlərini güdməlidir.

Materialist filosoflar tərəfindən müdafiə olunan təkamül nəzəriyyəsi isə bu səhv anlayışa çox əhəmiyyətli bir dayaq təşkil edir. Təkamül nəzəriyyəsi ilk ortaya atıldığı dövrdən bəri materialist dünya görüşünü dəstəkləməklə yanaşı, bir tərəfdən də xüsusilə insanlar arasında baş verən qırğınlara zəmin hazırlamışdır. Darvin, "həyat mübarizəsi" anlayışıyla həmişə zəif fərdlərin məğlub olacağını və güclülərin ayaqda qalacağını iddia etmişdir. Bu irqçi dünyagörüşü vaxt ərzində "Sosial darvinizm" adını almış və 19-cu əsrdəki irqçi düşüncələrə və vəhşi kapitalizmə dayaq təşkil etmişdir. Bu nizam içindəki zəif insanlar, yoxsullar, şikəstlər məhv edilməsi lazım olan, tam təkamül keçirə bilməmiş varlıqlar olaraq ifadə edilər. (Bkz. Darwin'in Türk Düşmanlığı, Harun Yahya)

Bu materialist yanaşma daxilində insan həyatı heç bir əhəmiyyət daşımaz. Xüsusilə də, zəif insanların qətl edilməsinə, məhv edilməsinə hər hansı bir mane də yoxdur. Yalnız bir torpaq parçası, fərdi ehtiraslar və ya təbii ehtiyatlar uğruna insanların öldürülmələrinin arxasında duran səbəb, məhz insan həyatının bu dərəcə dəyərsiz görülməsidir. Maddəni mütləq varlıq hesab edən, Allahın varlığını inkar edən insanlar, bu təlqin altında hər cür günahı işləyə bilir və insanları da bu zalımlığa təşviq edirlər.

Quran əxlaqında isə insan həyatı çox əhəmiyyətlidir. Quranda tək bir insanın həyatına qəsd etmək bütün insanları öldürməklə bir tutular:

**Buna görə də İsrail oğullarına yazıb buyurduq ki, kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, sanki bütün insanları öldürmüşdür. Kim də onu ölümdən xilas edərsə, sanki bütün insanları xilas etmiş hesab olunar. Elçilərimiz onlara aydın dəlillər gətirdilər. Onların çoxu isə bundan sonra da yer üzündə həddi aşdılar. (Maidə surəsi, 32)**

Yuxarıdakı ayədən də aydın olduğu kimi, Qurana tabe olan bir cəmiyyətdə insanlar haqsız yerə öldürülməz, evlərindən sürgün olunmaz, işgəncəyə məruz qalmaz, haqsızlığa məruz qalmazlar. Daha əvvəlki mövzularda da ifadə etdiyimiz kimi, Quran, insanlar arasında ədalətlə və gözəlliklə davranılmasını əmr edir. Bunun əksinə davranışlardan, zülmdən, mənfəətpərəstlikdən, başqalarının haqqına təcavüz etməkdən insanları çəkindirir. Yer

üzündəki zülmə və ədalətsizliyə razı olmadığını deyən kəslərin etməsi lazım olan da, Allahın varlığını, haqq-hesab gününü və Quran əxlaqını insanlara təbliğ etməkdir. Doğru olanın bu olduğunu bildiyi halda təbliğdən boyun qaçıran, gördüyü zülmlərə göz yuman bir insan isə Allahın əzabından qorxmalıdır. Çünki Allah insanları yer üzünə yerləşdirmiş və onların necə əməllər edəcəyini sınayacağını xəbər vermişdir:

**Sizdən əvvəlki nəsilləri də zülm etdiklərinə və elçiləri onlara açıq-aşkar dəlillər gətirdikləri halda onlara inanmadıqlarına görə məhv etdik. Biz günahkar adamları belə cəzalandırırıq. Sonra onların ardınca sizi yer üzündə xələflər etdik ki, görək necə davranacaqsınız. (Yunis surəsi, 13-14)**

## Müharibələrin səbəbləri

Dünyada baş verən müharibələrin səbəblərini araşdırmaq, bu vəhşiliyi nə qədər mənasız səbəblərlə başladıldığını başa düşmək üçün kifayətdir. Heç birinin minlərlə insanın həyatını itirməsinə, şikəst qalmasına dəyəcək bir səbəbi yoxdur. İllərlə davam edən, minlərlə adamın ölməsinə və yaralanmasına, minlərlə insanın evlərini tərk etmələrinə, ölkə iqtisadiyyatının çox böyük bir tənəzzülə uğramasına səbəb olan bu müharibələrin ən əhəmiyyətli səbəbi, müharibələri təşkil edənlərin təxribatçı xarakterləri və bir-birlərinin haqqına təcavüz etmələridir. Eqoist və mərhəmətsiz olan, mərhəmət, şəfqət yardımlaşma kimi hər cür insani duyğudan uzaq, fərdi ehtiraslarını və liderlik arzusunu təmin etmək arxasınca qaçan insanları ehtiva edən bu təxribatçı xarakter Quranda bu şəkildə təsvir edilir:

**O, dönüb getdikdə yer üzündə fitnə-fəsad törətməyə, əkinləri və nəsilləri məhv etməyə çalışar. Allah isə fitnə-fəsadı sevmir. Ona: “Allahdan qorx!” – deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona Cəhənnəm kifayət edər. Ora nə pis yataqdır! (Bəqərə surəsi, 205-206)**

Bir ölkə başqa bir ölkəyə aid olan torpaqlarda keçmişə aid haqq iddia edər, o ölkəyə edilən hücum və müharibələrin bir hissəsi bu yolla başlayar. Bir ovuc torpaq uğrunda başladılan bu müharibə iki ölkəni də inkişafdan geri qoyan ağrılı bir dövr halına gələr. Müharibə bir cür bitmək bilməz, iki tərəf də silahlanmaq üçün bütün maddi imkanlarını xərcləyər. Ölkələrin büdcələri sağlamlıq ya da təhsil əvəzinə silahlanmağa ayrılar və heç bir nəticə də əldə olunmaz. Bu qarşıdurmalardan mənfəət əldə edən qruplar, silah lobbiləri və böyük şirkətlər var. Zərər görən təbəqə isə çoxluq təşkil edən xalqdır. Nəticədə, ümumiyyətlə hər iki tərəf üçün də çox böyük bir itki baş verər. Çünki yer üzündə zorakılıq edən hər qövm müxtəlif çətinliklərlə qarşılaşar, dünyada rahatlıq içində yaşaya bilməz. Allah zülm edənlərə şiddətli bir əzabla müjdə verir:

**Məzəmmət olunmağa ancaq insanlara zülm edənlər və yer üzündə haqsız yerə azğınlıq edənlər layiqdirlər. Məhz onlar üçün ağrılı-acılı əzab vardır. (Şura surəsi, 42)**

Müharibələrin başqa bir səbəbi də yeraltı sərvətləri, təbii zənginliklər, mədənlər və ya sudur. Bəzi ölkələr özündə olmayıb, qonşularında olan bu sərvətlərə göz dikər və bir yolla əldə etmək üçün qarşıdurmalar yaratmağa çalışar. Yaxşı bir planlaşdırma, yüksək bir texnologiya ilə bu problemlərin öhdəsindən gəlmək mümkün olduğu halda, müharibəyə başlayıb, hamısının öz nəzarəti altında olmasını istəyər. Belə bir vəziyyətdə günahsız insanların, qadınların, uşaqların ölməsinə əhəmiyyət verməz. O ölkədə qarışıqlıq çıxarar, su kanallarını bombalayar, hər cür zülmü normal qarşılayar.

## Quran əxlaqının yaşanmamasının nəticələri

Allah, Nisa surəsində də bildirildiyi kimi ehtiyac içində olan insanlara kömək etmək mövzusunda inanan hər adama bir məsuliyyət yükləmişdir:

**Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!" – deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz? (Nisa surəsi, 75)**

Şübhəsiz ki, burada əvvəlcə insanlara Allah qorxusu və axirətdə hesab verəcəkləri xatırladılmalıdır. Bundan başqa edilən cəhdlərin isə qəti bir nəticə verməsi çətindir. Çünki ancaq Allah qorxusu olan bir insan zülmdən, haqsızlıqdan, insanları qətl etməkdən çəkinə bilər. Əks təqdirdə onun qarşısını alacaq bir güc olmaz, hər fürsət tapdıqda təkrar əvvəlki mövqeyinə geri qayıdar. Ancaq Quran əxlaqının üstünlüyünün, gözəlliyinin fərqinə varacaq olan insanlar davam etdirməkdə olduqları zülm dolu həyatdan imtina edə bilər və digər insanları da bundan çəkindirmək üçün çalışa bilərlər. Buna görə də bütün müsəlmanlara bu insanlara dini təbliğ etmək məsuliyyəti düşür. Dinin gözəllikləri, insanlara qazandıracağı, verəcəyi zövq və etimad insanlara izah edilməlidir. Beləcə bu müharibələrin davam etməsi üçün bir səbəb qalmayacaq, hər cür problem sülh yolu ilə həll ediləcəkdir. Ancaq bunu da qeyd etmək lazımdır ki, bu sülh, Quranın çağırdığı əxlaqa yalnız müəyyən kəslərin cavab verməsiylə yaşanmaz. Dünyada tükənməz bir dincliyin təmin edilməsi yenə dünyada bu əxlaqın mənimsənməsiylə mümkün hala gələr. Əks təqdirdə yalnız müəyyən ərazilər Quranın təqdim etdiyi gözəlliklərdən faydalana bilər. Digər insanlar yenə iğtişaş, zülm, müharibə, yoxsulluq, əzilmişlik dolu bir həyat yaşayarlar.

## Kömək gözləyən ölkələrdə yüksələn səs

Allaha iman edən və Quran əxlaqını həyatının hər anında yaşayan insanlar üçün ətraflarında baş verən hər hadisədə çox böyük hikmətlər və işarələr var. Çünki Allah hər hadisəni bir səbəblə yaradır, insanları da bunlar qarşısındakı rəftar və münasibətləriylə sınayır. İnanan hər insanın boynuna düşən məsuliyyətlər vardır. Allahın varlığını və birliyini izah etmək, insanlara pis işləri qadağan etmək, yaxşılığı əmr etmək və Allahı inkar edən hər cür axına qarşı fikri bir mübarizə aparmaq. Beləcə dinin lazım olduğu kimi izah olunmasıyla güclü vicdana sahib, Allahdan qorxan birliklər meydana gələcək, dinin yaşanmamasından qaynaqlanan bütün problemlərin həlli öz özlüyündə ortaya çıxacaq. Allah, **"Fitnə aradan qalxana qədər və din ancaq Allaha məxsus edilənədək onlara qarşı vuruşun! Əgər son qoysalar, bilin ki, düşmənçilik ancaq zalımlara qarşı olur". (Bəqərə surəsi, 193)** ayəsiylə inananların boynuna düşən bu məsuliyyəti xatırladır. Əvvəlcə də ifadə etdiyimiz kimi, dövrümüzdə edilməli olan prioritetli mübarizə, dini inkar edən materialist fəlsəfə ilə aparılan fikri mübarizə olmalıdır. Əlbəttə ki, bu mübarizə Quranda təsvir edilən sülhsevər və razılığa gətirən yanaşma halında həyata keçirilir. Bunun nəticəsində, ideoloji zəminləri və əsaslandıqları fəlsəfələri məhv edilən bütün düşüncə sistemləri bir-bir aradan qalxacaq. Allah, **"Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir anda batilin yox olub getdiyini görərsiniz. Allaha aid etdiyiniz sifətlərə görə vay halınıza!". (Ənbiya surəsi, 18)** ayəsiylə bizlərə haqqın qarşısında batilin qətiyyən aradan qalxacağını bildirir.

Buna görə də dinin Quran əxlaqından uzaq yaşayan bütün insanlara izah edilməsi, insanların dinsizliyin nəticələrindən biri olan qaranlıq dünyadan çıxmağa təşviq edilmələri lazımdır. Kitabın sonrakı hissələrində də dünyada qarşıdurmaların baş verdiyi ölkələrdən bəhs edilməsinin səbəbi, bu mövzuda məlumatlandırmaq deyil. Çünki bu ölkələrlə əlaqədar olaraq yazılmış minlərlə kitab, on minlərlə dissertasiya tapmaq mümkündür. Burada bu mövzu üstündə durulmasının məqsədi, çıxış yolu gözləyən aciz qalmış insanlara kömək edilməsidir. İnananlara bu şərəfli vəzifəni yenidən xatırlatmaq, dünyada baş verən bütün qarşıdurmaları, zülmə məruz qalan insanları, qadınları, uşaqları, "aciz qalmış" xalqların vəziyyətini düşündürmək cəhətdən bu mövzu çox böyük əhəmiyyət daşıyır. Heç kim "bu müharibə mənim olduğum yerdən çox uzaq, mənim edə biləcəyim bir şey yoxdur" deyə düşünməməlidir. Yoxsa bir müharibə bitəcək, başqa bir müharibə başlayacaq və heç vaxt bir çıxış yolu tapıla bilməyəcək.

Çıxış yolu tapmaq adına trilyonlarla pul xərcləyərək təşkilatlar yaradıb, buralarda yüzlərlə adamı lazımsız yerə məşğul etməyin məsələnin həlli olmadığını hər kəs çox yaxşı bilir. Çünki bu tip bəzi təşkilatların bu ana qədər nə qədər çıxış yolu tapdıqları, nə qədər insanın həyatını xilas etdikləri ortadadır. Bu gün hər kəs çox yaxşı bilməlidir ki, Kosovada, Bosniyada, Kəşmirdə, Fələstində zülmə məruz qalan və "birköməkçi" gözləyən bu kəslər üçün yeganə həll Quran əxlaqının yaşanmasıdır.

# Çeçenistanda baş verənlər

2000-ci illərə girmək üzrə olduğumuz bu günlərdə dünya ictimaiyyətində olan mövzulardan biri, illərdir ki, davam edən Çeçenistan-Rusiya müharibəsidir. Xüsusilə də, Rusiyanın, vətəndaşları bombalamaları, qadınlara, uşaqlara və silahsız xalqa hücumlar etmələri məsələni daha da əhəmiyyətli bir hala gətirir. Bazarlara, xəstəxanalara, doğum evlərinə atılan bombalar, qadınları, uşaqları, yaşlıları ən müdafiəsiz olduqları vəziyyətdə tutur və hər şey bütün dünyanın gözləri qabağında reallaşır. Yalnız bir doğum evindəki bombalamada on beş körpə həyatını itirmişdir. Müharibədən qaçıb, sərhəddi keçməyə çalışan günahsız xalqa qarşı əsgərlərinə "vur" səlahiyyəti verən, hətta köç edən qrupları belə bombalayan rus rəhbərliyinin laqeyd rəftarı isə bu vəhşiliyi daha aydın bir şəkildə ifadə edir.

Günahsız xalqa tətbiq olunan qırğının bir nümunəsinə Quranda təsvir edilən Fironun yaşadığı dövrdə də rast gələrik:

**Talut qoşunla birlikdə döyüşə yola düşdükdə əsgərlərinə dedi: "Allah sizi bir çayla imtahan edəcək. Kim ondan içsə, məndən deyildir. Bir ovuc götürən istisna olmaqla, kim ondan dadmasa, o, məndəndir". Onların az bir qismi istisna olmaqla hamısı ondan su içdilər. Talut onunla olan möminlərlə birlikdə çayı keçdikdən sonra bəziləri dedilər: "Bu gün bizim Caluta və onun qoşununa gücümüz çatmayacaq". Allahla qarşılaşacaqlarını yəqin bilənlər isə dedilər: "Neçə-neçə az saylı dəstələr Allahın izni ilə çox saylı dəstələrə qalib gəlmişdir!" Allah səbir edənlərlədir. (Bəqərə surəsi, 49)**

Quranda da diqqət çəkildiyi kimi müdafiəsiz xalq, hər dövrdə Firon xarakterindəki bu kəslər tərəfindən ilk hədəf olaraq seçilir. Müdafiəsiz xalqı çox böyük təhlükə altında olan bu ölkənin tarixinə qısaca nəzər salmaq, yaşanan vəhşiliyi başa düşmək baxımından faydalı olacaq.

Çeçenistanı da əhatə edən Qafqaz 1918-ci ildən etibarən Sovet Rusiyasının hakimiyyəti altında idi. Bu dövrdə kommunist Moskva çox geniş bir ərazidə öz hakimiyyətini qurarkən, etnik qrupların sıx olaraq yaşadığı torpaqları da süni sərhədlərlə bir-birindən ayırmışdı. Hətta bəzi xalqların yerləri dəyişdirilərək, etnik ayrı-seçkilik daha da artırılmışdı. İkinci dünya müharibəsində kommunist rəhbərlik Qafqaz xalqlarını bir gecədə qatarlara mindirərək Sibirə və Orta Asiyaya sürgün etdi. Yüz minlərlə insan yollarda həyatını itirərkən, geridə qalan torpaqlara başqa xalqlar yerləşdirildi. Daha sonra yurdlarına qayıdan bu birliklər, evlərində başqa insanların yaşadıqlarını gördülər. Bu gün həmin ərazi daxilində baş verən anlaşılmazlıqlar, Moskvanın o dövrdəki "parçala və idarə et" siyasətinə əsaslanır.

Sovet İttifaqının dağılmasının sonra Rusiya daxilindəki etnik qruplardan bəziləri müstəqilliklərini elan etdilər. Bəziləri isə Rusiyanın tərkibində qalaraq, iqtisadi əlaqələr baxımından azadlıq əldə etdilər. İllərlə davam edən kommunist rus rəhbərliyi altında çox böyük təzyiqlərə məruz qalan 1 milyon əhaliyə sahib çeçenlər, Johar Dudayevin rəhbərliyi

altında müstəqillik müharibəsinə başladılar. Baş verən on səkkiz aylıq şiddətli müharibədən sonra çeçenlər 1996-cı ildə Rus ordularının çəkilməsiylə müstəqilliklərini elan etdilər. Lakin Çeçenistanın son statusu 2001-ci ildə Moskvayla Qroznı arasında yenidən görüş təşkil etməklə təxirə salındı. Qarşıdurmalar daha kiçik həcmli olsa da davam etdi.

Çeçenistanın müstəqillik mübarizəsi digər respublikaları da ayağa qalırdı. Şimali Qafqaz xalqları 1998-ci ildə Çeçenistanın paytaxtı Qroznıda Şimali Qafqaz xalqları Şurasını topladı. Görüşdə Şimali Qafqaz xalqları arasında qarşıdurma çıxmaması məsələsində fikir birliyinə nail olundu. 1999-cu ildə baş verən qarşıdurmaların mənşəyi məhz bu yığıncaqda alınan qərarlarla əlaqədar idi. Ruslar Dağıstanda bəzi kəndləri əhatə edərək bombardman etməyə başladı. Cəmi 1500 nəfərlik əhalisi olan bu kəndlər Çeçenistandan kömək istədilər. Çeçen qazisi Şamil Basayev 1999-cu ilin yay aylarında rusların zülmündən xilas olmaq üçün özlərindən kömək istəyən Dağıstan xalqına kömək etməyə başladı. Bombardman altında qalan kəndlərdən yalnız iki adam xilas oldu və Rusiya ilə Çeçenistan arasındakı yeni müharibə bu yolla başladı.

Dağıstan, əhalisinin 80%-i müsəlman olan, Çeçenistana qonşu bir Qafqaz ölkəsidir. Dağıstanın Çeçenistandan kömək istəməsinin səbəbi isə Çeçenlərin 1996-cı ildə Ruslarla mübarizədə qazandıqları böyük uğur idi.

Rusiyanın Çeçenistan məsələsində bu qədər təcavüzkar bir yanaşma göstərməsinin ardında çox müxtəlif mənfəətlər durur.

Lakin müharibələrdə səbəb hər nə olursa-olsun ən böyük zülmə məruz qalan, ən çox itkin verən həmişə qadınlar, uşaqlar və aciz qalanlar olur. Yoxsulluqla, aclıqla, xəstəliklərlə, susuzluqla üzləşən və bütün bu yoxsulluqların içində həyatını davam etdirməyə çalışan həmişə onlardır. Rusların əvvəldən bəri istədiyi çeçenlərin miqrasiyasını təmin etmək, xalqları assimilyasiya etmək və Çeçenistana müxtəlif millətlərdən olan insanların məskunlaşdırılmasını təmin etməkdir. Bu məqsədlə minlərlə günahsız insanın qətlə yetirilməsi isə normal qarşılanır, üstəlik dünya ölkələrinin gözü qarşısında həyata keçirilən bu qırğına aydın şəkildə göz yumulur.

## Kəşmirdəki müdafiəsiz xalq

Kəşmir, Hindistan və Pakistan arasında illərdir ki, davam edən və yenə minlərlə vətəndaşın həyatını itirdiyi bir müharibənin yaşandığı ərazidir. Ölkədə ingilis müstəmləkəçiliyi sona çatdıqdan sonra hindli müsəlmanlar hindistandan ayrılıb Pakistanı qurdular. Pakistanla Hindistan arasında əhali mübadiləsi baş verdi. Hindistan sərhədləri daxilində yaşayan çox sayda müsəlman Pakistana miqrasiya etdi. Ancaq əhalisinin əksəriyyəti müsəlmanlardan ibarət olan Kəşmir əyaləti, Hind rəhbərliyinin oyunları və ingilislərin dəstəyiylə Hindistanın hakimiyyəti altında qaldı. O tarixdən bəri Kəşmir çox böyük qırğınlara səhnə olmağa davam edir. Kəşmirlilər Pakistana qatılmaq istəyir və ümumiyyətlə müstəqillik qazanmağı tələb etmirlər. Lakin hindlilərin müsəlmanlara göstərdiyi təzyiq gün keçdikcə daha da artır. Hətta hindlilər Kəşmirli müsəlmanlara qarşı kimyəvi silahdan istifadə edirlər.

Kəşmirli müsəlmanlar keçmişdə hind rəhbərliyinə müqavimət göstərmək və müstəqillik əldə etmək istəmişdilər, buna görə də 1947, 1965, 1971-ci illərdə üç böyük qırğın həyata keçirildi. On minlərlə kəşmirli müsəlman öldürüldü, qadınlara təcavüz edildi, uşaqlar qətlə yetirildi. 1990-cı ildən bəri yenə eyni qırğın, soyqırım və assimilyasiya siyasəti davam edir. Beynəlxalq təşkilatların hesabatlarına görə yüzlərlə adam işgəncə əsnasında ölmüş, minlərlə adam şikəst qalmış, evlər qundaqlanmış, qəzetlər və islami təhsil verən məktəblər bağlanmışdı. İnsanlar hələ də mağaraya bənzər yerlərdə, çox çətin şərtlər altında həyatlarını davam etdirməyə çalışırlar.

Bir çox insan bəlkə də özündən kilometrlərlə uzaqda baş verən bu qırğınlar üçün “nə edə bilərəm ki” deyə düşünə bilər. Amma bu, olduqca qeyri-insani və Quran əxlaqından uzaq bir düşüncə tərzidir. Çünki kitabın əvvəlində də qeyd etdiyimiz kimi inananların boynuna düşən məsuliyyət ən yaxınlığındakı insanlardan başlayaraq dinin bütün dünyaya izah edilməsidir. Aşağıda Kəşmirdəki qaçqın düşərgələrini ziyarət edən bir jurnalistin təəssüratlarına yer verilir. Yalnız bu təsvirlər belə bir insanın vicdanına təsir etmək üçün kifayət qədər olmalıdır. Bəhs edilən jurnalistin yazısında, düşərgədəki həyat bu şəkildə təsvir edilmişdir:

Ambor qaçqın düşərgəsi 1990-cı ildə Camu Kəşmirdən qaçan Kəşmirlilər üçün salınmışdır. Həyat standartları normaldan xeyli aşağıdır. İnsanlar sanki torpaqdan tikilmiş kiçik evlərə komalaşmış vəziyyətdədir. Girdiyimiz tək otaqlı bir evdə tək bir yataq var idi. Neçə adam qaldığını soruşduqda aldığımız cavab “9 adam” oldu. Düşərgədə cəmi 1110 nəfərdən ibarət 214 ailə yaşayır. Həyat standartlarının çox aşağı olduğunu görmək üçün torpaqdan tikilmiş evlərdən birinə baxmaq belə kifayət edər. Evlər ümumiyyətlə iki otaqlı idi. Otaqlarda bir neçə ədəd istifadə olunan gil qab-qacaq var idi. Bir və ya iki ədəd yataq. Yataqlara yataq demək üçün min şahid lazım idi. Ana bir küncdə qucağında körpəsiylə bərabər oturmuş idi. Bəzən içərisində qaladığı üç-beş odun parçasının olduğu torpaq ocaqda qaynayan bir qazan, ətrafda isə qum və ya yaş yemək adına heç bir şey yox idi! Amma utandığımdan heç bir qazanın qapağını açmaq cəsarəti tapa bilmədim. Girdiyimiz bütün çadırlarda nə yeməyə, nə də yatmağa heç bir şey görmədik! Çadırların birində ortada bir yerdə kiçik köhnə bir bez parçası sərilmişdi. Aydındır ki, yataq olaraq istifadə edilirdi. “Bu çadırda neçə adam qalır?” deyə soruşduqda aldığım cavab “11 adam” oldu. Və çöldə yenə tək-tük qaynayan bir sac qazan!

## Kosovada həyata keçirilən etnik təmizlik

Kosovanın yerləşdiyi ərazi 1912-ci ildəki Balkan müharibəsinə qədər Osmanlı hakimiyyəti altındaydı və xalqının əksəriyyəti müsəlmanlardan ibarət idi. Osmanlı hakimiyyətinin sona çatmasından sonra da ərazidəki xalqlar bu mirası davam etdirmişdilər. Soyuq müharibə başa çatdıqdan sonra dünyada yeni bir dövr başladı. Xüsusilə də, Balkan yarmadasında rejim və siyasi dəyişikliklər baş verdi. Osmanlının mirasını davam etdirən zolaq da, bu dəyişmənin tam mərkəzində yerləşirdi. Bosniyada və Kosovada baş verənlər bunun bir

nəticəsidir. Öz dövründə bir “tarazlıq ünsürü” olan Osmanlı dövlətinin tarix səhnəsindən çəkilməsindən sonra yaranan boşluğu dünya müharibələri və yaradılan yeni dövlətlər doldurmadı və baş verən qarşıdurmalar bu boşluğun bir əlaməti oldu.

## Bosniyada üç il davam edən qeyri-insani qırğın

Bosniyada üç il ərzində müsəlmanlara qarşı həyata keçirilən vəhşilik, yer üzündə zülmə məruz qalan insanların vəziyyətini izah etmək üçün əhəmiyyətli bir nümunədir. Serblər 1992-ci ilin Aprelində başlatdıqları bu müharibə sayəsində müsəlmanları bir neçə həftədə yox edəcəklərini və ya mühacirət etməyə məcbur edəcəklərini hesablayırdılar. Amma Bosniyalı müsəlmanların təşkil etdiyi ordu çox qısa müddətdə toplandı və heç kimin ümid etmədiyi bir müqavimət göstərdi. Müharibə 1995-ci ilin yaz fəslinə qədər davam etdi. Və bu müharibə ərzində tarixdə bənzəri az olan bir vəhşilik baş verdi. Serblər tərəfindən öldürülən Bosniyalı müsəlmanların sayı 200 mini keçdi, 2 milyon insan evlərindən sürgün olundu, 50 minə yaxın müsəlman qadına təcavüz edildi, Serb toplama düşərgələrinə alınan müsəlmanlara inanılması çətin olan işgəncələr verildi, on minlərlə müsəlman şikəst oldu... İşin ən diqqət çəkən tərəfi isə bosniyalılarla, onlara bu vəhşiliyi tətbiq edən serblərin eyni irqdən olması və eyni dilə sahib olmasıdır. Tək fərq dindir. Digər bir sözlə Bosniyada və Kosovada baş verənlər tam mənasıyla bir dini ayrı-seçkilikdir. (Ayrıntılı bilgi için bkz. Gizli El Bosna'da, Harun Yahya, Vural Yayıncılık)

## Ən böyük müsəlman ölkədə islam əleyhdarı diktatorluq: İndoneziya

Uzaq Şərqli müsəlmanların yaşadığı çətin həyat da dünyanın digər müharibə vəziyyətində olan ölkələrindən heç fərqlənmir. İndoneziya dünyanın ən böyük müsəlman ölkəsidir. Bu ərazi Avropa qitəsi qədər geniş bir sahəyə yayılmış olan Uzaq Şərq arxipelaqlarından ibarət olub, 200 milyondan çox əhaliyə malikdir. Xalqın 87%-i müsəlman olan İndoneziyada 300-dən çox etnik qrup yaşayır və müsəlman qruplar çox böyük bir təzyiq görür.

Uzun müddət Hollandiyanın müstəmləkəsi olan İndoneziyada rəhbərlik ölkənin 7%-ni əmələ gətirən Yava əsillilərindədir. Hakimiyyətə gəldikdən sonra ölkədə mütləq bir hakimiyyət təmin etməyə çalışan Yavalılar, bunu bacara bilmək üçün ölkənin etnik tərkibinin olduqca mürəkkəb olmasına baxmayaraq, İndoneziya milliyyətçiliyi, digər bir sözlə Yava milliyyətçiliyi anlayışını ortaya atdılar. Bu milliyyətçilik tələbinə əsasən də 1953-cü ildə Açe Sumatra müsəlmanları müstəqil bir dövlət qurduqlarını elan etdilər. Bununla da rəhbərlik müsəlmanları vətən xaini elan etdi və qırğınlara başladı. Bu vaxt 1968-ci ildə başa ABŞ dəstəkli General Suharto keçdi və Beynəlxalq Amnistiya Təşkilatının verdiyi rəqəmlərə görə 1 milyona yaxın adam qətlə yetirildi.

1998-ci ildə 7-ci dəfə hakimiyyətə gətirilən Suharto rejimi rəhbərliyə öz yaxın adamlarını gətirdi. Bununla da repressiv rejimə və iqtisadiyyatda baş verən hər cür çətinliyə qarşı illərdir ki, həyatını davam etdirməyə çalışan xalq küçələrə axışdı. Ölkədəki bir çox

məhsulun qiymətinə yüz faizə çatan artımların edilməsi onsuz da çox böyük bir yoxsulluqla mübarizə aparan xalq üçün stəkanı daşıran son damcı oldu və paytaxt Cakarta müharibə meydanına çevrildi. Hərbi rəhbərlik silahdan istifadə edərək bu qiyamı yatırmağa çalışdı və yenə minlərlə günahsız insanı qətlə yetirdi. Ancaq hadisələr bitmək bilmirdi. Halbuki xalqın istədiyi tək şey daha yaxşı imkanlar altında yaşamaq, təzyiq və zülmdən xilas olmaq idi.

Suhartonun istefası da sabitliyin yaranması üçün kifayət etmədi. Bundan sonra bir çox hakimiyyət dəyişikliyinə baxmayaraq, İndoneziyadakı qarşıdurmalar bir cür dayanmaq bilmədi.

Bu tip ədalətsiz bir mühitin, zülmün, qarışıqlığın qarşısının alınmasının yeganə yolu kitabın əvvəlindən bəri ifadə etdiyimiz kimi Quran əxlaqının yaşanmasıdır. Çünki Quran əxlaqının yaşanması, fikir ayrılıqları, maddi bərabərsizlik, ədalətsizlik, şiddət kimi hadisələri aradan qaldırar. Bu tərz hadisələrin yaşanmadığı cəmiyyətlərdə də zülm mühiti meydana gəlməz.

## Dünyayla bütün əlaqələri kəsilən bir müsəlman birliyi: Şərqi Türkistanda yaşayan uyğur türkləri

Şərqi Türkistan, bəlkə də bir çox adamın adını belə eşitmədiyi ya da yerini belə bilmədiyi bir ölkədir. Türkiyənin iki misli qədər sahəyə sahib olan bu ərazidə dinini yaşamaq istəyən müsəlman xalqın kommunist Çin rejimindən çəkdiklərindən isə insanların xəbəri belə yoxdur. Torpaqlarına giriş və çıxışın qadağan olunduğu bu müsəlman türk birliyin başqa bir adı Uyğur, Çinlilərə görə isə Sincan əyalətidir. Konkret bir məlumat əldə etməyin qeyri-mümkün olmasına baxmayaraq, əlaqədar dərnək və təşkilatların ehtimallarına görə Şərqi Türkistanda bu gün 20 ilə 30 milyon arasında uyğur yaşayır.

Şərq Türkistanı Çin nöqteyi-nəzərdən bu qədər dəyərli edən təbii ehtiyatlarıdır. Əkinçilik sahələrində aparılan yeni tədqiqat işləri nəticəsində hər gün yeni neft yataqları kəşf edilir. Çin rəsmi mənbələrinin verdiyi məlumata əsasən bu ərazidə 20 ilə 40 milyard ton arasında neft ehtiyatı var. Bəzi qərb neft şirkətləri də bu potensialın Səudiyyə Ərəbistanının neft ehtiyatlarına bərabər dəyərdə olduğunu iddia edirlər.

Şərqi Türkistan təxminən 250 ildir ki, Çinin hakimiyyəti altında yaşayır. Müstəqillik üçün göstərdikləri bütün səylər güclə basdırıldı. Çinlilər bir islam torpağı olan Şərqi Türküstanı öz torpaqları kimi təqdim etdilər. 1949-cu ildə Maonun rəhbərliyi altında kommunistlərin Çin rəhbərliyini ələ keçirməsindən sonra Şərqi Türküstandakı müsəlman xalqlar üzərindəki təzyiqlər daha da artdı. Assimilyasiya olmağı rədd edən müsəlman xalqlar vəhşicəsinə qətlə yetirildi, bütün hüquqları əllərindən alındı. 1949-cu ildən dövrümüzə qədər təxminən 35 milyon adam öldürüldü. Xalqın sağ qalan hissəsi isə çox böyük işgəncə və əziyyətlərə məruz qaldı. İnsanlar diri-diri torpağa basdırıldı, qadınlara təcavüz edildi... 1953-cü ildə ərazidə 75% müsəlmana qarşılıq 6% çinli olduğu halda, bu rəqəm 1990-cı ildə 40% müsəlmana qarşılıq 53% çinli olmuşdur. Bu rəqəm baş verən soyqırımın çox əhəmiyyətli bir əlamətidir.

Bu ərazidə baş verənlərin Kosovada ya da Bosniyada həyata keçirilənlərdən tək fərqi isə dünya ilə əlaqələri tamamilə kəsildiyi üçün məlumat almağın çox çətin olması idi. Çin, internetdəki məlumat mübadiləsini belə çox yaxşı şəkildə nəzarəti altında saxlamış, yəni bu ölkədə baş verənlərin eşidilməməsi üçün çox böyük bir səy göstərmişdi. Dünyadakı bir çox ölkə isə buradakı günahsız, müdafiəsiz xalqın yaşadıqlarını görməzlikdən gəlmiş və Çinin bir daxili problemi olaraq təsvir etmişdir. Bir sözlə, Şərqi Türküstanda həyata keçirilən soyqırım, kommunizm və dinsizliyin yaşandığı Çin kimi ölkələrdə insan həyatının nə qədər "ucuz" hesab olunduğunun çox aydın bir göstəricisidir. Öz mədəniyyətindən fərqli xüsusiyyətlərə sahib olan insanları məhv etmək, obyekt kimi istifadə edərək üzərlərində təcrübələr aparmaq, ən insafsız işgəncələri tətbiq etmək, bu xarakterdəki insanlar üçün çox normal qarşılanır.

## Vahələrlə əhatələnmiş kasıb bir ölkə: Çad

Çad müstəqilliyini qazandıqdan sonra, ölkənin əksəriyyətini müsəlmanların təşkil etməsinə baxmayaraq, köhnə müstəmləkəçilərlə güclü əlaqələri olan xristianlar hakimiyyətə gətirilmişdi. Nazirliklər də səkkiz xristian, səkkiz müsəlman olmaqla iki yerə bölünmüşdü. Halbuki ölkədə 2 milyon müsəlman, 800.000-ə qədər də xristian yaşayırdı.

Ölkə daxilindəki ilk qarşıdurmalar xristian rəhbərliyin İsraillə diplomatik əlaqə qurmasıyla başladı. Çünki müsəlman çadlılar Fələstin hadisəsinə görə bu mövzuda çox həssasdılar. İsraillə qurulan əlaqəni fələstinlilərin haqlı iddiasına zidd olaraq edilən bir rəftar kimi düşünürdülər. Hakimiyyətdəki müsəlman heyətin İsrailə qarşı öz mövqeyini bildirməsi, bir səhər bütün müsəlman nazirlərin vəzifədən çıxarılmasıyla nəticələndi. Bir çox adam həbs olundu, sürgün edildi, malları müsadirə olundu. Bu hadisələrdən sonra müsəlmanlara yönəlmiş çox böyük bir təzyiq dövrü başladı. Bu da 1000 adamın ölümünə və minlərlə adamın yaralanmasına gətirib çıxaran uğursuz bir xalq qiyamına səbəb oldu.

## Filippin

Filippin əsrin əvvəlində Amerikanın hakimiyyəti altında olan bir ərazi idi. 1946-cı ildə Amerika Filippinlərə müstəqillik verdi. Amerikalıların geri çəkilməsindən sonra adaya Amerikan məktəbi olan Filipinolar hakim oldular. Beləcə adadakı müsəlmanlar Filipinoların hakimiyyəti altına girmiş olurdu. Filipinolar ölkədəki hakimiyyətlərini gücləndirməyə və xüsusilə də müsəlmanların torpaqlarını əllərindən almağa yönəlmiş bir siyasət aparmağa başladılar. Verilən bir qanunla bir müsəlmana bir Filipinoya verilənin üçdə biri qədər torpaq verilirdi. Bunun nəticəsində 10 il ərzində 3,5 milyon Filipino immiqrantı müsəlmanların torpaqlarında yerləşdi. Bununla da müsəlmanlarla Filipinolar arasında qarşıdurmalar başladı. Öz hüquqlarını qorumaq istəyən müsəlmanlar prezident Ferdinand Marcos ilə razılığa gələ bilmədilər. Marcos rəhbərliyi isə müsəlmanları tamamilə yox etmək üçün geniş miqyaslı bir əməliyyat başlatdı.

Marcos özünü Silahlı Qüvvələrin Komandiri və Başçısı elan etdi, konstitusiyanı təxirə salıb, hərbi vəziyyət elan etdi.

Moro Milli Qurtuluş Cəbhəsi (MNLF) ilə rəhbərlik arasında çox qanlı vuruşmalar baş verdi. 50 mindən çox müsəlman həyatını itirdi. Bunların çoxu mülkü şəxslər idi. On minlərlə qadın, uşaq və yaşlı öldürüldü. Müsəlmanları yox etmək üçün xüsusi təlim keçmiş terror qrupları yaradıldı. Öldürdükləri insanların beyinlərini parçalayıb, qanlarını içən bu vəhşi partizanlar öldürdükləri hər adamda xüsusi işgəncə üsulları tətbiq edirdilər. İşgəncələrlə öldürülən bu kəslərin hər cür varidatları da qarət edilirdi.

Marcosdan sonra hakimiyyətə gələn digər rəhbərliklərin vaxtında da bu vəhşi münasibət heç bir şəkildə dəyişikliyə uğramamışdır və etnik soyqırım eyni sürətlə davam edir.

## Livan

Dünyadakı müsəlman ölkələr illərdir ki, çox böyük qarşıdurmalara, müharibələrə səhnə olur. Lakin bunların içində ən uzun müddət davam edən, Fələstin xalqının radikal sionist liderlər tərəfindən başladılan işğala qarşı apardıqları mübarizədir.

Bu məntiqə sahib liderlərin başqa dövlətlərin də dəstəyiylə başlatdığı bu işğal, illərlə davam edən planlı bir işğal olub, arxasında yüz minlərlə ölü, qaçqın və qanlı bir tarix qoymuşdur. Bu işğal müddətində çox böyük qarşıdurmalarla, müharibələrlə, qırğınlarla üz-üzə gələn Livanda baş verənlər isə günahsız xalqın çəkdiklərinin yalnız bir qismini əks etdirir.

İsrailin yaxın qonşusu olan Livan, 1950-ci illərdən sonra tez-tez radikal sionist liderlər tərəfindən idarə olunan İsrail qüvvələrinin müdaxiləsi altında qalmışdır. Bu liderlərin dəstəklədiyi və şüurlu olaraq yaratdığı daxili qarşıdurmalar nəticəsində çox böyük bir parçalanma prosesinə daxil olan Livan, vaxt ərzində hər cür işğala açıq vəziyyətə gəlmişdir. Livanda yaşayan pravoslavları, katolik maroniləri, şiələri, dürziləri, sünniləri təhrik edən bu radikal sionist liderlər böl-idarə et siyasətinin nəticələrini yavaş-yavaş almış, ölkədəki bu kimi qrupları bir-birinə salmışdır.

28 il qədər davam edən bu işğal planı, 1982-ci ildəki işğala qədər davam etmişdir. Vətəndaş müharibəsi Livanda hər etnik azlığın özünə aid kiçik ərazilərdə sıxlaşıb qalması ilə nəticələndi. Burada maraqlı olan hər etnik azlığın radikal sionist liderlərdən dəstək alması, yenə onlardan silah alması idi. Xüsusilə də daha sonra hakimiyyəti ələ keçirəcək olan falangistlər bu təbəqəylə çox yaxşı bir dostluq əlaqələrinə malik idi.

Livandakı vətəndaş müharibəsinin zahiri səbəbi Kral Hüseyn tərəfindən İordaniyadan çıxarılan fələstinlilərin Livana yerləşdirilməsiydi. Radikal sionist liderlər tərəfindən Livandakı fələstinlilərin çıxarılmasının vacib olduğuna inandırılan xristianlar, onları qovmaq üçün şiddətli bir mübarizəyə girişdilər. Bu qarşıdurma əsnasında mübarizə aparanlar xristianlarla müsəlmanlar kimi görünsə də onlar da öz aralarında qruplara ayrılmışdılar. Bu daxili hesablaşmalar əsnasında radikal sionistlər tərəfindən idarə olunan İsrail də vaxtaşırı Livan

sərhədlərinə təcavüz etməyə başladı. Bu vaxt qatı bir müsəlman görünüşü verən Suriyanın da ABŞ və İsrailin dəstəyiylə Livana hücum etməsi vəziyyəti daha da pisləşdirdi.

İsraildən dəstək alan falangistlərin hakimiyyətə gəlməsi ölkəni tamamilə al-qana qərq etdi. Ölkədəki fələstinlilər və müsəlman Livanlılar çox böyük təzyiqlər gördülər. 1978-ci ildə başlatdığı işğalı 1982-ci ildəki ikinci təşəbbüsüylə daha da gücləndirən İsrail, fələstinlilərin yaşadığı qaçqın düşərgələrində çox böyük soyqırımlar həyata keçirdi və Livanı tanınmaz hala gətirdi. Əl Hevlada, Səbrə və Şatillada vətəndaşlara qarşı aparılan bu vəhşi qırğınlarla qeyri-insani hallar müşahidə olundu.

## “Qəzəbli soy qoruyuculuğu”: İrqçilik

**Kafirlər öz qəlbində təkəbbürlüyə – cahilik lovğalığına qapıldıqları zaman Allah Öz Elçisinə və möminlərə mənəvi rahatlıq nazil etdi və onlara təqva sözünü vacib buyurdu. Onların buna daha çox haqqı var idi və ona layiq idilər. Allah hər şeyi bilir. (Fəth surəsi, 26)**

Dünyada baş verən bir çox regional müharibənin, vətəndaş müharibələrinin ya da qarşıdurmaların altında fərqli irqlər arasında davam edən düşməncəsinə hisslər durur. Bir çox ölkədə hələ də davam edən ağ irqin qara irqə qarşı təcavüzkar münasibəti, yaxın tarixlərdə milyonlarla insanın ölümü ilə nəticələnən nasist mənşəli ari irq fikrində ya da Afrikadakı ölkələrdə müşahidə olunan qəbilə qarşıdurmalarında qarşımıza çıxan, məhz bu “soy qoruyuculuğu”dur. Bu anlayışa görə bir irqin digərindən fiziki və ya zəka baxımından üstün olduğu, üstün olanın digərinə hörmət, sevgi, mərhəmət bəsləməsinin lazım olmadığı, hətta ikisinin bir yerdə olmasının belə səhv olacağı düşünülər. Halbuki bu, olduqca səhv və vəhşicəsinə bir yanaşmadır. Çünki bu anlayışa görə fərqli xalqların mövcud olmalarına ehtiyac yoxdur və bütün “fərqli olanlar” aradan götürülməlidirlər.

Quran əxlaqında isə fərqli xalqların və qəbilələrin yaradılmasının səbəbi insanların bir-birləriylə tanış olmaları olaraq bildirilir. Bu müxtəliflik Allahın yaradılışındakı bir gözəllikdir. Bir insanın daha uzun boylu, birinin isə qısa boylu olması, bir adamın bədəninin ağ digərinin sarı rəngdə olmasının heç bir əhəmiyyəti yoxdur. Bunlar Allahın təqdiridir və hər bir yaradılışda çox böyük gözəlliklər, hikmətlər və incəliklər qorunub saxlanmışdır. İnanan bir insan yeganə üstünlüyün təqva ilə, yəni Allah qorxusu, Allaha imandakı üstünlüklə olduğunu çox yaxşı bilir. Allah Hucurat surəsində bu həqiqəti bu şəkildə bildirir:

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır. (Hucurat surəsi, 13)**

Bir vəhşilik olaraq qarşımıza çıxan irqçi anlayışın elmi əsası üzərində dayanmaqda da fayda vardır. Çünki bu dayaq, dünyada hökm sürən bir çox səhv ideologiyalarla eynilik təşkil edir. Materializm, kommunizm və vəhşi kapitalizm də eynilə guya elmi dayağa əsaslanır və onunla güc qazanır. Məhz, bu dırnaq arası elmi dayaq Darvinin təkamül nəzəriyyəsidir. Təkamül nəzəriyyəsinin adını ilk dəfə eşidənlər bunun yalnız biologiyanın diqqət mərkəzinə aid olduğunu və öz həyatları baxımından bir əhəmiyyət daşımadığını düşünə bilərlər. Lakin təkamül nəzəriyyəsi bioloji bir anlayış olmaqdan əlavə, tanınmış kütləleri öz təsiri altına almış bir çox səhv fəlsəfənin əsasını əmələ gətirər.

# İrqçiliyin "dırnaq arası" elmi dayağı

Darvin, nəzəriyyəsini ilk ortaya atdığı vaxt dövrün alimləri arasında məşhur bir nəzəriyyə deyildi. Xüsusilə də paleontoloqlar, onun bu iddiasının təxəyyül məhsulundan başqa bir şey olmadığının fərqində idilər. Ancaq buna baxmayaraq, Darvinin nəzəriyyəsi getdikcə özünə daha çox dəstək tapdı. Çünki Darvin, bu nəzəriyyə ilə, 19-cu əsrin hakim güclərinə əldə edilməyən bir təməl təmin etmiş olurdu.

Təkamül fikri, Darvinin *Növlərin Mənşəyi* adlı kitabıyla geniş şəkildə yayılarkən, avropalılar da digər qitə və mədəniyyətlərə yayılmağı davam etdirirdilər. Başda İngiltərə və Fransa olmaqla, Avropalı dövlətlər Cənubi Asiyanın əhəmiyyətli bir hissəsini, Afrikanın demək olar hamısını və Latın Amerikasının bir hissəsini öz müstləməkəçilikləri altına salmaqla məşğul olurdular. Şimali Amerikada isə qırmızıdərili qırğını davam edirdi. Bir sözlə 19-cu əsrin ikinci yarısında, Qərb mədəniyyətləri digər mədəniyyətləri qarət edirdi. Heç bir səlahiyyətə sahib olmadıqları halda bir ölkəni zorla ələ keçirir, sonra da bu ölkədəki insanlara təzyiq göstərir və ölkənin təbii ehtiyyatlarını ələ keçirirdilər. Ancaq Qərb, özünü etdiklərini qanuni bir hal kimi göstərə biləcək bir izah tapmaq məcburiyyətində hiss edirdi. Darvinizm bu məqamda imperialistlərə böyük bir fürsət təqdim etdi. Bu nəzəriyyəylə birlikdə istismar edilən xalqların "bir növ heyvan" olduqları düşüncəsinə "dırnaq arası" elmi dayaq göstərmək mümkün hala gəlmişdi.

Darvin, nəzəriyyəsinin insan haqqındakı fəslini, 1871-ci ildə nəşr olunan *insanın törəməsi* adlı kitabında izah etdi. Bu kitabda insanın meymunlarla eyni bir atadan gəldiklərini irəli sürürdü. Ancaq Darvinin maraqlı bir düşüncəsi daha vardı. Ona görə bəzi irqlər digər insanlara görə daha çox təkamülləşmiş və inkişaf etmişdi. Bəzi irqlər isə, demək olar ki, hələ meymunlarla eyni səviyyədə idi.

Darvinin nəzəriyyəsinin ikinci bir əhəmiyyətli istiqaməti də vardı. Darvin, canlıların və insanların inkişafını "həyat mübarizəsi" anlayışına əsaslandırırdı. Ona görə də, təbiətdə mərhəmətsiz bir həyat mübarizəsi, daimi bir qarşıdurma var idi. Güclülər həmişə zəiflərə qalib gəlir və inkişaf da bunun sayəsində mümkün olurdu.

Darvin, bu həyat mübarizəsi anlayışının insan irqləri arasında da keçərli olduğunu qarşıya qoydu. Növlərin Mənşəyi kitabına qoyduğu alt başlıq belə, onun insanlara irqçi bir baxımdan baxdığını göstərirdi: "Növlərin mənşəyi, təbii seleksiya və həyat mübarizəsində əlverişli irqlərin qorunması yoluyla".

Darvinə görə əlverişli irqlər, avropalılar idi. Qırmızıdərililər, afrikalılar və digər hər cür yerli xalq isə təkamül müddətində inkişaf cəhətdən geri qalmış irqləri əmələ gətirirdilər. Bu səhv anlayışa görə, insanların meymunları və ya digər heyvanları əhilləşdirmələri və onlardan istifadə etmələri necə qanunidirsə, bu inkişaf cəhətdən geri qalmış irqləri əhilləşdirmələri, onları kölə olaraq istifadə etmələri, torpaqlarını ələ keçirmələri, hətta öldürmələri də o qədər qanuniydi. Darvin kitabında bu irqlərlə əlaqədar belə deyirdi:

Bəlkə də əsrlər qədər davam etməyəcək yaxın bir gələcəkdə mədəni insan irqləri vəhşi irqləri yer üzündən tamamilə siləcək və onların yerinə keçəcək. Digər tərəfdən insanabənzər

meymunlar da, şübhəsiz ki, aradan götürüləcəklər. Beləcə insan ilə ən yaxın qohumları arasındakı boşluq daha da genişlənəcək.(12)

Bu ifadələrindən də aydın olduğu kimi, Darvin tam bir irqçi idi. Avropalıların, dünyanın digər irqlərindən üstün olduğunu və onları vaxt ərzində kölələşdirib yox edəcəklərini düşünürdü.

Darvinin irəli sürdüyü təkamül nəzəriyyəsinin cəmiyyətlərə tətbiq olunması ilə inkişaf edən bu nəzəriyyə, sosial darvinizm olaraq adlandırıldı və həm imperializmin ən böyük qanunilik səbəbi, həm də irqçiliyin ən böyük dayağı halına gəldi. Sosial darvinizmin ən böyük populyarlıq qazandığı ölkələrdən biri isə Almaniya oldu.

## Nasistlər və darvinizm

Neo-Nasistlərin Darvinin təkamül nəzəriyyəsindən ilham almaları bir təsadüf deyil. Çünki darvinizm, əvvəldən bəri nasist ideologiyasının ayrılmaz bir hissəsi olmuşdur.

Nasizm, 1-ci dünya müharibəsindən məğlubiyyətlə ayrılan Almaniyada yarandı. Nasist Partiyasının lideri, ehtiraslı və təcavüzkar bir şəxsiyyətə sahib olan Adolf Hitler idi. Hitlerin dünya görüşünün əsasını isə irqçilik təşkil edirdi. Hitler alman millətinin əsl ünsürünü əmələ gətirən Ari irqinin, digər bütün irqlərdən üstün olduğuna və onları idarə etməsinin lazım olduğuna inanmışdı. Ari irqin yaxın gələcəkdə min illik bir dünya imperiyası quracağını xəyal edirdi. Hitlerin bu irqçi nəzəriyyələrinə tapdığı elmi dayaq isə Darvinin təkamül nəzəriyyəsi idi.

Hitlerin fikirlərinə dəyər verən şəxslərdən biri isə, irqçi Alman tarixçi Henrix fon Treitcshke idi. Treitcshke, Darvinin təkamül nəzəriyyəsindən xeyli təsirlənmiş və irqçi fikirlərini də Darvinizmə əsaslandırmışdı. “Xalqlar ancaq Darvinin həyat mübarizəsinə bənzər güclü bir rəqabət aparmaqla inkişaf edə bilər” deyirdi. Treitcshkenin digər bir ifadəsi isə onun digər irqlərə olan münasibətini ifadə edirdi:

Sarı xalqlar incəsənət qabiliyyətlərindən və siyasi azadlıq anlayışından məhrumdurlar. Qara irqlərin vəzifələri isə ağlara xidmət etmək və sonsuza qədər ağların nifrətinə hədəf olmaqdır... (çünki) əlaltılar olmadan heç bir mədəniyyət mövcud ola bilməz ... (13)

Darvinizmin və nasizmin inkişafında böyük bir rolu olan, bu sosial darvinizmin faşist şərhi, Fridrix Nitsşenin Darvini mənimsəməsiylə ilk əhəmiyyətli addımlarından birini atmışdı. Nitsşe, insanların çoxunu “kölə əxlaqı”na sahib səfillər olaraq görür, ancaq aralarındakı az sayda bir qrupun “üstün-insan” olduğunu düşünürdü. Eyni ayrı-seçkilik irqlər arasında da vardı, irqlərin çoxu səfildi, ancaq biri “üstün irq” idi. Bu xüsusiyyətlərin meydana gələ bilməsi üçün də davamlı bir döyüş və mübarizənin vacibliyinə inanırdı. Döyüşün zəruri olaraq baş verən bir pislik kimi deyil, irqlərin və ya millətlərin inkişafını təmin edən bir yaxşılıq olaraq qəbul edilməsi, Nitsşedən sonra, hər cür irqçiliyin və milliyyətçiliyin də əsas inanclarından biri halına gələcəkdi. Nitsşenin aşağıdakı sözü də bu yanaşmanı çox aydın şəkildə ifadə edir:

Vicdandan, mərhəmətdən, bağışlamadan, insanların bu daxili zalımlıqlarından xilas olun, gücsüzlərə təzyiq göstərin, cəsədlərinin üstünə dırmaşın... (14)

Bu sözlərdən də aydın olur ki, dinsiz bir sistemin meydana gətirdiyi məntiq pozğunluqları sərhəd tanımır. Bu ifadələrdə, Allah qorxusu olmayan insanların zalımlıqda, insafsızlıqda, eqoizmdə bir sözlə hər cür şeytani xüsusiyyətdə nə qədər irəli gedə biləcəkləri görünür.

Hitler də nəzəriyyələrini inkişaf etdirərkən, Darvinin həyat mübarizəsi fikrindən ilham aldı. "Mübarizəm" adlı məşhur kitabının adını, bu həyat mübarizəsi fikrindən ilhamlanaraq müyyənləşdirmişdi. Hitler də, eyni Darvin kimi, Avropalı olmayan irqləri meymunlarla eyni mövqedə hesab edir və belə deyirdi:

Şimali Avropa almanlarını bəşəriyyət tarixindən çıxarsanız, geriyə meymun rəqsindən başqa bir şey qalmaz.(15)

Nasistlərin təkamülçü fikirlərinin əsasında, "yevgenika" anlayışı dururdu. Yevgenika, şikəst və xəstə insanların ayırd edilməsi və sağlam fərdlərin çoxaldılması yolu ilə bir insan irqinin "islah edilməsi" mənasını verirdi. Bu nəzəriyyəni ortaya atan kəslər də ehtimal edilə biləcəyi kimi darvinistlər, belə ki, Charles Darvinin oğlu Leornard Darvin və əmisi oğlu Francis Galton idi.

Yevgenikanı Almaniyada ilk mənimsəyən və yayan adam isə, məşhur təkamülçü bioloq Ernest Hekkel oldu. Hekkel, Darvinin yaxın bir dostuydu və ona həmişə fikirlər verirdi. Bunlardan biri də şikəst körpələrin vaxt itirilmədən öldürülməsi, beləcə təkamülünün sürətləndirilməsiydi. Hekkelin başqa bir fikri cüzam xəstələrinin, xərçəng xəstələrinin və ruhi xəstələrin ağrısız bir şəkildə öldürülmələrinin vacibliyi idi. Əgər bu insanlar öldürülməsələr cəmiyyətə yük olmaları qaçınılmaz idi.

Hitler hakimiyyətə gəldikdən sonra Hekkelin fikirlərini öz rəsmi siyasəti halına gətirdi. Ruhi xəstələr, şikəstlər, anadangəlmə korlar və irsi xəstəliklərə sahib olanlar, xüsusi mərkəzlərdə toplandılar. Bu səhv anlayışa görə, Alman irqinin xalisliyini və "guya" təkamülün inkişafını pozan bu kəslərə parazitlər kimi baxılırdı. Necə ki, bir müddət sonra cəmiyyətdən təcrid olunan bu insanlar, Hitlerdən gələn gizli bir təlimatla öldürülməyə başlandı.

2-ci Dünya müharibəsində məğlub olan nasist imperiyası, arxasında milyonlarla günahsız insanın qanını qoyaraq tarixə basdırıldı. Amma nasist ideologiyasına zəmin hazırlayan sosial darvinizm düşüncəsi, yaşamağa davam etdi.

Burada izah edilənlər bir çox insanın bildiyi mövzulardır. Ancaq tarixdə baş verən və dövrümüzə qədər öz təsirini davam etdirən bu hadisələrdən ibrət alan insanların sayı isə çox azdır. İnsanların yalnız müxtəlif bir irqə mənsub olduqları və ya fiziki bir qüsura sahib olduqları üçün vəhşicəsinə və mərhəmətsiz üsullarla qətlə yetirilməsi, bunu edən insanların sahib olduqları xəstə və azğın ruhun ən aydın dəlilidir. İnsanların xəstə və azğın bir ruha sahib olmalarının səbəbi isə dinsizlikdir. Dinsizlik olduğu müddətcə insanlardan hər cür anormallıq, mərhəmətsizlik, azğınlıq gözlənilməlidir. Belə insanların arxasınca gedən və qeyd-şərtsiz bu "xəstə" düşüncəli insanlara itaət edən milyonlarla insanın mövcud olması da dinsizliyin başqa bir göstəricisidir.

Allahdan qorxub çəkinən və bütün gücün Allaha aid olduğunu bilərək, Ona təvəkkül edən bir insan əsla belə zalımlıqlara və azğınlıqlara boyun əyməz. Digər insanları da bu cür

insanların boyunduruğundan xilas etmək, onlara doğru olanı göstərərək onları oyandırmaq üçün cəsarətli və təsirli bir səy göstərər. Məsələn? hz. Musa, Hitler və Mussolini ilə eyni irqçi və zalım diktator zehniyyətinə sahib olan Firona qarşı tək başına mübarizə aparmış və İsrail oğullarını onun zülmündən xilas etmişdir. Hz. Musaya bu gücü verən onun Allaha olan güclü imanı və bu imanın ona qazandırdığı üstün əxlaqı və vicdanıdır. Hz. Musanın Fironun qarşısına çıxdıqda dedikləri onun Allaha olan imanını və təslimiyyətini aydın şəkildə göstərir:

**Onlardan sonra Musanı möcüzələrimizlə Firon və onun əyanlarına elçi göndərdik. Onlar isə bunu inkar etdilər. Bir gör fəsad törədənlərin aqibəti necə oldu. Musa dedi: "Ey Firon! Həqiqətən, mən aləmlərin Rəbbi tərəfindən göndərilmiş bir elçiyəm. Mənim borcumdur ki, Allah barəsində yalnız həqiqəti deyim. Mən Rəbbinizdən sizə açıq-aydın dəlillər gətirmişəm. Elə isə İsrail oğullarını mənimlə göndər". (Əraf surəsi, 103-105)**

## "İrqçiliyin" Afrika qitəsinə gətirdiyi şiddət dolu illər

Neçə illərdən bəri Afrika qitəsinin adı həmişə qarşıdurmalar, müharibələr, aclıq və səfalətlə bir çəkilmişdir. Haqq dinin yaşanmamasından, batil fikirlərin ardınca gedilməsindən qaynaqlanan mənfəət qarşıdurmaları üzündən bölgədəki iğtişaşlar sona çatmır. Bu qitənin insanları, 1950-ci illərə qədər müstəmləkəçi ölkələrin hər cür zülmü və irqçi münasibətləriylə üz-üzə qalmışdılar. 1950-ci illərdə Afrikada yalnız 4 rəsmi müstəqil ölkə vardı. 1962-ci ildə isə bu göstərici otuza yüksəlmişdi. 1977-ci ildə isə bir neçə ölkədən başqa bütün qitə müstəqil idi. Ancaq bu müstəqillik yalnız görünüşdəydi, xüsusilə də xalq baxımından belə idi. Çünki keçmiş müstəmləkəçi rəhbərliklərin çıxıb getməsinə baxmayaraq, ölkənin idarəsi yenə də xalqın əlində deyildi. Bir çox Afrika ölkəsi olduqca avtoritar, repressiv və zalım diktatorların idarəçiliyi altına daxil olmuşdu. Bu diktatorların hamısı keçmiş müstəmləkəçi güclərə, yəni qərbli böyük dövlətlərə bağlı idilər. Buna görə də müstəqillik əldə etmək ölkələrə azadlıq gətirməmiş, əksinə hərbi repressiv rəhbərliklərlə üz-üzə gəlmişdi. Bununla da bu diktator rəhbərliklərə qarşı birləşən xalqlarla rəhbərliklər arasında döyüşlər başladı. Ancaq bu rəhbərliklər də bu vaxt boş durmur, xalqın içindəki etnik azlıqları qızışdıraraq onların arasında bir müharibə yaratmağı hədəfləyirdilər.

Zairdə iki qəbilə arasında baş verən müharibə, 20-ci əsrdə irqlər arasında baş verən qarşıdurmalara çox əhəmiyyətli bir nümunədir. 1997-ci ilin yaz aylarında 5 böyük ölkəni, Zair, Ruanda, Uqanda, Burundi və Tanzaniyanı əhatə edən bir bölgəyə təsir edən bu müharibə iki böyük qəbilə olan Hutu və Tutsi qəbilələri arasında baş verdi.

Çox böyük bir səfalətin yaşandığı bölgədə 1960-cı illərdə müstəqillik elan edilmiş, lakin ölkə müstəmləkəçi qərbli dövlətlərin boyunduruğundan bir cür xilas ola bilməmişdi. 1964-cü ildə Amerikanın dəstəyiylə hakimiyyətə gələn Polkovnik Cozef Mobutu isə ölkəsinin əlindəki

bütün mineral ehtiyatları qərbli ölkələrə xüsusilə də ABŞ-ın üzünə açdı. Ölkənin sosial sabitliyi üçün heç bir şey etməyən Mobutu illərlə öz sərvətini artırdı və diktator sistemiylə xalqın bütün tələblərini və yüksələn səslərini basdırdı. Ölkədəki inflyasiyanın 6000%-i keçdiyi bir dövrdə isə bölgəni əmələ gətirən iki qəbilə arasında çox böyük bir qarşıdurma başladı. Bu qəbilə müharibələri çox böyük bir soyqırıma da səhnə oldu. Bir milyona yaxın insan öldü. Köç edən on minlərlə insan meşələrdə aclıqla, səfalətlə, epidemik xəstəliklərlə mübarizə apardı və çox böyük bir hissəsi öldü. Vəhşicəsinə qırğınlar baş verdi. Belə ki, kiçik uşaqlar, körpələr belə başqa bir qəbilədən olduqları üçün öldürüldülər.

Etnik irqlər arasında baş verən müharibələr, yəni "soy qoruyuculuğu", bir çox ölkə daxilində vəhşi səhnələrin yaşanmasıyla nəticələndi. Allah Quranda dindən uzaq cahiliyyə insanlarının bu nifrət dolu soy qoruyuculuqlarına belə diqqət çəkmişdir:

**Kafirlər öz qəlbində təkəbbürlüyə – cahilik lovğalığına qapıldıqları zaman Allah Öz Elçisinə və möminlərə mənəvi rahatlıq nazil etdi və onlara təqva sözünü vacib buyurdu. Onların buna daha çox haqqı var idi və ona layiq idilər. Allah hər şeyi bilir. (Fəth surəsi, 26)**

İstər burada nümunələrini gördüyümüz Afrika ölkələrində, istərsə də dünyanın dörd hər bir yerində yaşanan irqçi cərəyanlar, məhz dinsizliyin bu qaranlıq üzünü ortaya çıxarır. Bu qaranlıq üzün yox edilməsi isə ancaq haqq dinin dünyada yaşanması və yaşadılması ilə mümkün ola bilər.

## Dinsiz cəmiyyətlərdə yaşanan zülm və iğtişaşlar

**Əgər Allah insanları hər etdikləri zülmə görə cəzalandırsaydı, yer üzündə heç bir canlını sağ qoymazdı. Lakin Allah onlara müəyyən vaxta qədər möhlət verir. Onların əcəlinin çatdığı an bircə saat belə nə yubanar, nə də tezləşə bilər. (Nəhl surəsi, 61)**

Əvvəlki hissələrdə araşdırdığımız kimi, dünyanın hər bir yerində, Kosovada, Kəşmirdə, Fələstində, Çeçenistanda və daha bir çox ölkədə müsəlmanlar fasiləsiz və amansız zülmlərə, böyük çətinliklərə məruz qalır. Edilən bu tətbiqlərin bir-birindən müstəqil şəkildə inkişaf etdiyini düşünmək çox səhv bir yanaşmadır. Bu qarşıdurmaların ölkələrin siyasi və coğrafi mövqelərindən qaynaqlandığını düşünmək isə çox məhdud bir dünyagörüşü olacaq. Çünki tarix boyu baş verən bütün müharibələr bizə göstərmişdir ki, harada olursa olsun edilən bu zülmlərin arxasında duranlar və bu döyüşlərdən mənfəət qazananlar vardır. Bütün bunlar müsəlmanlar tərəfindən görülməli, bilinməli və təsbit edilməlidir. Əks təqdirdə inkişaf edən hadisələr sadə və adi səbəblərə əsaslanar və heç kim bunlara bir çıxış yolu tapmaq üçün hər hansı bir təşəbbüs göstərməz.

Xüsusilə də 20-ci əsr bu zülmlərin ən yuxarı səviyyəyə qalxdığı bir əsr olmuşdur. Müharibələrin, zülmlərin arxasında duran cərəyanların içində başda gələn isə materialist fəlsəfəni müdafiə edən, dini, əxlaqı, ailə birliyini köklü surətdə rədd edən kommunizmdir. Kommunizmin tətbiq edildiyi ölkələrdə din olmadıqda nələr baş verəcəyini tarix, sənədləriylə bütün insanlara sübut etmişdir. Bu zorakı sistemi daha yaxşı başa düşə bilmək üçün sadəcə kommunist bir sistemi ölkəsində illərlə zorla tətbiq edən Rusiyanın tarixinə və bu bügünkü vəziyyətinə bir az göz gəzdirmək kifayətdir.

## Bütün proqramlarını dinsizlik əsasında quran kommunizmin tarixdə qoyduğu izlər

Dialektik materializmin yaradıcıları və kommunizmin baniləri olan Marks və Engels qatı bir ateistdirlər. Kainatdakı bütün inkişafların qarşıdurmalar sayəsində əldə edildiyini iddia etmişdilər. Bu düşüncəyə əsaslanaraq məqsədlərinə ancaq kommunist inqilab həyata keçirməklə çata biləcəkləri qənaətinə gəlmişdilər. Dinə qarşı çox böyük bir düşmənçilik bəsləyən bu iki ideoloq, fikirlərini həyata keçirə bilmək üçün ilk növbədə dinin aradan qaldırılmalı olduğunu müdafiə etmişdilər. Marks və Engelsin bu planlarına görə kommunist tədbirlər əvvəlcə Allah inancı və din maneəsi aradan qaldırılaraq başlaya biləcəkdi. Marks bəlkə də bu fikirlərini həyata keçirə bilməmişdi, ancaq onun ölümündən sonra bu inqilab layihəsini həyata keçirən adam Lenin olmuşdu.

Kommunist xadimlərlə birlikdə həyata keçirdiyi qanlı bir vətəndaş müharibəsindən sonra hakimiyyəti ələ keçirən Lenin, özündən sonra da necə qanlı bir siyasət aparılacağının da işarələrini vermişdi. Özünə və kommunist sistemə qarşı çıxan hər kəsi güllələmiş, ölkə daxilində baş verən vətəndaş müharibələri tam üç il davam etmiş, Rusiya tam bir xarabalığa çevrilmişdi. Lenin bu qanlı müharibənin sonunda dünyanın ilk totalitar tək partiya diktatorluğunu qurmuşdu.

Bu dövrdə Rusiya iqtisadi baxımdan tamamilə iflic bir vəziyyətə düşmüş, kasıb xalqdan zorla vergi alınır, aclıq və səfalət dərəcəsi getdikcə artırılırdı. İstehsal sahələri, fabriklər, müəssisələr milliləşdirilmiş və bu təşəbbüslərə də heç kim qarşı çıxmamışdı. Qarşı çıxanların aqibətinin necə olacağını hamı çox yaxşı bilirdi.

Tətbiq etdiyi siyasətlərlə yaxınlarının belə nifrətini qazanan Leninin 1924-cü ildəki ölümündən sonra Kommunist Partiyanın başına dünyanın ən qanlı diktatoru sayılan Stalin keçdi.

Stalin 30 il davam edən hakimiyyəti ərzində, sanki kommunizmin nə cür mərhəmətsiz bir sistem olduğunu sübut etməyə çalışırmış kimi vəzifəsini davam etdirdi. Qırğınların, cinayətlərin, işgəncələrin ardı arxası kəsilmirdi. Ölkəni “kommunizm layihəsini” həyata keçirmə adı altında aclıq və səfalətə məhkum etmək, zorakı rəhbərlik, kəndlilərin zorla işlədilməsi, dini yaşama hüquqlarının tamamilə əllərindən alınması, bütün bunların hamısı bu qanlı diktatorun dövründə sürətləndirilmişdi. Stalinin ilk vacib işi, Rusiya əhalisinin 80%-ni təşkil edən kəndlilərin torpaqlarını dövlət adı altında ələ keçirmək oldu. Xüsusi mülkiyyəti yox etməyə yönəlmiş bu siyasətin tələbinə uyğun, rus kəndlilərinin bütün məhsulu silahlı şəxslər tərəfindən toplandı. Bunun nəticəsində, çox şiddətli bir aclıq baş verdi. Yeməyə heç bir şey tapa bilməyən milyonlarla qadın, uşaq və yaşlı aclıqdan həyatını itirdi. Qazaxıstan əhalisinin 20 faizi aclıqdan öldü. Qafqazda ölənlərin sayı bir milyonu keçdi.

Stalin, bu siyasətinə müqavimət göstərməyə çalışan yüz minlərlə insanı isə, Sibirdəki iş düşərgələrinə göndərdi. Məhbusların çox ağır şərtlərdə ölənədək işlədildikləri bu düşərgələr, bu insanların çoxuna məzar olacaqdı. Digər tərəfdən on minlərlə insan, Stalinin gizli polisi tərəfindən edam edildi. Aralarında Krım ya da Türküstan türklərinin də olduğu milyonlarla insan, Rusiyanın uzaq bölgələrinə zorla sürgün edildi.

Stalinin bütün bu qanlı siyasəti nəticəsində təxminən 20 milyon insan qətlə yetirildi. Tarixçilərin bildirdiyinə görə, o bu vəhşilikdən xüsusi bir həzz alırdı. Kremldəki iş stolunun arxasında əyləşib, toplama düşərgələrində öldürülən ya da edam edilən insanların sayını göstərən siyahıları yoxlamaqdan böyük həzz alırdı.

Stalinin dövründə anarxiya və terror yalnız sistemi tənqid edənlər və ziyalılara zərər verməklə kifayətlənməmiş, kommunist xadimlərin hücumları elə şiddətlənmişdi ki, hər kəs özünü təhdid altında hiss edirdi. Xalq kütlələr halında “Qulaq” adı verilən toplama düşərgələrinə gətirilir və qətlə yetirilirdi. Stalin terror sayəsində ölkənin bütün əhalisi üzərində mütləq hakimiyyət sahibi oldu. 30 il hakimiyyətdə qalan Stalin öldükdən sonra geridə qalan, kasıb və yazıq bir xalq idi.

Rusiya nümunəsində də gördüyümüz kimi, dinsizliyin hakim olduğu cəmiyyətlərdə insanların dinclik və xoşbəxtlik tapması, gözəl bir həyat yaşaması qeyri-mümkündür. Çünki

dinsizlik insanları öz mənfəətləri üçün hər cür günahı işləməyə, hətta yeri gəldikdə həzz almaq üçün adam öldürməyə, insanlara, uşaqlara zülm etməyə sövq edər. Bugünkü rus cəmiyyətinə baxdıqda isə uzun illər yaşadıqları din əleyhdarı sistemin dağıdıcı təsirləri hələ də müşahidə olunur. Ciddi mənada degenerasiya olmuş, əxlaqi dəyərlərdən uzaqlaşmış insanlar mövcuddur. Məhz bu dağılmış sistemin bərpa edə bilməsi də ancaq İslam əxlaqının öyrədilməsi və bu yolla insanlara mənəvi dəyərlərin qazandırılmasıyla mümkün ola biləcək.

## Maonun ölkəsində illərdən bəri davam edən zülm

Stalin, kommunist inqilab layihəsini Rusiyada həyata keçirdi və beləliklə də özündən sonra geridə 20 milyon ölmüş insan qoyub getdi. Bundan sonra da başqa bir kommunist rejim də Çində quruldu.

Mao Che Tungun rəhbərliyindəki kommunistlər, uzun illər davam edən bir vətəndaş müharibəsi nəticəsində, 1949-cu ildə, hakimiyyətə gəldilər. Mao, 1949-cu ildən 1976-ci ilə qədər özünə böyük dəstək verən müttəfiqi Stalin kimi, zalım və qanlı bir rejim qurdu. Maocu dövr olaraq məlum olan bu müddətdə Çin, çoxsaylı siyasi edama səhnə oldu. Ordunu, kommunist partiya tərəfindən qurulan qadın və kişilərdən ibarət olan kommunist birliklər meydana gətirirdi. Sonrakı illərdə Maonun “Qırmızı Keşikçilər” deyə adlandırdığı gənc xadimlər, ölkəni tam bir terror mühitinə apardı.

“Sosialist dəyişmə və bərabərlik hüquqları” adı altında daha əvvəl Rusiyada tətbiq olunan iqtisadi rəzalətin bir surəti Çində də yaşanmağa başlandı. Hekayə yenə eyni idi. “Sinfi mübarizə” adı altında xalqın bütün hüquqları əllərindən alınır və malları dövlətin xeyrinə müsadirə olunurdu. Məhz Çində də, özlərini yoxsulların sığınacağı və xalqın xilaskarı olaraq göstərən kommunist diktator rəhbərliyi, Rusiya nümunəsində olduğu kimi xalqın torpaqlarını, heyvanlarını, məhsullarını və bütün mülklərini ələ keçirdi.

Bütün bunların “sosialist dəyişmə”nin tələbi olduğunu deyib, hər şeyi dövlət mülkiyyətinə keçirdilər. “İctimai ədalət”ləri hakimiyyətdəkiləri və tərəfdarlarını ayaqda tutmağa və varlandırmağa yönələrkən, “hüquqlarının müdafiə olunduğu” iddia edilən xalq isə aclıqdan ölürdü. Ölkədə iqtisadi problemlər get-gedə böyüdü və problemlərin həll edilməsi üçün radikal islahatlar həyata keçirildi. Sınaqdan keçirilən hər islahat ictimai problemi daha da artırdı. Hər müvəffəqiyyətsizliyin nəticəsində yüz minlərlə hətta milyonlarla insan öldü. Sahəsi olduqca geniş olan ölkədə Mao öz xalqına və xüsusilə də etnik azlıqlara qarşı böyük bir soyqırım həyata keçirdi.

Hər cür səlahiyyəti öz əlində saxlayan kommunist partiya iyerarxiyası və diktator lider Mao, ölkəni tamamilə içə bağlayaraq, kütləvi informasiya və rabitə azadlığını öz əlinə keçirdi. Ən kiçik bir tənqid və ya hökumətin apardığı siyasətə qarşı həyata keçirilən şifahi bir etiraz nümayişinin qarşılığı isə edam oldu. Etnik azlıqların mədəniyyətini, tarixini, dil zənginliyini izah edən və yazan yazıçılar, rəssamlar və alimlər bu qanlı diktator tərəfindən kütləvi halda məhv edildilər. Hələ də kommunist Çində baş verən hadisələri BMT daxilindəki heç bir təşkilat və partiya doğru və əskiksiz bir şəkildə öyrənə bilmir. Bu mövzudakı ən əhəmiyyətli nümunə

əvvəlki hissələrdə bəhs etdiyimiz Şərqi Türküstandakı uyğur türklərinə qarşı həyata keçirilən soyqırımdır.

Dini inancların yox edilməsi hər kommunist rejimin əsas hədəfidir. Bunun üçün sistemli bir təzyiq və təbliğat üsulu tətbiq olunur. Dini inancların yerini ilahlaşdırılmış liderlərin yaratdıqları fəlsəfələr alır. Məhz Uzaq Şərqin ən əhəmiyyətli islam əleyhdarı güclərindən biri olan Çində də Mao dövründən etibarən insanlar din və vicdan azadlıqlarından məhrum oldular. Din xadimləri qorxunc işgəncələrə məruz qaldılar, məscidlər və ibadətgahlar bağlanıldı. Materialist sistemin qarşısında ən böyük və yıxılmaz mane olaraq duran dinin izah edilməsi qadağan edildi.

Hər yerdə izah edilən və danışılan yeganə şey totalitar və zülmkar liderin yanılmazlığı və üstünlükləri oldu. Məktəblərdə şagirdlərə Maonun azğın fəlsəfəsini izah edən "Qırmızı kitab" oxuduldu. Əxlaq anlayışını insanın inkişafında ən zərərli şey kimi görən materialist fəlsəfə gənclərə və uşaqlara təlqin olundu. Kommunist sistemin mənfəəti üçün hər cür əxlaqsızlığın edilə biləcəyi, hətta anası belə olsa şəxsi mənfəət üçün cinayət işləyə biləcəyi öyrədildi.

Kommunist ideologiya ailə anlayışını da ölkəyə ümumi mənada zərər verən bir şey kimi görmüşdür. Bu da Çində milyonlarla ailənin dağılmasıyla nəticələnmişdir. Guya dövlət iqtisadiyyatının ehtiyacları ön planda olduğu üçün ailələr bölünmüş, uşaqlar körpələr evində böyüdülmüş və ailələr ildə ancaq bir dəfə bir yerə toplanmışdırlar.

Əslində bütün bunlar hər insan üçün əhəmiyyətli ibrətlər daşıyır. Çünki bu gün dünyanın dörd hər bir yerində hələ də kommunizmin yayılması üçün səylər həyata keçirilir. Kommunizmin yarandığı bir ölkənin düçar olacağı aqibət isə Rusiyadan və ya Çindən fərqli olmayacaq. Bir milləti qırğınların, zülmlərin, aclığın və anti humanistliyin hakim olduğu bu sistemdən qorumağın tək yolu isə, xüsusilə də gənclərin din mövzusunda məlumatlandırılmalarıdır. Həqiqi dini bilməyən və buna görə də dinin gətirdiyi əxlaqdan məhrum olan dinsiz insanlar kommunizmi asanlıqla mənimsəyə bilər. Buna görə də, materialistlər dini qarşılarındakı ən əhəmiyyətli və təsirli güc olaraq görürlər. Xurafatlardan təmizlənmiş həqiqi dinin izah olunmasıyla yanaşı, kommunizmin fundamental fəlsəfəsinin səhvləri və necə səhv bir təməl üzərinə qurulduğunun dəlilləriylə birlikdə izah olunması da bir milləti belə bir fəlakətdən qoruyacaq tədbirlər arasındadır.

"Həqiqi qurtuluşa aparacaq yeganə yol" yalanıyla hərəkət edən kommunist rejim, "fasilə vermədən və dayanmadan kommunizmə çatmaq" hədəfi üçün qeyri-insani işgəncələr verildi, xalqı amansızcasına zülmə məruz qoydu. Etnik cəmiyyətlərə, xüsusilə də Çinin sərhədləri daxilində yaşayan müsəlman azlıqlara qarşı hələ də davam edən işgəncələr, Beynəlxalq Amnistiya Təşkilatı tərəfindən araşdırılır və məlumatlar toplanır. Həbs olunanlar özlərini müdafiə edə bilmir, əsgərlər tərəfindən başlarını həmişə əyilmiş vəziyyətdə saxlamağa məcbur edilirlər. Müsəlmanları kütləvi cəzalandırma paradları və məhbusları edamdan əvvəl paraddan keçirmək kimi zalımcasına və qeyri-insani tədbirlər həyata keçirilir.

# Din əleyhdarı kommunist sistemin insanlara verdiyi zərərlər

1. Əxlaq və vicdanın üstün gəldiyi hər cür anlayış aradan qaldırılıb, yerinə hüquq və azadlıqları əlindən alınmış, repressiv və totalitar rejim altında əzilən bir cəmiyyət yaradılmışdır. Əxlaq anlayışı köklü surətdə rədd edilmiş, praqmatizm məntiqi meydana gəlmişdir. Mövcud dinsiz sistemin mənfəətinə uyğun gəlməyən heç bir fəaliyyətə icazə verilməmişdir.

2. Hakimiyyətdəki diktatorun əsla səhv etməyəcəyi və həmişə doğru qərarlar verəcəyi istiqamətində təlqinlər edilmişdir. Bütün din əleyhdarı rejimlərdə (faşizm, kommunizm) başda olan liderin ilahlaşdırılması azğınlığı kommunist sistemdə ən üst səviyyədə mövcuddur.

3. Düşüncə və din azadlığı tamamilə aradan qaldırılmışdır. İbadət yerlərinə girişlər və dini izahatlar tamamilə qadağan edilmişdir. Hətta din ilə mübarizə aparmaq üçün dövlət büdcəsindən əhəmiyyətli bir vəsait ayrılmışdır.(16)

4. İqtisadiyyat tamamilə dövlətin nəzarəti altına keçmiş, investisiyalar dayanmış, fabriklər, istehsal sahələri, müəssisələr, banklar milliləşdirilmişdir.

5. Xüsusi mülkiyyətə kommunist əsgərlər tərəfindən müsadirə olunmuş, xalqın torpaqları, qazancları, məhsulları "ölkənin mənfəətləri" adı altında milliləşdirilmişdir.

6. Aclıq və qıtlıqdan milyonlarla yaşlı, qadın, kişi, uşaq qıvrılaraq ölmüş, çörək əldə etmək istəyənlər talondan asılı hala salınaraq, çox uzun növbələrdə günlərlə gözlədilmişdir.

7. İnsanlar düşərgələrdə toplanmış, kütləvi halda qətlə yetirilmiş, öldürülməyənlər də çox çətin şərtlərdə işlədilmişdir. Hətta işin tələblərinə tabe olmayan kəslər Sibir düşərgələrinə sürgün edilmişdir.

8. Daxili üsyanlar qanlı şəkildə kommunist hərbiçilər tərəfindən yatırılmış, üsyankarlar xalqın gözü qabağında güllələnmişlər.

9. Sistemi tənqid edənlər, əks istiqamətdə fikir bildirənlər istər siyasətçi, istər qabaqcıl şəxslər, istərsə də mütəfəkkir olsun asılaraq öldürülmüşdürlər.

10. Hakimiyyətdəkilər varlanmış, çox rahat bir həyat yaşamış, xalq isə səfalət içində yaşamışdır. Məsələn, kommunist rejimin hakimiyyəti dövründə sovet ittifaqında normal bir işçinin gəliri ilə yüksək bir məmurun gəliri arasında orta hesabla 25.000-30.000 rubl arası fərq olduğu məlumdur. Kommunist partiyası üzvləri 25.000 rubldan 100.000 rubla qədər maaş alırdılar. Xalqın böyük bir qisminin maaşı isə yalnız 150 rubl idi. Həmçinin bundan başqa partiya üzvləri qəsr, avtomobil, sanatoriya kimi hər cür pulsuz imkana da sahib idilər. Halbuki həqiqətdə əmək sərf edən, işləyən xalqa bu imkanlardan heç biri verilməmişdir.(17)

11. Repressiv rejimin polisləri ölkə daxilində çox böyük qorxu yaratmışdır. Xalq hər an başına bir bəla gələcəyi qorxusu içində yaşamaq məcburiyyətində qalmışdı.

12. Ölkədə qarşıdurmaların, döyüşlərin, iğtişaşların ardı arası kəsilməmişdir.

13. Məktəblərdə repressiv və totalitar təhsil yaradılmışdır. Təhsilin "bitərəf, obyektiv və siyasətdən kənar ola bilməyəcəyi" Lenin tərəfindən hər fürsətdə vurğulanırdı. 25 Avqust 1918-ci ildə təşkil edilən Sovet təhsilinin birinci konqresində dedikləri bunu aydın şəkildə ortaya qoyur: "Məktəb sahəsində fəaliyyətimizin əsl məqsədi burjuaziyanı yox etməkdir. Biz aydın şəkildə elan edirik ki, siyasətdən kənar məktəb yoxdur. Əksini iddia etmək yalan və iki üzlülükdür". (18) Məqsəd kommunist sistemə xidmət edən, bu yolda mübarizədən başqa bir şey düşünməyən, başları keyləşdirilmiş, inancsız və əxlaqsız nəsillər yetişdirməkdir.

14. Gənclərin beyinləri dinsizliklə yuyulmuş, sülhsevər bir nəsil əvəzinə döyüşçü xadimlər yetişdirilmişdir.

15. Ailə anlayışı tamamilə aradan qaldırılmış, yeni doğulan uşaqlar ailələrindən alınıb körpələr evində böyüdülmüş, kommunist düşüncəyə və "dövlət mənfəətlərinə" zidd olan ailə anlayışı aradan qaldırılmışdır. Hətta kommunist partiyanın bir çox konfransında, "ailə əlaqələri və ailə anlayışları mövcud olduğu müddətcə inqilab gücsüz qalacaq" şəklində və buna bənzər səhv məntiqlər aydın şəkildə ifadə edilmişdir.(19)

16. İncəsənət və elmdə heç bir inkişaf baş verməmiş, pullar silahlanmağa və insan öldürməyə qoyulmuşdur.

17. Heç bir məqsəd və qayəsi olmayan gənc nəsil narkotik və alkoqol asılısı halına gətirilmiş, intihar səviyyəsi yüksəlmişdir.

18. Mətbuat nəşr azadlığı tamamilə ortadan qalxmış, nəşrlərin sistemi və lideri tərifləyən şəkildə olması zəruri hala gətirilmişdir. Əks təqdirdə nəşriyyatçılar mütləq susdurulmuşdur.

# Nəticə

**Bizim vəzifəmiz ancaq vəhy olunanı aşkar təbliğ etməkdir". (Yasin surəsi, 17)**

Bu kitabda, aclıq və səfalətdən əxlaqi degenerasiyaya qədər bu gün dünyada mövcud olan və həllini gözləyən bir çox problemdən bəhs edildi. Burada bəhs olunan mövzular əslində bütün insanların bildiyi və şahid olduqları mövzulardır. Ancaq insanların böyük bir hissəsi bu problemlərin heç birini həll etmək məsuliyyətini öz boynuna götürməz, hətta haqqında düşünmə ehtiyacı belə hiss etməz. Bir qisim insan isə bu problemləri tez-tez gündəmə gətirər, hətta haqqında düşünür və bu problemlərdən ötrü narahat olar.

Əsrlər boyu insanların üz-üzə gəldikləri problemlərə çıxış yolu tapıla bilməmələrinin səbəbi həllin həmişə səhv sistem və inanclarda axtarılmış olmasıdır. Halbuki çıxış yolu Allahın insanlar üçün seçib bəyəndiyi Quran əxlaqındadır. Dünyanın bu həll edilməmiş problemləriylə razılaşmaq, hadisələrə tamaşaçı qalmaq və ya bütün bu problemlərin həll edilməsini uzaq və qeyri-mümkün kimi görmək böyük bir səhv olar. Çünki bütün insanları yaradan Allah onların ən rahat olacaqları, rifah, dinclik və etimad duyğusu içində yaşayacaqları sistemi də yaratmış və bunu insanlara Quran vasitəçiliyi ilə bildirmişdir. Allahın **"O gün hər ümmətə özlərindən bir şahid göndərəcəyik, səni də onlara şahid gətirəcəyik. Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yol göstəricisi, mərhəmət və müjdə olaraq nazil etdik". (Nəhl surəsi, 89)** ayəsində də bildirdiyi kimi Quran hər mövzuda insanlara yol göstərici bir Kitabdır.

Allahın Quranda bildirdiyi əxlaq, bütün xurafatlardan təmizlənmiş halda insanlara izah edildiyi və insanlar Quran əxlaqını yaşamağa təşviq edildikləri təqdirdə, dünyada mövcud olan bütün problemlər həll ediləcək.

Unudulmamalı olan və olduqca əhəmiyyətli olan bir başqa məqam isə budur: İmanı və Quran əxlaqını yaşamağın bir sirri olaraq Allah insanlara dünyada da gözəl bir həyat vəd edir. Buna görə də Quran əxlaqı həm problemləri çıxış yolu olar, həm də sonsuz mərhəmət sahibi olan Allah Quran əxlaqını yaşayan insanları dünyada gözəl və problemsiz bir həyatla mükafatlandırar:

**Sizdə olan nemətlər tükənəcək, Allah yanında olan nemətlər isə daim qalacaqdır. Səbirli olanlara etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik. Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 96-97)**

Həll Quran əxlaqında olduğuna görə Quranın bütün insanlara izah edilməsi vicdan sahibi insanların boynuna düşən böyük və əhəmiyyətli bir məsuliyyətdir:

Bizim vəzifəmiz ancaq vəhy olunanı aşkar təbliğ etməkdir”. (Yasin surəsi, 17)

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez

bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin

mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur

geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin

qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən

əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə

üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

### Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

### İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld,

təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək,

canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır.

Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə

edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

### Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

### Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

### Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların

xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

Zülmə məruz qalan, işgəncəylə öldürülən insanlar, günahsız körpələr, bir çörək alacaq pulu belə olmayanlar, soyuq havada, bezdən çadırlarda az qala küçədə yatanlar, xəstəliklərini müalicə etdirəcək pul tapa bilməyənlər və ya qoca və gücsüz olmalarına baxmayaraq, xəstəxanalarda saatlarla hətta günlərlə müalicə növbəsi gözləyənlər, yalnız müəyyən bir qəbiləyə mənsub olduqları üçün qətl edilənlər, inanclarından ötrü evlərindən, yurdlarından çıxardılan qadınlar, uşaqlar və yaşlılar, bir tərəfdən hələ də davam edən israfçılıq, digər tərəfdən isə aclıqdan və baxımsızlıqdan məhv olan, ölümə tərk edilən yazıq insanlar, küçəyə atılan, öz başının çarəsinə baxa bilməyəcək qədər kiçik və müdafiəsiz uşaqlar, ailəsini dolandıra bilmək üçün kiçik yaşda məktəbə getməyib, oyun oynamayıb işləyən və ya dilənən uşaqlar, hər an düşmənləri tərəfindən öldürülmə qorxusu ilə yaşayan insanlar...

Bu insanları xilas etmək, bütün dünyanın ədalət, hüzur, təhlükəsizlik və zənginlik içində yaşanan, rifah dolu bir yer olmasını təmin etmək üçün əvvəlcə insanlar vicdan sahibi olmalıdır. Vicdan sahibi olmağın yeganə yolu isə imandır. Ancaq imanlı insanlar həmişə vicdanlarından istifadə edərək hərəkət edirlər.

Nəticə etibarilə, dünyadakı ədalətsizliyin, iğtişaşların, terrorun, qırğınların, aclığın, səfalətin və zülmün yeganə bir həlli vardır: Quran Əxlaqı. Məhz bu kitabda, Quran əxlaqı yaşandıqda nə qədər aydınlıq, dinclik və xoşbəxtlik dolu bir dünyanın meydana gələcəyi izah edilir.